RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 152 (9319) 22 İYUL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Şuşada I Qlobal Media Forumu



## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi

- Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir.
- Bizim Prezident Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktdır. Bu, regional inkişaf və sabitlik baxımından çox mühüm amildir.
- İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq.
- Biz dinc əhaliyə qarşı heç vaxt atəş açmamışıq. Amma onlar müharibə zamanı bizim dinc şəhərlərimizi "İskəndər", "Toçka-U", "Skad" raketləri ilə atəşə tuturdular. Yüzə yaxın günahsız insan, o cümlədən 12 uşaq bu namərd atəş nəticəsində həlak olmuşdur.
- Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır. Yenə də deyirəm, qisas almaq üçün yox, unutmamalıdır ki, heç vaxt təkrarlanmasın.
- Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Yəni onlar bu torpaqlara, Qarabağ torpağına, o cümlədən Şuşaya qonaq kimi gəlmişdilər.
- Cəmi səkkiz ay ərzində Laçın şəhəri tamamilə yenidən quruldu və bu gün orada 700-dən çox ailə üçün şərait - həm fərdi evlər, həm çoxmənzilli evlər var. Sentyabrın 15-dək məktəb də, uşaq bağçası da, xəstəxana da hazır olacaq. Digər sosial obyektlər də inşa edilir.
- Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. "Böyük qayıdış" proqramı qəbul edilib, proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. İnfrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təxminən 7 milyard ABŞ dollarına bərabər olacaq. Bu, ancaq başlanğıcdır.
- Birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıb.
- Minaların xəritəsinin təqdim edilməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır. Biz bilirik ki, o xəritələr onlarda var, çünki minalar məhz belə basdırılır. Minaları basdıranların əlində xəritə olur, çünki onlar özləri həmin minaya düşə bilərlər.
- Təkcə Qarabağ regionunda 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Şuşa şəhərinə, ümid edirəm ki, gələn il birinci sakinlər gələcək, yerləşəcəklər.
- İkinci Qarabağ müharibəsindən indiyədək təxminən üç il keçib. Biz getdikcə daha çox birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın hissəsidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı.
- Keçən ilin fevralında imzalanmış bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsidir. Bu bəyannamə müstəqilliyin müxtəlif dövrlərində müxtəlif şəkildə təşəkkül tapan münasibətlərin bir formasıdır.

**İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib və sualları cavablandırıb.

→ 2-6

## Heydər Əliyev İli - 2023



# Jurnalistlərin böyük dostu idi

Azərbaycan milli mətbuatı da uzun, mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Mətbuatımızın qaranquşu sayılan "Əkinçi" qəzetinin ilk nömrəsi 22 iyul 1875-ci ildə işıq üzü gördü. Bu, xalqımızın ictimai-siyasi, mənəvi və mədəni həyatında çox mühüm hadisə idi. Kütləvi savadsızlığın baş alıb getdiyi, mətbəə və çap imkanlarının məhdudluğu şəraitində qəzet buraxmaq heç də asan məsələ deyildi. Üstəlik, çox ciddi və qərəzli çar senzurasının mövcudluğunu da nəzərə alsaq, məsələnin mürəkkəbliyi daha aydın duyular. Lakin həmin dövrdə öz xalqına təmənnasız xidmət etməyə, onun gözünü açıb maarifləndirməyə çalışan görkəmli ziyalılar, vətənpərvər insanlar da vardı və onlar heç bir çətinlikdən qorxmayaraq, geri çəkilmək fikrində deyildilər. Mətbu sözün, xeyirxah əməllərin də faydası hələ lazımınca qiymətləndirilmirdi. "Əkinçi"nin yaradıcısı Həsən bəy Zərdabi isə ruhdan düşməyərək bütün məhrumiyyətlərə dözürdü: "Hər kəsi çağırıram gəlməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın, necə ki bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürür ilə əriyib deşilir, habelə söz də, ələlxüsus, doğru söz, mürür və qanmazın başını deşib, onun beyninə əsər edər… Belədə qəzet çıxarmaqdan bir qeyri-əlac yoxdur ki, kağızın üstündə yazılmış o doğru sözlər qapı-pəncərələrdən o iman mənzilinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın".

→ 9



## Prezident İlham Əliyev Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına görüləcək işlər barədə məlumat verdi.

→ 7



## Prezident İlham Əliyev Şuşa Şəhər Xəstəxanasının binasında tikinti işlərinin gedişatı ilə tanış olub

**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa Şəhər Xəstəxanasının binasında tikinti işlərinin gedişatı ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Xatırladaq ki, Şuşa Şəhər Xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

→ 7



## Şuşada 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişatı ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişatı ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 960 şagird yerlik üçmərtəbəli binasında tədrisin təşkili üçün hər cür şərait yaradılıb.

→ 7

# Şuşada I Qlobal Media Forumu

## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi

*Əvvəli 1-ci səh.*

Mərasimdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Hörmətli qonaqlar, xanımlar və cənablar, Qarabağa, Şuşaya xoş gəlmisiniz.

Mən çox şadam ki, sizi bu gün burada görürəm, çox sağ olun bizim dəvətimizi qəbul etmisiniz və Şuşa Qlobal Media Forumunda iştirak edirsiniz. Bu, bizim ölkəmiz üçün və əlbəttə, Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir.

Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir. Çünki Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı. Siz buraya gələrkən azad olunmuş ərazilərdən keçdiniz. Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi. Bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır. Biz buraya məhz bu şəkildə gəlmişik, şəhərlərimizi və kəndlərimizi azad edə-edə gəlmişik. Bu şəhər həm də bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət, bu gün Qlobal Media Forumu keçirilir. Yəni bu şəhər öz kimliyini qoruya bilmişdir. Baxmayaraq ki, işğal dövründə o, məqsədli şəkildə, qəsdən dağıdılmışdır.

Mən hesab edirəm ki, uzun nitq söyləməyim, birbaşa müzakirələrə keçək və sizi maraqlandıran suallara cavab verəcəyəm. Mən burada nitqimi dayandırıram və sözü moderatora verirəm.

**Moderator:** Zati-aliləri, icazə verin, əvvəlcə Sizə təşəkkür edim ki, bu gün bizimlə bir yerdəsiniz. Xanımlar və cənablar, cənab Prezident qeyd etdiyi kimi, müxtəlif fikir mübadiləsi aparmaq üçün buradayıq.

Cənab Prezident, icazənizlə biz iştirakçılardan suallar qəbul edəcəyik. Məlumat vermək istəyirəm ki, bəzi iştirakçılar öz suallarını artıq əvvəlcədən təqdim ediblər ki, vaxta qənaət edək. Mən onları bir-bir səsləndirəcəyəm. Ancaq iştirakçılardan xahiş edirik ki, sualları olduqca onu cənab Prezidentə təqdim etsinlər.

Cənab Prezident, icazənizlə başlaya bilərikmi?

TRT World, Türkiyə - Bora Bayraktar, buyurun.

**Bora Bayraktar:** Cənab Prezident, dəvətə görə təşəkkür edirəm. Mənim sualım Qarabağ Zəfəri ilə bağlıdır. Bilirik ki, ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Əlbəttə, bu əlaqələrdə liderlərin şəxsi münasibətləri müstəsna əhəmiyyətə malikdir. Biz bilirik ki, Zati-alinizin Türkiyə Prezidenti cənab Ərdoğanla çox gözəl münasibəti var və bu xüsusi münasibətin Qarabağın azad olunmasında xüsusi rolu olmuşdur.

Cənab Prezident, Türkiyə Prezidenti artıq növbəti beş illiyə prezident seçilibdir. Bu, o deməkdir ki, Siz növbəti beş il ərzində də bir yerdə çalışacaqsınız. Zənnimcə, bu, çox gözəl bir fürsətdir. Cənab Prezident bu növbəti beş ildə Sizin prioritetləriniz nədən ibarət olacaqdır? Yəni, zənninizcə, biz bir yerdə nələri etməliyik, Türkiyə ilə əməkdaşlıq baxımından ən aktual məsələlər hansılardır?

**Prezident İlham Əliyev:** Tamamilə haqlısınız, bizim Prezident Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktdır. Bu, regional inkişaf və sabitlik baxımından çox mühüm amildir. Eyni zamanda Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi "Azərbaycan yalnız deyil!" bəyanatı bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi.




İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq. Həmin bəyannamə bu mehmanxanadan bir neçə yüz metr kənarda imzalanıb və münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırıb. Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük sərvətdir. Bu bəyannamə qarşımızda yeni üfüqlər açır. Baxmayaraq ki, bundan öncə də Azərbaycan və Türkiyə bir çox sahədə birlik, həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirib. Əməkdaşlığımızın geniş gündəliyinə nəzər salsaq, siyasət, enerji, ticarət, nəqliyyat, müdafiə, müdafiə sənayesi və bir çox sahədə əməkdaşlığın olduğunu görərik. Yəni əməkdaşlığın yüksək səviyyədə olmadığı sahəni tapmaq çətindir. Qardaşım Prezident Ərdoğanın yenidən seçiləcəyinə mənim şübhəm yox idi. Çünki onun hakimiyyətdə olduğu 20 il ərzində Türkiyə üçün etdiyi öz xalqına və ölkəsinə sadiqliyin təzahürüdür. Bu gün Türkiyə qlobal liderlərdəndir. Türkiyənin beynəlxalq nüfuzu ildən-ilə artır. Əlbəttə, Azərbaycanda elə bir adam tapmaq çətin olar ki, seçkilərin nəticəsindən məmnun olmasın. Əlbəttə ki, növbəti beş il ərzində biz sıx tərəfdaşlığımızı davam etdirəcəyik, dünya dəyişir, regionda vəziyyət dəyişir. Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir. Həm qlobal məsələlərdə və xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmli və vacibdir, o, sabitləşdirici rol oynayır. Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir və o rol həm Azərbaycanda, həm onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir.

Bildiyiniz kimi, Prezident Ərdoğan seçkilərdən sonra ilk dövlət səfərini Azərbaycana edibdir. Bu ənənədir. Mən də yenidən seçilərkən ilk səfərimi Türkiyəyə etmişdim. Bundan əlavə, bildiyiniz kimi, mən Prezident Ərdoğanın inauqurasiya mərasimində iştirak etdim və orada da biz gələcək əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə, mən bütün məsələləri açıqlamaq istəməzdim, ancaq bu, məlumdur ki, qarşıdan gələn illərdə Türkiyə və Azərbaycan regionda daha önəmli rol oynayacaqdır. Əlbəttə ki, bu potensialdan istifadə edəcəyik ki, ölkələrimizi daha da yaxınlaşdıraq.

**Moderator:** ABŞ-dən olan jurnalist Ceyms Flu.

**Ceyms Flu:** Təşəkkür edirəm cənab Prezident, mənim sualım Azərbaycana qarşı olan təhlükələrlə bağlıdır. Siz ölkənizlə bağlı ən əsas təhlükələri nədə görürsünüz?

**Prezident İlham Əliyev:** Bilirsiniz, torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. Birincisi, daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir. Mən rəqəmlərə varmaq istəməzdim, ancaq maraqlansanız görərsiniz ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir, biz öz resurslarımızla özümüzü təmin edirik və yaxşı idarəçilik həyata keçiririk. Bu baxımdan keçmişdə bizə olan təhlükə məhz Ermənistan və onun işğalı ilə bağlı idi. Həmin təhlükə 30 il ərzində məhz buradan qaynaqlanırdı və artıq biz bu təhlükənin öhdəsindən gəlmişik. Ancaq, əlbəttə, biz ayıq olmalıyıq, biz keçmişimizi unutmamalıyıq. Biz unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı, gözlənilmədiyi anda qonşularımız kürəyimizə bıçaq sancdı və o zaman Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Eyni zamanda biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var. O da bizim tariximizdən qaynaqlanır və biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Biz səsimizi ucaldırdıq və deyirdik BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, Ermənistan qoşunları dərhal və qeyd-şərtsiz Azərbaycanın ərazisindən çıxarılmalıdır. Ancaq o qətnamələrə riayət edilmirdi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda sülhün təminatı yalnız gücdür. Bunu deyərkən, əlbəttə, biz gələcəkdə yarana biləcək təhlükələri istisna etməməliyik, çünki dünya və bizim regionumuz bu gün çətin proqnozlaşdırılır. Ancaq hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yəqin, bu, ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik.

**Mixail Qusman:** İcazənizlə sual vermək istəyirəm. Adım Mixail Qusmandır. Mən TASS Agentliyini təmsil edirəm.

Hörmətli cənab Prezident, bir ildən bir az çox müddət əvvəl - fevralın 23-də biz TASS Agentliyində həmkarlarımızla birlikdə Sizi salamlamaq şərəfinə nail olmuşduq, indi onların bir neçəsi Rusiya KİV-lərinin rəhbərləri ilə birgə bu zaldadır. Bu, Sizin Rusiya Prezidenti ilə Moskva Bəyannaməsini imzalamanızdan sonra ertəsi gün olmuşdu. Bir ildən artıq vaxt keçib. Dünya daha çox turbulent vəziyyətindədir. Azərbaycan qalib olduğu 44 günlük müharibədən sonra ardıcıl iş aparır, lakin hələ ki, Ermənistanla sülh bağlamaq mümkün olmur. Rusiya xüsusi hərbi əməliyyat aparır. Hər halda Siz imzaladığınız bu memorandumun inkişafını necə qiymətləndirirsiniz? O, necə yerinə yetirilir? Onun perspektivləri necədir? Fevralın 22-də Moskvada imzalanan bu memorandumun reallaşdırılmasında problemlər varmı?

Mənim daha bir sualım olacaq. Sağ olun.

**Prezident İlham Əliyev:** Zənnimcə, ötən ilin fevralında imzalanan bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafında bir mərhələdir. Bəyannamə özündə müstəqilliyin ayrı-ayrı dövrlərində müxtəlif cür inkişaf edən, lakin hər iki ölkənin uzun illər ərzində bəyan etdikləri kimi strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu münasibətlərin inkişafı tarixini ehtiva edir. Bu, həqiqətən də, belə olub, çünki iki ölkə tərəfindən görülən işin həcminə nəzər salsaq, görmək olar ki, hər iki tərəf əlaqələrin möhkəmlənməsini və konkret nəticələrə əsaslanan əməkdaşlığı hədəf götürüb.

Biz sizinlə bu münasibətlərin dərinliyini yaxşı bilirik və qarşılıqlı fəaliyyətimizin sahəsi kifayət qədər genişdir. Uzun illər Rusiyanın vasitəçi qismində mühüm rol oynadığı, həmçinin hərbi əməliyyatların dayandırılmasında mühüm rol oynadığı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin, məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması bu sahələrdən biri olub.

Biz o günləri yaxşı xatırlayırıq. Məhz Rusiya tərəfi Ermənistan və Azərbaycan arasında, - mən rəhbərlik arasında nəzərdə tuturam, - 2020-ci il noyabrın 9-da, üçtərəfli Bəyanatın razılaşdırılmasının getdiyi bir vaxtda həmin birləşdirici rolu oynamışdı. Bu səbəbdən də Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması möhkəm təmələ malik idi.

İmzalanmadan sonrakı dövrə gəlincə, bu dövr sülh üçün, regionumuz üçün, o cümlədən Rusiya və bizim üçün tamamilə yeni dövrdür. Lakin buna və geosiyasi vəziyyətin bu cür ciddi dəyişikliyinə baxmayaraq, bəyannamə imzalanan andan bəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı kifayət qədər uğurlu olub. Yüksək səviyyədə xeyli təmaslar olub, hökumət başçıları, xarici siyasət qurumları və digər hökumət və ictimai strukturların təmsilçiləri səviyyəsində təmaslar olub. Buna görə də mən əminliklə deyə bilərəm ki, bəyannamənin maddələri yerinə yetirilir. Başlıcası odur ki, rəhbərliklər səviyyəsində siyasi iradə mövcuddur. Burada media nümayəndələrinin təmsil olunmasından və sizin sabah və birigün həm əməkdaşlığı, həm də problemli məsələləri müzakirə edəcəyinizlə bağlı fürsətdən istifadə edərək demək istəyirəm ki, Rusiya kütləvi informasiya vasitələrində Azərbaycana münasibətdə və Azərbaycan kütləvi informasiya vasitələrində Rusiyaya münasibətdə gördüyümüz o kiçik nahamarlıqlar Azərbaycan və Rusiyanın siyasətinə heç bir təsir göstərmir.

Biz bunu dəqiq bilirik. Lakin bu, həmçinin necə deyərlər, media nümayəndələrinin öz qiymətləndirmələrində tam sərbəst olduqları zamanla bağlı məsələdir. Dünyada Rusiya-Ukrayna müharibəsinin başlanmasından, o cümlədən İkinci Qarabağ müharibəsindən sonra vəziyyət bizim regionda dramatik şəkildə dəyişdiyi üçün, əlbəttə, müxtəlif qiymətləndirmələr, müxtəlif təhlillər və müxtəlif rəylər qaçılmazdır. Lakin yenə də imkandan istifadə edərək demək istəyirəm ki, hər halda, belə məqamlar Azərbaycan rəhbərliyinin siyasi iradəsinə təsir etmir. Ona görə düşünürəm ki, münasibətlərimizin gələcəyi də ötən illərdə olduğu kimi, belə müsbət və uğurlu olacaqdır. Sizin sualınıza Azərbaycan dilində başladığınızı nəzərə alaraq, düşünürəm ki, Siz ikinci sualınızı da dərhal indi verə bilərsiniz. Yoxsa növbə çatmaya bilər.

**Mixail Qusman:** Təşəkkür edirəm, cənab Prezident. Mən sualımdan əvvəl böyük minnətdarlıq ifadə etmək istərdim, şəxsən Sizə və bu forumun təşkilatçılarına. Çünki mən iki il bundan əvvəl azad olunmuş Şuşaya səfər etdim, bu xoşbəxtlik mənə qismət oldu. Şuşa da, həqiqətən, möhtəşəm şəkildə dəyişir və forum da müstəsna səviyyədə təşkil olunmuşdur. İkinci sualım, son illər ərzində Azərbaycan Qoşulmama Hərəkatına uğurla rəhbərlik edir və bir ay bundan əvvəl Sizin sələfiniz Uqanda Prezidenti Museveni ilə təmasda oldum, söhbət etdim və Azərbaycanın illər boyunca Qoşulmama Hərəkatına uğurla rəhbərliyi haqqında danışdı, ona yeni nəfəs qatdığını xüsusi vurğuladı. Mənim bununla bağlı iki sualım var. Bu hərəkatın sonrakı təşəkkülünü hansı istiqamətdə görürsünüz? İkincisi, Azərbaycan hərəkata sədrlik etdiyi dövrdə burada qadınlar forumu, gənclər forumu yaradılıb. Burada medianı da nəzərə alırıq. Necə bilirsiniz, Qoşulmama Hərəkatında media forumu təşkil olunmasını Azərbaycanda necə görürsünüz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, çox yaxşı ideyadır. Zənnimcə, o, tərəfimizdən tam qəbul ediləcək. Bizim o qədər də çox vaxtımız qalmayıb, çünki bizim sədrliyimiz növbəti ilin əvvəlində başa çatır. Bu səbəbdən bunu etməyə nail olmaq üçün, yəqin ki, biz birlikdə çalışmalıyıq. Bildiyiniz kimi, təşəbbüs "cəzalandırılır", ona görə də sizi də bu tədbirin hazırlanmasında fəal iştirak etməyə dəvət edirəm. Xüsusilə, siz də qeyd etdiyiniz kimi, Qoşulmama Hərəkatının, mübaliğəsiz şəkildə deyə bilərəm ki, Azərbaycanın sədrliyi dövründə yeni nəfəs almasını nəzərə alsaq, bu, çox faydalı olacaq. Sirr deyil ki, son zamanlarda Hərəkat tədricən deqradasiyaya uğramışdı və o, praktik olaraq xüsusi davamı olmayan müəyyən məsələlərin müzakirə platformasına çevrilmişdi. Biz, bütün işlərdə olduğu kimi, həmçinin bu işimizə də böyük məsuliyyətlə yanaşdıq və institusional inkişaf istiqamətində addım-addım irəliləməyə başladıq. Düşünürəm ki, Azərbaycanın sədrliyinin yekdilliklə daha bir il müddətinə uzadılması faktı, - amma faktiki olaraq ilyarım müddətinə, - onu deməyə əsas verir ki, bizim fəaliyyətimiz qiymətləndirilib və ona ehtiyac var. Mən Sizin qeyd etdiyiniz formatlara əlavə olaraq, parlament platformasını da əlavə edərdim, bu, həmçinin institusional inkişaf baxımından çox mühüm elementdir. Hesab edirik ki, hərəkat məhz bu yolla getməlidir. Şübhəsiz ki, biz bir neçə aydan sonra öz səlahiyyətlərimizi Uqandaya təhvil verdikdən sonra Uqandanın sədrlik edəcəyi müəyyən müddətdə hələ üçlükdə olacağıq və təbii ki, səylərin birləşdirilməsində, hərəkatın fəaliyyətində konkret nəticələr əldə olunması işində fəal iştirak edəcəyik.

Deməliyəm ki, COVID-19 pandemiyası zamanı biz dünya ictimaiyyətinin bu problemə diqqətinin cəlb olunmasında liderlik nümayiş etdirdik. Azərbaycan sədr kimi, vaksin milliyyətçiliyinə qarşı fəal çıxış edən ölkələrdən biri olub. Biz heç kimdən çəkinməyərək, ölkələri öz adları ilə adlandırırdıq - onlar özlərinə lazım olduğundan beş dəfə artıq vaksin alırdılar, baxmayaraq ki, eyni zamanda bir çox yoxsul ölkələr müdafiə olunmamış qalırdılar. Yəni bu, digərləri ilə yanaşı, sadəcə olaraq, vicdansızlıqdır. Bizim təşəbbüsümüz ilə hərəkat ölkələrində məlumat bazası yaradılıb, bu bazadan Ümumdünya Səhiyyə Təşkilatı da istifadə edib. Bundan başqa, biz humanitar və maliyyə yardımı məqsədilə 10 milyon ABŞ dolları ayırmışıq və bir çox ölkələrə vaksinlərlə yardım etmişik. Yəni hərəkat ölkələri gördülər ki, bu struktur, təşkilat olmasa da, öz məqsədlərinə nail ola bilərlər.

Bakıda keçirilən sammitdə sədrliyi qəbul edərkən mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti və üzv ölkələrin legitim maraqlarını müdafiə edəcəyik. Düşünürəm ki, biz bu məsələnin öhdəsindən uğurla gəldik. İnanmaq istəyirəm ki, biz sədrlik səlahiyyətlərini təhvil verəndən sonra müsbət dinamika davam edəcək. Hər halda, biz bunun üçün əlimizdən gələni edəcəyik.

**Moderator:** "Real" Təhlil və İnformasiya Mərkəzi, Mirşahin Ağayev.

**Mirşahin Ağayev:** Cənab Prezident, 29 ildən sonra Şuşada Azərbaycan Respublikasının Prezidentinə sual vermək bəxtəvərliyini bizə nəsib etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Nəzərə alaq ki, sabah Milli Mətbuat Günüdür, bu, bizim hamımızın bayramıdır və bu bayramı ikiqat möhtəşəm etdiyinizə görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan olaraq bütün mediamızın adından minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.

*Ardı 3-cü səh.*

# Şuşada I Qlobal Media Forumu

## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi

*Əvvəli 2-ci səh.*



Sualım Sizin əlinizin işarəsi ilə bağlıdır. Bu, belə də olur, əl uzadırsınız və belə də olur "dəmir yumruq". Bu bəyanatı biz Şuşada çox eşitmişik və hər dəfə də bu bəyanatın real əks-sədasını, təsirini görmüşük. Sualım bu gün Şuşadan bir az da üzüaşağıdır, Xankəndi tərəfdədir. Bilirsiniz ki, separatçı qüvvələrin tör-töküntüləri orada müəyyən hadisələr törədirlər, dezinformasiyalarla məşğuldurlar. Guya ki, Azərbaycan kimlərisə, nələrisə blokadada saxlayır. Baxmayaraq ki, bu yaxınlarda mən Laçın yolunda "Mirşahinin vaxtı"nın xüsusi buraxılışını hazırladım və orada da hər şeyi gördülər ki, "Qırmızı Xaç" maşınları necə gəlib keçir oradan, insanlara münasibət nə qədər ılıqdır, mülayimdir. Bunlar öz yerində.

"4-cü Sənaye İnqilabı dövründə yeni media"nın qarşısında duran vəzifələr sırasında məhz bu tipli dezinformasiyalarla mübarizədən ötrü Siz bizdən nə tələb edirsiniz? Çünki Siz bizi Qələbəyə gətirmisiniz. Bizim media mübarizəmizdə də önümüzdə Siz oldunuz və Azərbaycanın informasiya blokadasının yarılmasında əsas açar şəxs Siz oldunuz. Biz Sizin ardınızca getdik. Ona görə də Sizdən bu məsələdə tövsiyə istəyirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Mən hesab edirəm ki, bu gün Azərbaycan mediası bu istiqamətdə çox böyük işlər görür. Təbii ki, ümumi istiqamət onsuz da bəlli idi. İşğal dövründə biz hamımız, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətənpərvər azərbaycanlı bir məqsədə doğru yorulmadan gedirdi. Mən işğal dövründə öz çıxışlarımda dəfələrlə deyirdim ki, o gün gələcək, azadlıq günü gələcək, hər birimiz bu günü hər an yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq. Bu, bizim ümumxalq qələbəmizdir. Yəni Azərbaycan xalqı bu Qələbəyə layiq idi.

Təbii ki, beynəlxalq hüququn, ərazi bütövlüyümüzün bərpası, bütün bunlar fundamental hüquqlardır və biz bu hüququ döyüş meydanında qazandıq, qan tökərək, şəhidlər verərək. Amma eyni zamanda Azərbaycan mediasının bu sahədəki fəaliyyəti, o cümlədən ona görə qiymətlidir ki, dünya ictimaiyyətinə təkcə beynəlxalq hüquq prizmasından yox, ümumi insani prizmadan üzləşdiyimiz problemi çatdırmaq üçün bizim birinci vasitəmiz media olmuşdur. Ona görə mən media nümayəndələri ilə əvvəlki dövrlərdə, yəni işğal dövründə görüşlər əsnasında hər zaman bunu qeyd edirdim. Qeyd edirdim ki, biz daha çox beynəlxalq auditoriyaya çıxmalıyıq.

Siz də yəqin ki, razılaşarsınız ki, əvvəlki dövrdə daha çox biz deyirdik, biz də eşidirdik. Sanki biz özümüz-özümüzə nəyisə sübut etməyə çalışırdıq. Bu, vacib idi. Vacib idi, məsələni gündəlikdə saxlamaq üçün, gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün. Şuşanı və o vaxt işğal altında olan digər torpaqları azad edən məhz o oğullar idi ki, onların mütləq əksəriyyəti heç vaxt nə Şuşanı, nə Ağdamı, nə işğal altında olan başqa torpağı görməmişdilər. Yəni evdəki, evlərdəki tərbiyə, məktəblərdəki tərbiyə və media tərəfindən bu məsələnin daim gündəlikdə saxlanması daxili birliyi böyük dərəcədə möhkəmləndirdi. Təbii ki, dövlət siyasəti başda olmaq şərtilə. Ancaq sonrakı mərhələdə biz daha çox beynəlxalq auditoriyaya çıxış etməyə başladıq. Yəni bu imkanlar da bizdə yarandı və müxtəlif dillərdə bizim bir çox media resurslarımızın nəşrləri də, internet saytları da, digər elektron vasitələri də mövcuddur. Bu gün isə biz yenə də öz həqiqətlərimizi sübut etməyə məhkumuq. Çünki bizə qarşı bu gün yenə də kampaniya davam edir. Bizim qələbəmizi həzm edə bilməyən, uğurlarımıza qısqanclıqla yanaşan, bizə qarşı açıq informasiya savaşına çıxanlara biz tutarlı, real arqumentlərlə cavab verməliyik və veririk. Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır. Ona görə cəmiyyətdə mövcud olan həmrəylik və birlik, bax, bu üstünlüyü bizə təmin edir.

O ki qaldı, tövsiyələrə, sözün düzü, mən bundan bir qədər uzağam. Çünki Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir, bu, birincisi. İkincisi, siz özünüz hər şeyi yaxşı bilirsiniz və mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir və xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni bu, yenə də media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir. Ona görə media nümayəndələrinə mənim tövsiyəm budur ki, ancaq belə də davam edin.

**Moderator:** Cənab Prezident, əslində, iştirakçılardan bizə daxil olan suallar artır və kifayət qədər fəal iştirak görürük. Ümid edirik ki, sualları səsləndirmək üçün vaxtımız olacaqdır. Birləşmiş Krallıqdan Cordan Morqan.

**Cordan Morqan:** Cənab Prezident, qonaqpərvərliyə görə təşəkkür edirəm. Adım Cordandır, Birləşmiş Krallıqdanam. Suallarım ondan ibarətdir ki, Siz Azərbaycan üçün və Qərbi Asiya regionu üçün hansı imkanları görürsünüz? Çünki bildiyiniz kimi, Çin və Səudiyyə Ərəbistanı yaxınlaşır və bu baxımdan Azərbaycan üçün hansı perspektivlər var?

**Prezident İlham Əliyev:** Bizim Asiya ölkələri üçün münasibətlər baxımından? Düz başa düşdüm?

**Cordan Morqan:** Yox, bütün region üçün perspektivlər baxımından.

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində, regional inkişaf, - Cənubi Qafqazı nəzərdə tuturam, - əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən üç il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı. Təəssüf ki, uzun illər - 28 il ərzində Minsk qrupu çərçivəsində gedən danışıqlar heç bir nəticə vermədi. Ümumiyyətlə, həll üçün hər hansı düstur ortaya qoyulmadı. O dövrdə çox ziddiyyətli, çox mücərrəd bəyanatlar verilirdi, bundan məqsəd münaqişənin dondurulması idi və bu, Azərbaycan üçün məqbul deyildi. Bəziləri çalışırdılar ki, bu münaqişəni dondursunlar, danışıqları sonsuz etsinlər və ictimai diplomatiya təşəbbüsləri ilə Azərbaycana müəyyən bir əməkdaşlıq təlqin olunsun. Beləliklə, biz Ermənistanla biznes qurmağa, münasibətlərin yaxşılaşmasına məcbur olaq və guya ki, münaqişə gələcək nəsillər tərəfindən həll edilməlidir.

Mən işğal dövründə dəfələrlə ictimaiyyət və beynəlxalq təşkilatlar qarşısında Ermənistana qarşı sanksiyaların tətbiq olunmasının vacibliyini bildirmişəm və bu da sözsüz ki, beynəlxalq təşkilatların bəyannamələrinə və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa Şurasının, həmçinin Avropa Şurası Parlament Assambleyasının qərarları, hətta Avropa Parlamentinin, - baxmayaraq ki, hazırda kifayət qədər erməniपərəst mövqedədir, onun da qəbul etdiyi qətnamə var idi ki, reallığı əks etdirirdi, - lakin bu sanksiyalar baş vermədi, bunlar Ermənistana qarşı tətbiq olunmadı. Çünki geosiyasi gündəlik tamamilə fərqli idi.

Odur ki, özümüz bunun öhdəsindən gəlməli olduq. Biz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri döyüş meydanında icra etməli olduq və hazırda vəziyyət dəyişib. Qeyd edim ki, həmin dövrlərdə beynəlxalq aktorların heç biri, yəni, bu gün "Qarabağ Azərbaycandır!" deyən beynəlxalq aktorlar heç vaxt bu ifadəni dilə gətirmirdilər. Postsovet məkanındakı digər münaqişələrlə bağlı belə ifadələr istifadə olunurdu. Azərbaycana gəldikdə isə deyirdilər ki, razılığa gəlməlisiniz. Deyirdilər ki, öz müqəddəratını təyinetmə və ərazi bütövlüyünü inteqrasiya etməlisiniz. Onlar bilirdilər ki, bu, mümkün deyil, bunun mümkünsüzlüyünü bilirdilər. Beynəlxalq hüququn fundamental prinsipləri var, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi bu prinsiplərdir. Lakin öz müqəddəratının təyin olunması ərazi bütövlüyü prinsipini kölgədə qoymur və nəzərə alsaq ki, Ermənistan artıq müstəqil dövlət kimi mövcuddur.

Lakin hazırda vəziyyət fərqlidir və beynəlxalq vasitəçilər, belə deyim, öz mövqelərini ifadə edirlər və onlar daha real bir nöqteyi-nəzərdən çıxış edirlər. Bilirsiniz, mən dəfələrlə eşitmişəm, xüsusilə işğal dövründə eşitmişəm, deyirdilər ki, Azərbaycan reallığı qəbul etməlidir, daha doğrusu, nəzərə almalıdır. Mən deyirəm ki, razıyam. Hazırda hamı yeni reallığı nəzərə almalıdır. Çünki 30 illik işğal dövrünü, dağıntılar dövrünü, həmçinin İkinci Qarabağ müharibəsinin reallıqlarını qəbul etmədən həlli düşünmək mümkün deyil. Lakin hazırda beynəlxalq vasitəçilərin səyləri kifayət deyil. Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesdə dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sonuncu mühüm məqamdır. Əgər bu addım atılsa, - danışıqlar heyəti və xarici işlər nazirləri səviyyəsində danışıqlar gedir, bilirsiniz ki, növbəti danışıqlar yaxın günlərdə Moskvada baş tutacaq, - Ermənistan bu bəndlə razılaşsa və Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin ilin sonunadək imzalanması kifayət qədər mümkündür. Lakin bu olmasa, biz onları məcbur edə bilmərik. Biz 28 il onları məcbur edə bilməmişik ki, beynəlxalq hüquqa riayət etsinlər. Yalnız bunu güc hesabına məcbur etdik. Lakin bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Lakin eyni zamanda çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq. Beləliklə, bildiyiniz kimi, üç vasitəçi var. Bunların hər biri kifayət qədər beynəlxalq səviyyədə mexanizmlərdən istifadə edə bilər ki, müstəqil olaraq fəaliyyət göstərsin. Biz ümid edirik ki, bu üçündən birində təkamülü, irəliləyişi görəcəyik.

**Moderator:** Növbəti sual İtaliya nümayəndəsi cənab Maurisio Geri.

**Maurisio Geri:** Təşəkkür edirəm, cənab Prezident, artıq ikinci dəfədir Şuşadayam. Bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Sualım son iki həftə ilə bağlıdır. Mən iki həftə ərzində ADA Universitetində Yay Enerji Məktəbində iştirak etmişəm. Mən Azərbaycanın Avropa və Mərkəzi Asiya arasında körpü rolu haqqında soruşmaq istəyirəm. Əlalxüsus, qaz və digər enerjinin Çin və Rusiya kimi ölkələrdən tam istehlakı ilə əlaqədar. Mən bilirəm ki, Türkmənistanla layihələr var, - əgər Türkmənistan razılaşsa, bilirəm ki, siz də bu layihənin tərəfdaşısınız, - Avropa və yaxud İtaliya hansı dəstəyi verməlidir ki, bu proses inkişaf etsin?

**Prezident İlham Əliyev:** Trans-Xəzər Qaz Boru Kəməri ilə əlaqədar mən artıq bir neçə dəfə mövqeyimi bildirmişəm. Bir daha təkrar etmək istəyirəm ki, bu, Azərbaycanın təşəbbüsü ilə başlayacaq bir layihə deyil. Çünki Azərbaycanın təşəbbüskarı olduğu layihələr həmin o layihələrdir ki, bu, ölkələrin resurslarına əsaslansın. Məsələn, "Cənub qaz dəhlizi". Biz o layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Avropa İttifaqının enerji komissarı Azərbaycanı panAvropa qaz tədarükçüsü adlandırır. Bizim sözsüz ki, Avropaya qaz tədarükümüzün coğrafiyası genişlənir və ümidvaram ki, ilin sonuna qədər əlavə iki Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevriləcək.

O ki qaldı, Trans-Xəzər layihəsinə, bu layihə bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır. Odur ki, bu təşəbbüsün irəli sürülməsi və yaxud ona sərmayə yatırılması bizdən asılı deyil. Biz nə edə bilərik? Biz tərəfimizdən mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin. Lakin eyni zamanda onu unutmamalıyıq ki, bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır. Bu, əvvəllər bizdən gözlənilmirdi. Lakin indi gözlənilir və vəziyyət dəyişib. Odur ki, biz genişlənmə haqqında niyə danışırıq? Azərbaycan daha çox qaz istehsal edəcək və hər yeni il əvvəlki ildən daha çox istehsal edir. Məsələn, 2021-ci ildə biz 19 milyard kubmetr ixrac edirdik, keçən il artıq 22-yə qalxmışdır və cari ildə 24 olacaq. Sizinlə görüşmədiyimiz bu aylarda biz ən azı 300 milyard kubmetr ehtiyatı olan "Abşeron" qaz yatağının kəşfini elan etmişik və artıq ilk quru "Şahdəniz"dəki bütün quyulardan daha məhsuldardır. Odur ki, bizim boru kəmərləri sisteminin genişlənməsi öz resurslarımızın artması ilə bağlıdır. Xəzər dənizinin şərq sahillərindən əlavə qaz ehtiyatlarına gəldikdə, bunun üçün Trans-Xəzər sualtı qaz boru kəməri inşa edilməlidir və ikincisi, Bakıdan Avropa istiqamətində "Cənub qaz dəhlizi" kimi yeni infrastruktur lazımdır. Sual yaranır ki, bu mühüm layihəni kim maliyyələşdirəcək? Bu sualın hələlik cavabı yoxdur. Bu suala cavab tapana qədər layihənin icrası və yaxud da bu məsələ haqqında düşünmək bir o qədər real olmayacaq. Eyni zamanda biz bilirik ki, Avropa bankları mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmir. Odur ki, bu layihə üçün ciddi vəsait cəlb etmək çətin olacaq. Məsələn, "Cənub qaz dəhlizi"ni inşa edəndə biz korporativ maliyyə ilə bərabər, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından, həmçinin Asiya İnkişaf Bankından və Asiya İnfrastruktur İnvestisiya Bankından vəsait cəlb etmişdik. Lakin indi isə bunlardan ikisi - Avropa institutları mədən yanacağı ilə əlaqədar layihələri hazırda maliyyələşdirmir. Onlar yaşıl keçid layihələrini maliyyələşdirirlər. Bu da sözsüz ki, vəziyyəti daha çətinləşdirir. Avropada qaz qiymətlərinin dəyişkənliyi də yeni-yeni suallar ortaya qoyur. Həmçinin qiymətə qoyulan məhdudiyyət, - mən düşünürəm ki, bu, qəbulolunmazdır, istehlakçılar həmin yuxarı həddi təyin edir, - bu da istənilən bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Avropa ölkələri illərlə bazar iqtisadiyyatı prinsiplərinin tərəfdarı olub. Beləliklə, real baxışdan bu, çox ciddi bir problemdir. Lakin kimsə Trans-Xəzər boru kəmərini inşa etmək istəsə biz şad olarıq. Nəticədə bizə əlavə tranzit rüsumları ödəniləcək və yeni əməkdaşlıq imkanları yaranacaq.

**Vüsalə Mahirqızı,** "APA Group"un icraçı direktoru: Cənab Prezident, qayıdışla bağlı soruşmaq istəyirəm. Hazırda "Böyük qayıdış" proqramı üzrə əhali Laçına köçürülür. Növbəti hansı rayonumuzun sakinləri öz rayonlarında qarşılanacaq? İkinci sualım isə Sizə bir az bəlkə şəxsi görünə bilər. Qarabağ azad olunanda buraya ordumuzun ardınca ilk Siz gəldiniz. Sonra çox tez-tez Qarabağa səfərlər edirsiniz, hər dəfə gələndə biz izləyirik, yeni layihələr, yeni yerlər açılır. O, Sizdə necə bir hiss yaradır? Tamamilə dağılmış bir yer və hər dəfə onu daşbadaş tikmək. Necə hiss edirsiniz? Ümumiyyətlə, qalib Prezident olmaq necə bir hissdir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, mənim hiss etdiyim duyğular Azərbaycan xalqının hiss etdiyi duyğulardan heç də fərqlənmir. Sadəcə olaraq, fərq ondadır ki, mən bu yerləri, necə deyərlər, tez-tez görürəm. İnsanların əksəriyyəti bunu televiziya vasitəsilə görür. Ancaq eyni zamanda bildiyiniz kimi, azad edilmiş bölgələrə indi turlar da təşkil edilir və qeyd etdiyiniz kimi, vətəndaşlar da sürətlə azad edilmiş torpaqlara qayıdırlar.

Əlbəttə, ilk növbədə, qürur hissi duyuram. Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə, ilk növbədə, hiss etdiyim qürur hissidir. Çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil. Mən bilirəm, həmçinin siz də bilirsiniz ki, Şuşaya çatmaq üçün bizim qəhrəman əsgərlərimiz və zabitlərimiz Zəfər yolunu necə keçiblər, yüngül silahlarla, qarşılarında topla, tankla, artilleriya ilə silahlanmış düşmənlə üz-üzə, bəzi hallarda əlbəyaxa döyüşlərdə ölümə necə gediblər. Azərbaycan xalqının ruhu necə də yüksəkdir. Yəni bütün bunlar xalqımızı hər birimizə bir daha tanıtdı. Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha hər birimizə, ilk növbədə, bütün dünyaya göstərdi.

Dağılmış şəhərləri, kəndləri görmək hər birimiz üçün çox ağırdır. Bu ağrı ilə biz barışa bilmirik. Baxmayaraq ki, mən artıq son üç ilə yaxın dövrdə azad edilmiş ərazilərdə bəlkə yüz dəfədən çox olmuşam. Hər dəfə dağıntıları görəndə ürəyim ağrıyır, hər dəfə özümə sual verirəm: nə üçün bizim qonşu saydığımız insanlar bu barbarlığa əl atıblar? Axı, biz onlara nə etmişdik? Özü də Birinci Qarabağ müharibəsində məğlub olan tərəf biz idik. Biz onların şəhərlərini dağıtmırdıq, biz onların qəbirlərini dağıtmırdıq, onların ölülərinin sümüklərini çıxarmırdıq. Nə üçün bunu ediblər? Bu insanların ürəyində bizə qarşı nə qədər nifrət var idi ki, insanlığa sığmayan bu əməlləri etsinlər. Yəni bunu mən bu günə qədər anlaya bilmirəm və yəqin ki, heç vaxt normal insan bunu anlaya bilməz.

*Ardı 4-cü səh.*

# Şuşada I Qlobal Media Forumu

## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi





*Əvvəli 3-cü səh.*

Eyni zamanda hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur.

O ki qaldı, "Böyük qayıdış" proqramına, biz 30-dan çox şəhər və kəndin baş planını təsdiqlədik, bir çox kəndlərin təməli də qoyuldu və artıq bu rəqəmlər səsləndirilmişdir. Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Ümid edirəm ki, Şuşa şəhərinə gələn il ilk sakinlər gələcək, yerləşəcəklər. İndi siz də yəqin ki, bu gün hələ vaxtınız olmayıb, ya axşam, ya sabah gəzəcəksiniz, görəcəksiniz ki, bir neçə yerdə artıq inşaat layihələrinin, yəni yaşayış binalarının tikintisi gedir.

Təbii ki, minatəmizləmə prosesi ən böyük əngəldir. Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var. Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə - 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də vaxtaşırı məlumatlandırılır, həm planlar haqqında, həm də görülmüş işlər haqqında. Şəhərlərin baş planları təsdiq olunanda həmin şəhərlərdə yaşamış insanların rəyi də nəzərə alınmışdır. Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Yəni biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsunlar və buna doğru gedirik və gedəcəyik.

**Moderator:** Növbəti sual, Misirdən olan Məcid Şalki.

**Məcid Şalki:** Cənab Prezident, mən Yaxın Şərq Xəbər Agentliyindənəm. Cənab Prezident, Siz ölkənizə qarşı olan təhlükələrdən və müharibədən sonrakı səylərinizi haqqında danışdınız. Siz minaları qeyd etdiniz. Minalar insanların gündəlik həyatına necə təsir edir? Bu, həm də inkişaf layihələrinə necə mane olur? Bunun öhdəsindən necə gəlirsiniz? Çünki minatəmizləmə çox bahalı prosesdir.

**Prezident İlham Əliyev:** Bəli, siz ən vacib məsələyə toxundunuz. Çünki minalar müharibə bitəndən sonra üç yüzdən artıq insanın həyatına son qoyub və ya onları ağır şəkildə yaralayıbdır. Yəni üç yüzə yaxın minanın partlaması azad olunmuş ərazilərdə baş vermişdir. Bu isə müharibə cinayətidir, minaları basdırmaq müharibə cinayətidir. Amma həmin minaların xəritəsini təqdim etməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır. Biz bilirik ki, o xəritələr onlarda var, çünki minalar məhz belə basdırılır. Minaları basdıranların əlində xəritə olur, çünki onlar özləri həmin minaya düşə bilərlər. Əvvəl onlar ən yüksək səviyyədə Ermənistan baş naziri şəxsən rəsmi bizə deyirdi ki, onlarda belə bir xəritələr yoxdur. Nəhayət, boyunlarına aldılar ki, belə bir xəritələr var. Bəs, nəyə görə bizə yalan deyirdilər? Çünki istəyirdilər ki, azərbaycanlılar ölməkdə davam etsinlər, şikəst olsunlar. Onlar daha sonra bizə mina xəritələrini təqdim etdilər. Amma həmin xəritələrin dəqiqliyi heç 25 faiz deyildi. Yəni bunun heç bir mahiyyəti yox idi. Bu, çox mənasız xəritələr idi. Biz ciddi səylər göstəririk, tədbirlər həyata keçiririk ki, minalardan azad olaq. Biz avadanlıq almışıq, xüsusi maşınlar gətirmişik. Bizim yerli şirkətlərdən biri artıq Azərbaycanda onları istehsal etməyə başlayıb. Biz özəl şirkətləri dəvət etmişik və bu istiqamətdə bir neçə özəl şirkət yaradılıbdır, onlar da bu prosesə qoşulublar. Bizim dövlət minatəmizləmə agentliyimiz ANAMA Müdafiə Nazirliyinin müvafiq bölmələri və Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri ilə birlikdə gecə-gündüz çalışırlar ki, əraziləri minadan təmizləsinlər. Ancaq bizdə olan hesablamaya görə, ərazilərimizdə bir milyondan artıq mina basdırılıb. Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni onlar etiraf etdilər ki, 400 mindən artıq mina basdırıblar. Ancaq biz bilirik və bu, olduqca dəqiq məlumatdır ki, minaların sayı 1 milyona yaxındır. Biz beynəlxalq şirkətlərdən bir neçə təklif almışıq ki, onlar bu sahədə işləsinlər. Təəssüf ki, qiymət çox yüksək idi. Mən təfərrüata varmaq istəmirəm, ancaq bu rəqəm bizdə olan rəqəmlərlə müqayisədə 8-10 dəfə artıq idi. Yəni, bizim yerli şirkətlərimiz və ANAMA minatəmizləmə fəaliyyətini beynəlxalq şirkətlərlə müqayisədə 8 və ya 10 dəfə ucuz həyata keçirir. Biz dronlardan fəal şəkildə istifadə edirik. Bizim bəzi parlaq zəkaya malik insanların sayəsində artıq belə dronlar var. Bu, bizə böyük yardım olur. Ancaq biz dərk edirik ki, bu, çox uzun bir prosesdir. Təəssüflər olsun, bilməliyik ki, gələcəkdə də qurbanlar olacaqdır, ermənilərin bizə qarşı terroru davam edir. Minalardan təmizlənməmiş əraziləri biz təcrid etmişik və azad olunmuş ərazilərə hələ də giriş məhduddur. Bu, bizə imkan verir ki, itkilərin qarşısını alaq. Ancaq keçmiş məcburi köçkünlər kütləvi şəkildə qayıdanda çox ehtiyatlı olmalıdırlar. Mən buradan onlara müraciət edirəm ki, icazə olmayan ərazilərə səfər etməsinlər. Bu, olduqca təhlükəlidir. Bu, ən böyük təhlükələrdən biridir. Təəssüf ki, bizi qarşıda uzun illər belə bir təhlükə gözləyir.

**Moderator:** Gürcüstandan Gela Vasadze.

**Gela Vasadze:** Cənab Prezident, hər şeydən əvvəl, belə irimiqyaslı və gözəl tədbirin təşkilinə görə sağ olun. Həqiqətən, təsirləndim. Mən sülhə doğru bir neçə addım və ya bir addım olması barədə Sizinlə razıyam. Lakin sülh Qarabağın erməni əhalisinin inteqrasiyası prosesinin necə keçəcəyindən asılıdır. Dostlarımla söhbət zamanı o xalq haqqında danışanda mən onlardan soruşuram: "Mənə bu xalqın telefonunu verin". Siz Qarabağ ermənilərinin telefonunu tapmısınız? Siz bu telefonu bilirsiniz? Sağ olun.

**Prezident İlham Əliyev:** Biz bu məsələ ilə bağlı öz mövqeyimizi dəfələrlə bəyan etmişik və maksimum konstruktivlik göstərmişik. Lakin təəssüf ki, Qarabağda hakimiyyəti ələ keçirmiş xunta və özlərini gah "prezident", gah "nazirlər", gah da "deputatlar" adlandıranlar artıq hər kəsdə gülüş doğurur. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüblər.

Biz təşəbbüs göstərdik, mən Qarabağ ermənilərinin nümayəndələri ilə təmasla məşğul olmaq üçün xüsusi nümayəndə təyin etdim və bu təmasların qurulması məqsədilə o, Qarabağa göndərildi. Birinci görüş məhz orada, Xocalı qəsəbəsində Rusiya sülhməramlı kontingentinin bazasında oldu. Bundan sonra biz Qarabağ ermənilərinin nümayəndələrini dialoqu davam etdirmək üçün Bakıya dəvət etdik. Lakin onlar imtina etdilər, həm də nümayişkaranə şəkildə. Müəyyən vaxtdan sonra biz onları yenidən dəvət etdik. Ola bilərdi ki, hansısa səhv olub, onların həqiqətən də bunu istəmədiklərinə əmin olmaq məsələsində yanlışlıq ola bilərdi. Yenə də imtina etdilər. Lakin mən onda dedim ki, üçüncü dəvət olmayacaq. İstəmirlərsə, demək, istəmirlər.

Amma sonra nə olduğunu yəqin ki, yaxşı bilirsiniz. Azərbaycan ilə Ermənistanın dövlət sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması. Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz. Biz utana biləcəyimiz və ya "bəli, bax, burada biz haqsızıq" deyəcəyimiz heç bir şey etməmişik. Biz hər şeyi düzgün etmişik.

Biz İkinci Qarabağ müharibəsinin başlanmasına qədər iki il müddətində erməni rəhbərliyinə də şans vermişik, amma onlar bundan istifadə etmədilər. Biz Laçın-Xankəndi yolunun, sadəcə, "özbaşına keçid" olduğu, Ermənistanın 2021-ci ildə istehsal etdiyi minaların bu yol vasitəsilə göndərdiyi vaxtda da şans verirdik. Biz bu minaları aşkar etdik, tapdıq. Biz Rusiya sülhməramlı kontingentinin, həmçinin Ağdamda yerləşən Rusiya-Türkiyə monitorinq mərkəzinin nümayəndələrini dəvət etdik, göstərdik və sual verdik: "Bu minalar Qarabağa necə gətirilib? Onları kim gətirib? Kim diqqətdən qaçırıb?". Halbuki bu, mümkün deyil. Ermənistan terroru davam etdirdiyindən, biz Qələbədən sonra öz ərazimizdə nə üçün həlak olmalıyıq?!

Ona görə də bizim bütün addımlarımız məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli idi. Bu səbəbdən sərhəddə nəzarət-buraxılış məntəqəsinin qoyulması postmünaqişə dövründə mühüm mərhələ idi və şəraiti əhəmiyyətli dərəcədə dəyişdi. Həmçinin bu hərəkətlərin, hərçənd dərhal və bütün aktorlar tərəfindən heç də həvəslə deyil, tam qəbul edilməsi nəticədə legitim olaraq qəbul olundu. Bu da bir mesaj idi. Lakin biz neçə dəfə mesaj göndərməliyik, neçə dəfə işarə etməliyik? Məgər bunlar artıq az idi? Həm Fərrux əməliyyatı, həm 2021-ci ilin mayında Ermənistan-Azərbaycan sərhədində vəziyyət, həm 2022-ci ilin sentyabrında sərhəddə vəziyyət, həm də nəzarət-buraxılış məntəqəsi. Axı biz neçə dəfə onlara mesaj verməliyik? Məgər belə anlamazdırlar?

Ona görə indi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. İndi də istismar edirlər, çünki ekofəallar Laçın-Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə "erməni rəhbərliyi" sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi. Onlar blokpost qoyaraq, bizi blokadada ittiham edirdilər. Bu gün onlar yenə Ağdam-Əsgəran yolunda beton plitələr qoyublar. Siz "nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı "Qarabağ Azərbaycandır" dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox. Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır.

Bu gün çadırlarda oturub və kiməsə etiraz edilməsi komediya şousudur. Bu, sadəcə, lətifədir. Özünü "prezidentlər" adlandıran şəxslərin etiraz etməsi, oturaq tətil bizdə bəzi jurnalistlər tərəfindən zarafat mövzusu olub. Yəqin ki, növbəti mərhələdə "uzanan" tətil olacaq. Sonra nə bilim, hansı olacaq, lakin bu, məsələyə kömək etməyəcək. Biz Qarabağdakı erməni azlığının hüquqları və təhlükəsizliyinə əməl etməklə Konstitusiyamız çərçivəsində və Azərbaycanda bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübə çərçivəsində yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırıq.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir, bizim gücümüz də bundadır. Azərbaycanda yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Nə üçün hansısa etnik qrup bu fonda fərqlənməlidir, bu, mənə də tam aydın deyil. Bax, bizim yanaşmamız belədir. Biz indiyədək Xankəndidə və ətrafında yaşayan cəmiyyətin sağlam düşüncəli hissəsinin Azərbaycana belə məhəl qoyulmamasının bütün perspektivsizliyini başa düşəcəyinə və sağlam düşüncənin üstünlük təşkil edəcəyinə inamımızı itirməmişik. Əks halda düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər. Onların reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub.

Onlar müxtəlif instansiyalara, qonşulardan başlayaraq uzaqda yerləşən bəzi ölkələrə qədər müxtəlif dövlətlərə müraciət ediblər. Amma, zənnimcə, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonunda bu reallıqları başa düşməli və barışmalıdırlar. Artıq söylədim ki, işğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdi ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar.

**Paolo von Schirach,** "Global Policy" İnstitutunun prezidenti: Cənab Prezident, qonaqpərvərliyə görə təşəkkür edirəm. Siz müharibədə qalib gəlmisiniz, indi isə sülhü təmin etməlisiniz. Siz bu gün Azərbaycanda çalışmaq istəyən Amerika şirkətlərinə hansı mesajı verə bilərsiniz? Təbii ki, neft və qaz sahəsi bəllidir. Ancaq digər sahələrdə Amerika şirkətlərinə və biznes liderlərinə hansı mesajınız ola bilər ki, qarşılıqlı, faydalı, şəffaf fəaliyyət göstərsinlər. Bu fəaliyyət təbii ki, Sizin müharibədən əziyyət çəkmiş xalqınızın da mənafeyi naminə olmalıdır. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əlbəttə, bu gün bizim prioritetimiz təbii ki, qeyri-neft sektorunun inkişafıdır. Biz ümumi daxili məhsulda iqtisadiyyatımızın qeyri-neft sektorunun payını ildən-ilə artırırıq. O, artıq 50 faizdən yüksəkdir. Bu gün biz həm də qeyri-neft ixracını artırırıq. Mənim Amerika şirkətlərinə mesajım o ola bilər ki, bu gün kapital və sərmayə proqnozlaşdırılabilən və sabit məkanlara gedir, belə bir məkan məhz Azərbaycandır. Hətta işğal dövründə də Azərbaycan sabitlik məkanı idi. Ancaq əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalması müəyyən çətinliklər yaradırdı, müəyyən risklər doğururdu. Ancaq İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra həmin risklər ümumən minimuma endirilib.

Bizim hökumətimizin çox uzaqgörən və proqnozlaşdırılabilən proqramı var. İnkişafla bağlı, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı proqramımız var. Hesab edirəm, Azərbaycanda yaşayan əcnəbi insanlar təsdiq edə bilərlər ki, ölkəmizdə idarəçilikdə çox müsbət dəyişikliklər var, xüsusilə də bizim maliyyə sistemimizdə. Korporativ menecment baxımından da bizim şirkətlərdə böyük dəyişikliklər var. Biz artıq həmin prosesin yekun mərhələsindəyik və məqsədimiz də tam şəkildə beynəlxalq standartlara uyğun olmalıdır. Bizim ölkəmizin iqtisadiyyatı sabitdir. Xarici borcumuz ümumi daxili məhsulla müqayisədə təqribən 10 faizə bərabərdir. Bizim valyuta ehtiyatlarımız da ümumi daxili məhsuldan 10 dəfə artıqdır və biz xarici borcumuzu bir həftə içərisində bağlaya bilərik.

Ticarət dövriyyəmiz böyük profisitlə həyata keçirilir. Bu son altı ay ərzində ixrac-idxalla müqayisədə bizim profisitimiz 10 milyard dollara bərabər idi. Siyasi vəziyyət sabitdir. Azərbaycan özünü neft-qaz sahəsində etibarlı tərəfdaş kimi sübut edib və bu gün coğrafi yerləşməni, artıq çox müasir nəqliyyat infrastrukturunu nəzərə alaraq əlaqələndirmə məsələlərində fəal çalışır. Beləliklə, şirkətlər üçün bizim ümumi mesajlarımız budur. Hesab edirəm ki, bu, Azərbaycana gəlmək istəyən şirkətlər üçün yaxşı bir mesajdır.

Prioritet sahələrə gəldikdə, əlbəttə ki, birnömrəli məsələ azad olunmuş ərazilərin yenidən qurulmasıdır. Azad olunmuş ərazilərdə bu gün çoxsaylı beynəlxalq şirkətlər kontraktor kimi fəaliyyət göstərirlər.

Bizim fəal çalışdığımız digər bir mühüm sahə rəqəmsallaşmadır. Həmin sektora böyük həcmdə maliyyə vəsaiti ayrılıb. Böyük potensialımız var. Mən bilirəm ki, bəzi Amerika şirkətləri artıq bərpaolunan enerji sahəsinə maraq göstərirlər. Biz bu sahədə çox böyük potensiala malikik. Bakını yaxşı tanıyan insanlar bilirlər ki, Bakı çox küləkli şəhərdir və əlbəttə, bəzən külək güclü olanda bu, problem yaradır. Ancaq eyni zamanda biz görürük ki, külək Xəzər dənizində də böyük gəlir gətirəcək. Artıq Beynəlxalq Maliyyə Korporasiyası hesablama aparıb. Hesablamaya görə, təkcə Xəzər dənizində 157 qiqavat həcmində potensial var. Yeni bərpaolunan enerji sahəsində şirkətlər artıq fəaliyyət göstərir. Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında saziş imzalandı və Avropa İttifaqının prezidenti də orada iştirak edirdi. Həmin layihəyə əsasən, biz Azərbaycandan Avropaya Qara dənizin dibi ilə "yaşıl enerji" xətti inşa edəcəyik. Artıq ilkin hesablama aparılıb və texniki-iqtisadi əsaslandırmanın yəqin ki, sentyabr-oktyabr aylarında təqdim olunacağını gözləyirik. Layihə üzrə Rəhbər Komitənin ilk iclası fevralda Bakıda keçirilib.

Bu ilin sonunadək 240 meqavat gücündə birinci günəş enerjisi stansiyası istifadəyə veriləcəkdir, lakin bu, yalnız birincidir. Biz 10 qiqavat səviyyəsində memorandumlar və sazişlər imzalamışıq. Beləliklə, texniki-iqtisadi əsaslandırmaya başlanılıb. Həmin memorandumların yarısı belə həyata keçirilsə, bu, bizim üçün kifayət edəcək ki, Avropada geniş coğrafiyaya elektrik enerjisini ixrac edə bilək. Bu, bizə elektrik enerjisi istehsal etmək üçün təbii qaza da qənaət etməyə imkan verəcək və biz həmin həcmləri beynəlxalq bazara çıxaracağıq. Yəni bu, hər kəs üçün uduşlu bir vəziyyətdir.

Mən Amerika şirkətlərini kənd təsərrüfatı sahəsində də görmək istərdim. Biz, əlbəttə ki, kənd təsərrüfatı sahəsində, suvarmada Amerika şirkətlərinin aparıcı avadanlıqlarından istifadə edirik. Ancaq mən investor görmək istəyirəm, çünki Azərbaycanın kənd təsərrüfatı sahəsinin, xüsusilə azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialı olduqca böyükdür. Burada çox məhsuldar torpaqlar var və bizim su resurslarımızın 25 faizi məhz Qarabağdan qaynaqlanır. Təsəvvür edirsiniz, biz 30 il bundan məhrum edilmişdik. Ermənilər platinaları və dambaları bağlayırdılar və bizim 100 minlərlə hektar torpağımız sudan məhrum edilirdi. Biz məcbur idik ki, artezian quyuları qazaq. Bu gün isə artıq həmin su nəinki Qarabağın həyat mənbəyidir, həmin su ehtiyatlarını Azərbaycanın mərkəzi rayonlarına da gətirəcəyik. Belə bir boru kəməri inşa ediləcəkdir.

*Ardı 5-ci səh.*

# Şuşada I Qlobal Media Forumu

## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi

*Əvvəli 4-cü səh.*



Kənd təsərrüfatına nəqliyyat sahəsini də əlavə etmək istərdim. Təbii ki, nəqliyyat sektoru beynəlmiləl sektordur, yəni, bir ölkə nəqliyyat qovşağı ola bilməz. Yəni qovşaq olmaq üçün qonşularla işləmək lazımdır. Bu sahədə bizim qonşularla böyük beynəlxalq əməkdaşlığımız var və nəqliyyat infrastrukturunun genişləndirilməsi üçün böyük potensial mövcuddur.

**Moderator:** Zati-aliləri, növbəti sual, "Əl-Cəzirə" televiziyasından Muhammed Əl Kadi.

**Muhammed Əl Kadi:** Çox sağ olun, hörmətli Prezident. Bu gözəl Şuşa şəhərində, Azərbaycanın mədəniyyət paytaxtında qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm. Sual ərəb dilində olacaq, qoy bilinsin ki, həqiqətən də bu forumda ərəblər də var. Çünki ərəblər həmçinin Qarabağda olan müharibəni böyük maraqla izləyirdilər və görürdük ki, Siz onlarla muzeylərə, mərkəzlərə, məscidlərə dəyən zərərlərdən danışırdınız. Həmçinin tarixi yerlərdən, abidələrdən və minlərlə əlyazmaları, kitabları tələf etdiklərindən danışırdınız. Sizin fikrinizcə, ermənilər Azərbaycanın mədəni irsinə qarşı planlaşdırılmış bu dağıntıları nəyə görə etdilər?

Digər sualımız, Qarabağın yenidən qurulması nə vaxt bitəcək və nə qədər çəkəcək? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. "Böyük qayıdış" proqramı qəbul edilib. Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq. Yəni bu, ancaq başlanğıcdır. Mərhələlərə bölünən bu proqramın icrasının da nə qədər çəkəcəyini demək çətindir. Çünki birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində.

Ancaq bu proses tədricən gedir. İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcmini daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq.

Mən Laçın şəhərinin timsalında deyə bilərəm ki, bu şəhər cəmi səkkiz ay ərzində tamamilə yenidən quruldu və orada 700-dən çox ailə üçün bu gün şərait var. Həm fərdi evlər, həm çoxmənzilli evlər. Sentyabrın 15-dək məktəb də hazır olacaq, uşaq bağçası da hazır olacaq, xəstəxana da hazır olacaq və digər sosial obyektlər də inşa edilir.

Ona görə növbəti beş il ərzində əminəm ki, azad edilmiş bütün şəhərlərdə artıq insanlar yaşayacaqlar. Amma şəhərlərin inkişaf planı, əlbəttə ki, daha genişmiqyaslıdır. Çünki məsələn, əgər Ağdam şəhərini götürsək, işğaldan əvvəlki dövrdə bu şəhərdə təqribən 40, bəlkə də 50 min insan yaşayırdı. Bizim baş planımıza görə Ağdam şəhərində 100 minə yaxın insan yaşayacaq. Təbii ki, bütün bunlar mərhələli yollarla ediləcək. Çünki vəsait o zaman xərclənməlidir ki, artıq insanlar oraya getməyə hazır olsunlar.

O ki qaldı birinci sualınıza, mən öz şərhlərimdə qeyd etdim ki, bu günə qədər də başa düşə bilmirəm bu qəddarlığın, bu nifrətin mənbəyi haradan qaynaqlanır? Çünki ermənilər Azərbaycan ərazisində uzun müddətdir ki, yaşayırlar. Onların kütləvi surətdə Qarabağa köçü XIX əsrin birinci yarısında başlamışdır. 1805-ci ildə Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığı, ondan sonra imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə isə Azərbaycanın digər xanlıqları Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Görkəmli dövlət xadimlərinin yazıları, məktubları, açıqlamaları - bütün bunlar tarixən təsdiqlənir. Yəni onlar bu torpaqlara - Qarabağ torpağına qonaq kimi gəlmişdilər, o cümlədən Şuşaya. Onlar iddia edirdilər ki, Şuşa erməni şəhəridir. Birincisi, Şuşa şəhərinin tarixi o qədər də uzaq illərə getmir. 1752-ci ildə Pənahəli xan Şuşada şəhər salmışdır və keçən il Azərbaycanda "Şuşa İli" elan olunmuşdur. Çünki biz Şuşanın 270 illiyini qeyd edirdik. Yaradılandan işğala qədər Şuşada yaşayanların mütləq əksəriyyəti azərbaycanlılar olub.

Əgər Şuşa erməni şəhəri idisə, nə üçün belə acınacaqlı vəziyyətdə idi? Nə üçün Şuşanın 17 bulağı da işğal dövründə ermənilər tərəfindən qurudulmuşdur? Mən Şuşaya 2021-ci il noyabrın 14-də gələndə xüsusilə maraqlandım. Çünki Şuşa 17 məscid, 17 bulaq şəhəri idi. Əgər bu, sizin şəhəriniz idisə, nə üçün siz bulaqları qurutdunuz? Nə üçün siz Şuşada bir daşı daş üstə qoymadınız? Şuşada işğal dövründə tikilən təzə iki və ya üç villa var, onlar da Laçın-Xankəndi yolunun üstündə. Onların da biri Qarabağda, Xankəndidə yerləşən xunta başçısınındır. Deyilənə görə, biri xunta başçısı tərəfindən Ermənistan rəhbərlərinin birinə bağışlanıb, digərinin isə sahibi bəlli deyil.

Bundan başqa, Xankəndi xuntası Şuşada bir daşı daş üstə qoymayıb. O ki qaldı digər şəhərlərə, onların Azərbaycana qarşı, xalqımıza qarşı nifrəti normal insan psixikasına sığışmır. Gərək psixoloqlar, psixiatrlar daha çox təhlil aparıb bizə desinlər ki, bu qəddarlığın, barbarlığın səbəbi nədir? Yəni qəbir daşlarını oğurlayıb orada azərbaycanlıların adlarını sildirib öz yaxınları üçün qəbir daşları kimi istifadə edirdilər. Bu, hansı mənəviyyata sığan bir məsələdir? Yaxud azərbaycanlıların qəbirlərini qazıb orada ölülərin kəllələrindən qızıl dişlərini çıxararaq əridib bazarda satmaq hansı mənəviyyata sığır? Mən hələ ekologiyaya vurulmuş ziyanı demirəm - 60 min hektar meşə fondu ermənilər tərəfindən məhv edildi, doğranıldı və sonra parket kimi satıldı.

İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya tərəfindən bizə müraciət olundu ki, onlara vaxt verin torpaqlardan çıxsınlar - Ağdam, Kəlbəcər, Laçın. O biabırçı mənzərəni biz hələ unutmamışıq. Ağacları qırırdılar, evləri yandırırdılar, ağacları yandırırdılar və azərbaycanlıların yaşadıqları evlərdə, harada ki, qanunsuz məskunlaşmışdılar, hətta, necə deyərlər, ən ucuz əşyalarını söküb bellərində aparırdılar bütün dünyanın gözü qarşısında. Yəni buna hansı ad vermək olar? Ona görə biz bu əməllərin sahiblərindən nə gözləyə bilərik? Mənim bütün dediklərim 100 faiz həqiqətdir. Mən heç nəyi zərrə qədər şişirtmirəm. Hələ çox şeyləri demirəm.

Bir səbəb də ola bilər ki, bu bölgəni tamamilə erməniləşdirmək, Azərbaycanın mədəni irsini silmək üçün və öz aləmlərində bu torpaqları gələcəkdə yaşayış üçün yararsız hala salmaq məqsədilə bunları ediblər. Çünki gördüyünüz bu dağıntılar, - ən böyük dağıntılara məruz qalan Füzuli və Ağdam şəhərləridir, orada bir dənə də salamat bina qalmayıb, - müharibə zamanı olan dağıntılar deyil. O dağıntılar Birinci Qarabağ müharibəsindən sonra bu evlərin sökülməsi nəticəsində olan dağıntılardır. Daşları bir-bir söküb aparıb orada-burada satıblar. Yəni buna nə ad vermək olar?

Biz erməni xalqının tarixi mirasına əl dəymirik. Bax, burada, Şuşada erməni kilsəsi var. Hər kəs gedib baxa bilər, orada bir daşa da dəyilməyib, əksinə, ora qorunur. Yəni, bizim münasibətimiz budur və biz onlardan törətdikləri əməllərə görə qisas almaq fikrində deyilik. Mən hələ müharibə vaxtı və müharibədən sonra onu demişdim ki, biz qisası döyüş meydanında almalıyıq və aldıq da, şəhidlərimizin qanını da döyüş meydanında aldıq. Biz heç vaxt dinc əhaliyə qarşı vuruşmamışıq. Amma onlar müharibə zamanı bizim dinc şəhərlərimizi "İskəndər", "Toçka", "Skad" raketləri ilə atəşə tuturdular. Yüzə yaxın günahsız insan, o cümlədən 12 uşaq bu namərd atəş nəticəsində həlak olmuşdur.

Yəni bilirsiniz, bütün bunları deməklə mən yenə də bildirmək istəyirəm ki, bu yaddaş silinmir, silinməyəcək və silinməməlidir. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır. Yenə də deyirəm, qisas almaq üçün yox, unutmamalıdır ki, heç vaxt təkrarlanmasın. Çünki biz bir dəfə səhv buraxmışdıq, qonşulara çox inandıq və sonra onun acısını çəkməli olduq.

Hər halda hər şey göz qabağındadır. Bu toplantılar məhz, o cümlədən ona görə əhəmiyyətlidir ki, burada toplaşan beynəlxalq media nümayəndələri hər şeyi öz gözləri ilə görəcəklər və görürlər, Azərbaycan həqiqətlərini öz ölkələrinə, öz ölkələrinin nümayəndələrinə, ictimaiyyətinə çatdıracaqlar. Biz bunu istəyirik.

İşğal dövründə bura bir növ qadağan edilmiş zona idi. Şuşa şəhərinə hələ bəzi xariciləri buraxırdılar, amma Ağdam, Füzuli bölgələrinə heç kimi buraxmırdılar. Çünki gələn adam hər şeyi görəcəkdi. Amma indi hər şey göz qabağındadır və bu, bir daha göstərir ki, biz hansı tarixi nəticə əldə etmişik. Biz təkcə Ermənistanı məğlub etmədik, biz erməni faşizminin belini qırdıq. Biz erməni xalqını demək olar ki, bu bədəməllərdən xilas etdik. Bəlkə İkinci Qarabağ müharibəsindəki bu acı məğlubiyyət onlara dərs olacaq və onlar oturub fikirləşəcəklər ki, bundan sonra bu bölgədə necə yaşasınlar, öz günahlarını etiraf edəcəklər, öz cinayətlərini etiraf edəcəklər, cinayətkarları məsuliyyətə cəlb edəcəklər. Artıq bu proses başlayıb. Ermənistanda əli Azərbaycan xalqının qanına batmış cəlladlar elə erməni hakimiyyəti tərəfindən cəzalandırılır. Bu, ədalətlidir və bunun davamı olmalıdır. Ancaq o təqdirdə xalqlar arasında real barışıq ola bilər. Sülh müqaviləsi imzalana bilər, ancaq əsas məsələ ondadır ki, ictimai müstəvidə barışığa doğru addımlar atılsın və onlardan birincisi ermənilər tərəfindən öz günahlarının etiraf edilməsidir.

**İqor Korotçenko,** rusiyalı hərbi ekspert: Təşəkkür edirik, cənab Prezident. Siz öz çıxışınızda qeyd etdiniz ki, dünya təlatümlüdür, hər şey çox sürətlə dəyişir və bu fonda Azərbaycan uğura nail olur. O, qaya kimi dayanıb. Bir çox ölkə üçün Azərbaycan bu gün ən müxtəlif problemlərin həllinin örnəyidir. Cənab Prezident, Azərbaycanın gələcəyinin strateji baxışı Sizin əllərinizdədir, Siz Azərbaycanın gələcəyini necə görürsünüz? Sağ olun.

**Prezident İlham Əliyev:** Əvvəlcə bizim gördüyümüz işlərə və ölkənin özünü hansı mövqedə nümayiş etdirməsinə verdiyiniz qiymətə görə sağ olun. Prinsip etibarilə strateji inkişaf istiqamətləri bir çox illər bundan əvvəl müəyyən edilmişdir. Yeganə məqam odur ki, həyat öz dəyişikliklərini əlavə edir və dəyişən reallıqları planlarımıza inteqrasiya etməli oluruq. Amma deməzdim ki, bu, təməl xarakter daşıyır. İşğal altındakı ərazilərin azad olunmasından sonra əlbəttə ki, sosial-iqtisadi məsələlər ön planda dayanır. Çünki Azərbaycanda siyasi proseslər düzgün istiqamətdə gedir. Cəmiyyətdə gələcəyimizin əsas məsələləri üzrə konsensus var, həmrəylik var - istər siyasi, istər iqtisadi inkişaf olsun, yaxud da ki, sosial siyasətlə bağlı məsələlər olsun. Odur ki, hazırda Azərbaycan xalqının rifahının yüksəldilməsi əsas məsələdir. Bundan əvvəl də bu, əsas prioritetlərdən biri idi. Lakin başlıca prioritet, əlbəttə ki, ərazilərin işğaldan azad edilməsi və müvafiq olaraq Silahlı Qüvvələrin potensialının artırılması məsələsi idi. O ki qaldı indi Azərbaycanın müdafiə qabiliyyətinə, bu məsələ yenə də diqqət mərkəzində qalmaqdadır, İkinci Qarabağ müharibəsinin təcrübəsini, bizə daha çox lazım olanları, daha az lazım olanları, daha çox nəyin istifadə olunduğu, daha az nəyin istifadə edildiyini nəzərə almaqla. Siz hərbi quruculuq məsələlərinə yaxşı bələd olan bir insan kimi məni yaxşı başa düşürsünüz. Bununla belə, birinci planda, əlbəttə ki, dayanıqlı inkişaf məsələləri durur, neft və qaz sektorundan asılılığın azaldılması dayanır. Düşünürəm ki, bu hədəf, bu məqsəd neft hasil edən bütün ölkələrin qarşısında dayanır. Neft sənayesinin iqtisadiyyatda önəmli yer tutan ölkələrdə bunu etmək o qədər də asan deyil. Amma bunsuz dayanıqlı inkişaf mümkün olmayacaq. Çünki təbii resurslar bitən resurslardır, biz iqtisadiyyatın istənilən şəraitdə və vəziyyətdə dayanıqlı olmasını təmin etməliyik. Təbii ki, biz ehtiyat yaradırıq, valyuta ehtiyatlarımızı artırırıq, idarəetmə sistemini təkmilləşdiririk. Bütün bunlar bizə əlavə imkanlar qazandırır.

Statistik olaraq vergi və gömrük orqanlarının proqnozları həyata keçirmə qabiliyyətinə baxsanız, mənzərə kifayət qədər təsiredicidir. Artıq ilk il deyil ki, may və iyun aylarında biz büdcəyə əlavələri artım istiqamətində qəbul edirik və bunun əsası odur ki, vergi və gömrük orqanları planlaşdırılandan daha çox gəlir əldə etmişlər. Bu, yalnız və yalnız şəffaflıq və yeni idarəetmə yanaşması sayəsində mümkün olmuşdur. O ki qaldı daha geniş kontekstdə, bilirsinizmi, burada heç də hər şey bizdən asılı deyil. Ermənistanla münasibətlərin tənzimlənməsində də biz sülh müqaviləsinin imzalanmasına nail olsaq, bu, ümumiyyətlə, Cənubi Qafqazda vəziyyəti sağlamlaşdıracaq və Cənubi Qafqazı yüksək risk zonasından çıxarmış olacaq. Çünki yüksək risk zonası təkcə ekspertlərin qiyməti deyil, bu, həmçinin reytinqlərdir, kreditlənmə imkanlarıdır. Bunlar birbaşa olaraq xarici sərmayələrlə bağlı məsələdir, xüsusilə indi. İnvestorlar, ilk növbədə, potensial və mümkün riskləri nəzərə alırlar. Ermənistanla münasibətlərin tənzimlənməsi bu sualı gündəmdən çıxaracaq. Münasibətlərin normallaşması həm bizim iqtisadiyyat, həm də Ermənistan iqtisadiyyatı üçün və ümumiyyətlə, daha genişmiqyaslı planların gerçəkləşdirilməsinə imkan verəcək. Müdafiə potensialı ilə bağlı bu qədər maliyyələşdirməyə ehtiyac qalmayacaq. Odur ki, müəyyən maliyyə resursları ixtiyarımızda sərbəst olacaqdır.

Qeyri-energetika sahəsində də mən məhz Qarabağı və Şərqi Zəngəzuru görürəm. Çünki təbii və iqlim şəraitinə, turizm potensialına, kənd təsərrüfatı və həmçinin bərpaolunan enerji mənbələri resurslarına, potensialına görə bu regionlar bizim ümumi daxili məhsulda ciddi artım təmin edəcək. Məsələn, qeyd edim, növbəti ilin sonuna qədər 200 meqavat gücündə olan 30 hidroelektrik stansiyanın tikintisini başa çatdıracağıq. Artıq 50 meqavatdan çox istismara verilib. Müqayisə üçün, mən ola bilsin ki, bir az təfərrüata varıram, amma ola bilsin sizin üçün maraqlı ola bilər. Qarabağda su-elektrik stansiyalarının istifadə səmərəliliyi Azərbaycanın hər hansı digər bölgəsi ilə müqayisədə dəfələrlə yüksəkdir. Yəni o dərəcədə güclü axın var çatlar o dərəcədə suludur. Hər bir elektrik stansiyası öz səmərəlilik əmsalına malikdir, buxar, qaz, istərsə də su-elektrik stansiyası olsun. Yəni burada son dərəcə səmərəlilik mövcuddur. Yəni Kəlbəcər-Laçın zonasında külək enerjisinin nəhəng potensialı mövcuddur. Cəbrayıl rayonunda isə demək olar ki, bir neçə aydan sonra 240 meqavat gücə malik günəş stansiyasının tikintisinə başlanacaq. Yəni bu, olduqca böyük enerji potensialıdır. Üstəgəl, logistik mərkəz. Çünki Zəngəzur dəhlizini heç kim ləğv etməyib, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq. Bu isə olduqca böyük potensial açır. İndi belə bir müasir kəlmə var "bağlantı", yəni, ingilis dilində "konnektiviti". Amma tam mənada suala cavab vermək üçün ayrıca bir müsahibəyə ehtiyac var. İnşallah, bunu da edərik. Təşəkkür edirəm.

**Moderator:** Növbəti sual, Xəlil Muhamməd İbrahim (Çad).

**Xəlil Muhamməd İbrahim:** Hörmətli Prezident, torpaqlarınızı azad etdikdən sonra bir çox ölkələr Sizə mənəvi, logistik və diplomatik dəstək verdilər. Bir çox ölkələrin mövqeləri aydın deyildi. Sizin diplomatik əlaqələriniz gələcək Azərbaycan üçün necə olacaqdır? İkinci sual, bu kontekstdə Azərbaycanın Afrika dövlətləri ilə əlaqələri necə olacaq. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Afrika ölkələri ilə bizim əlaqələrimiz sürətlə inkişaf edir. Bir müddət bundan əvvəl Afrika İttifaqında səfirliyimiz də açılmışdır. Bununla bərabər, biz Qoşulmama Hərəkatı çərçivəsində Afrika ölkələri ilə sıx əlaqədəyik. Mən artıq bunu qeyd etmişəm, COVID dövründə bizim göstərdiyimiz humanitar yardımın bir hissəsi Afrika qitəsinə də istiqamətləndirilmişdir. Onu da bildirməliyəm ki, bu günə qədər iqtisadi-ticari sahədə əlaqələr o qədər də yüksək səviyyədə deyil, necə ki, siyasi müstəvidə. Bunun yəqin ki, təbii səbəbləri var. Hesab edirəm ki, təmaslar daha sıx olduqca bu istiqamətdə də imkanlar dəyərləndiriləcək. Hər halda biz bunda maraqlıyıq.

O ki qaldı İkinci Qarabağ savaşı dönəmində ölkələrin mövqeyinə, artıq bu, tarixdə qalıb. Biz bilirik bizim yanımızda kim olub, biz bilirik Ermənistanın yanında kim olub, neytral mövqedə kim olub. İndi bu məsələnin yenidən gündəmə gətirilməsi hesab edirəm ki, düzgün olmaz. Bizim əsas vəzifəmiz torpaqlarımızı azad etmək idi, buna da nail olduq. Hər bir ölkənin öz gündəliyi var, öz xarici siyasəti var, necə deyərlər, öz daxili səbəbləri var. Biz bunu da başa düşürük. Bəzi ölkələrdən bəlkə daha çox dəstək gözləyirdik, bəzi ölkələrdən, ümumiyyətlə, heç nə gözləmirdik. Yəni, bu, beynəlxalq münasibətlərin qanunlarıdır. Deyə bilərəm ki, bizim təcrübəmizdə belə məsələlər ikitərəfli münasibətlərə o qədər də böyük təsir göstərmir. Deyə bilərəm ki, heç işğal dövründə də bir çox ölkələr tərəfindən neytral mövqe görmüşdük, halbuki, bununla razı deyildik, çünki biz haqlı olaraq tələb edirdik ki, haqq-ədalət mövqeyi üstünlük təşkil etsin. Eyni zamanda, işğal dövründə Ermənistanla həmrəy olan ölkələrin mövqeyini görmüşdük. Ancaq yenə də deyirəm, bu, bizim o ölkələrlə münasibətlərimizin dondurulmasına gətirib çıxarmamışdır, bu birincisi. İkincisi, mən hesab edirəm ki, biz buna müəyyən dərəcədə nail olduq, biz qarşı tərəfin meydanında da oynamağa cəhd etməli idik və bunu da etdik. Ermənistanın yaxın müttəfiqləri sayılan ölkələrlə də, - işğal dövründə, mən o dövrü nəzərdə tuturam, - bizim əlaqələrimiz uğurla inkişaf etdi. Biz o ölkələrə göstərməyi bacardıq ki, onların real olaraq həm siyasi, həm iqtisadi və digər maraqları məhz Azərbaycandadır, Ermənistanda yox. Bu amil də imkan verdi ki, həmin ölkələrin ermənipərəst mövqeyinə müəyyən dərəcədə düzəlişlər edilsin. Düzdür, İkinci Qarabağ müharibəsi dövründə və müharibədən sonra Ermənistana yaxınlığı ilə seçilən ölkələr artıq öz ermənipərəst mövqeyini gizlədə bilməmişdilər, yaxud da bunu istəməmişdilər. Bu, bizim o ölkələrlə münasibətlərin müəyyən dərəcədə gərginləşməsinə gətirib çıxarmışdır. Ancaq bu, o demək deyil ki, bu, əbədi belə olacaq. Bu mərhələ də başa çatacaq, yeni mərhələ açılacaq və əsas odur ki, sənin gündəliyin olsun.

Biz postmüharibə dövründə hər şeyi ardıcıllıqla etmişdik, bir addım əvvəlki addımın məntiqi davamı idi . Biz hədəfə doğru gedirdik və gedirik, bir çox hədəflərə çatmışıq. Bəzi hədəflər var ki, biz hələ onlara çatmamışıq, amma onlara da çatacağıq. O hədəflərə çatmaq üçün əlbəttə ki, siyasi səriştə də az önəmli deyil. Ona görə bütün ölkələrlə bizim əlaqə kanallarımız açıqdır. Bununla paralel olaraq, biz yeri gələndə öz narazılığımızı da, etirazımızı da, cavab addımlarımızı da lazımi səviyyədə ifadə edirik və atırıq.

Qırğızıstandan **Nurcan Qasımalıyeva:** İkinci Qarabağ müharibəsindən sonra bir sıra Mərkəzi Asiya ölkələri öz marağını ifadə etmişdir ki, Azərbaycana işğaldan azad olunmuş ərazilərin bərpasında dəstək göstərsinlər. Azərbaycan Mərkəzi Asiya ölkələrindən artıq hansı dəstəyi, yaxud da hansı köməyi alıb? Ümumiyyətlə, Siz Mərkəzi Asiya ölkələri ilə münasibətləri necə xarakterizə edərdiniz, xüsusilə Qırğızıstanla?

**Prezident İlham Əliyev:** Biz göstərdikləri dəstəyə görə Mərkəzi Asiyadan olan dostlarımıza və qardaşlarımıza təşəkkürümüzü ifadə etmək istəyirik. Siz Füzuli Hava Limanından gələndə binaların inşası layihəsini gördünüz. Orada həmçinin məktəb var və o, səxavətli şəkildə Özbəkistan tərəfindən inşa edilməkdədir. Həmçinin incəsənət mərkəzi var, Qazaxıstan tərəfindən ianə kimi ayrılıb. Hər ikisi hazırda inşa mərhələsindədir. Məktəb avqustun sonuna qədər hazır olmalıdır, gənclər üçün olan incəsənət mərkəzi isə ilin sonuna qədər. Bu, iki dəstək rəmzidir və müharibədən sonra xaricdən aldığımız dəstək bu qədər olmuşdur. Qeyd etməliyəm ki, bu, çox mühüm bir jest idi və həmrəylik nümunəsi idi. Düşünürəm, aydın məsələdir ki, biz məktəbləri özümüz də inşa edə bilərik və biz bunu edirik. Lakin bu, onların həmrəylik nümayiş etdirmək üçün həqiqi istəyidir və doğrudan da qarşımızda böyük işlər var.

O ki qaldı Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa, bu münasibətlər dinamikdir. Mən keçən il həmçinin bu il Mərkəzi Asiya ölkələrinin bir çoxuna rəsmi səfər etmişəm. Eyni zamanda Mərkəzi Asiya ölkələrinin prezidentləri Azərbaycana rəsmi səfər etmişlər. Həmçinin ilin sonuna qədər dost ölkələrdən əlavə səfərlərin həyata keçirilməsini gözləyirik. Biz ikitərəfli əsaslarda çox fəal işləyirik, xüsusilə sərmayələr və ticarət sahələrində. Biz Özbəkistanla birgə İnvestisiya Fondu yaratmışıq və həmçinin Qırğızıstanla da belə bir təşəbbüs artıq başlayıb. Qeyd etməliyəm ki, aktivlərin həcmi bir o qədər də çox deyil. Lakin bu, layihələrin mövcudluğundan asılı olacaq. Özbəkistanla fond yarım milyard ABŞ dollarına bərabərdir, Qırğızıstanla isə iyirmi beş milyon. Çünki hələ icra üçün layihələr yoxdur. Sözsüz ki, bu fondlar genişləndirilə bilər və düşünürəm ki, genişləndiriləcək.

Eyni zamanda sualınızda Qırğızıstanla münasibətlərə toxundunuz. Bu münasibətlər çox yaxşıdır, dost münasibətləridir. Mən sizin ölkənizə rəsmi səfər etmişəm və ölkənizin Prezidenti Azərbaycana səfər etmişdir. Bizim, həmçinin Türkdilli Dövlətlər Təşkilatının Sammitində, eyni zamanda, MDB ölkələrinin sammitlərində vaxtaşırı görüşlərimiz olur. Biz həmçinin Mərkəzi Asiya ölkələri ilə rabitə və nəqliyyat əlaqələrinin qurulması üzərində işləyirik. Bir həftə əvvəl Özbəkistanın Baş naziri, ondan əvvəl isə Qazaxıstanın Baş naziri Azərbaycanda səfərdə olmuşlar. Görüşlərdə müzakirələrin əsas mövzusu nəqliyyat, Xəzər dənizindən keçməklə nəqliyyat yollarının Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropaya çıxmasıdır. Bu yol Mərkəzi Asiya ölkələri üçün ən mühüm nəqliyyat marşrutlarından biri olacaq. Çünki Azərbaycanın nəqliyyat infrastrukturu müasirdir və eyni zamanda, hazırda yükdaşıma potensialı çox yüksəkdir. Düşünürəm ki, münasibətlərimizin çox gözəl gələcəyi var.

**Moderator:** Növbəti sual İranın İRNA Xəbər Agentliyindən Muhammed Rizapurdandır.

*Ardı 6-cı səh.*

# Şuşada I Qlobal Media Forumu

## Prezident İlham Əliyev bütün hədəflərə çatacağımızı dünyaya bir daha bəyan etdi

*Əvvəli 5-ci səh.*



**Muhammed Rizapur:** Cənab Prezident, dəvətə görə Sizə təşəkkür edirəm. Sizi İRNA Xəbər Agentliyi adından, İran adından salamlayıram. Cənab Prezident, İran və Azərbaycan hökumətləri tərəfindən böyük səylər göstərilir ki, iki ölkə arasında münasibətlər inkişaf etsin, güclənsin. Yaxın günlərdə icra olunacaq layihənin başlanması münasibətlərin güclənməsinə necə təsir edir?

**Prezident İlham Əliyev:** Üzr istəyirəm, sualınız aydın olmadı. Xahiş edirəm, sualınızı təkrar verin.

**Muhammed Rizapur:** "İRNA Azəri"nin fəaliyyətə başlaması münasibətlərin güclənməsinə necə təsir göstərəcək?

**Prezident İlham Əliyev:** Bəlkə bizdən bir az uzaqsınız, odur ki, sualınızı tam eşidə bilmirik. Xahiş edirəm, sualınızı moderatora söyləyin, o da bizə çatdırsın.

**Moderator:** İRNA-nın Azərbaycandakı bürosunun açılışı? Yaxın günlərdə İRNA Agentliyi Azərbaycanda öz bürosunu açacaq və "İRNA Azəri" iki ölkə arasında nə kimi rol oynaya bilər?

**Prezident İlham Əliyev:** Mən ümid edirəm ki, "İRNA Azərbaycan" doğrudan da iki ölkə arasında münasibətin güclənməsinə müsbət təsir göstərəcək. Çünki məsuliyyətli KİV kimi sözsüz ki, qonşu ölkələr arasında münasibətlərin güclənməsinə müsbət təsir göstərə bilər. Düşünürəm ki, ən yaxşı üsul İrandakı auditoriyanızı Azərbaycandakı reallıqlar, Qarabağın və Şərqi Zəngəzurun bərpa prosesi haqqında məlumatlandırmaqdır. Əlbəttə, yaxşı olardı ki, İranda daha çox insan İkinci Qarabağ müharibəsi və postmüharibə vəziyyəti, ələlxüsus, Azərbaycanın daha geniş regional əməkdaşlıq gündəliyi haqqında məlumatlı olsun. Sizə fəaliyyətinizdə uğurlar diləyirəm. Əminəm ki, siz münasibətlərin güclənməsində müsbət rol oynayacaqsınız.

**Moderator:** Növbəti sual, TRT World Araşdırmalar Mərkəzinin rəhbəri Tarek Çerkauididəndir.

**Tarek Çerkauidi:** Zati-aliləri, Siz döyüş meydanında Qələbədən sonra indi bərpa və yenidənqurma işlərində də qələbə çalırsınız. Mənim sualım Şuşa ilə bağlıdır. Növbəti 10 ildə Şuşanı necə görmək istəyirsiniz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Əlbəttə, Şuşanın bərpası başlanılıbdır, bir müddət öncə Baş plan təsdiq edilibdir və indi artıq ilk yaşayış layihəsi icra olunur. Siz onları şəhərin bir neçə yerində görə bilərsiniz. Həmin layihələr çərçivəsində Şuşa sakinləri yenidən evlərinə qayıdacaqlar. Bununla yanaşı, artıq qeyd etdiyim kimi, Şuşa Prezident Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilibdir və bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız olacaqdır, insan axını olacaqdır. Çünki bu, nadir, misilsiz bir məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir. Əlbəttə ki, bu şəhər qaya üzərində qurulubdur, qədim şəhərdir və bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır. Biz hazırda fəal sürətdə tarixi memarlıq abidələrini bərpa edirik. Üç məscidimiz yenidən qurulubdur. Biri bərpa olunub, digərləri yenidən inşa edilib, çünki onlar dağıdılmışdı. Bizim bərpa etdiyimiz ilk tarix-memarlıq abidəsi dahi şairimiz və Qarabağ xanlığının vəziri Vaqifin məqbərəsi idi. O da işğal dövründə ermənilər tərəfindən dağıdılmışdı. Biz onu yenidən qurduq, bərpa etdik. Biz bulaqları bərpa etdik. Artıq beş bulaq su ilə doludur.

Şuşanın infrastrukturu da inkişaf etdirilir. Çünki ermənilər qaçarkən burada supaylayıcı şəbəkəni dağıtmışdılar. Ona görə də biz şəhərdə sıfırdan yeni supaylayıcı sistem qurmuşuq. Ümumiyyətlə, baş plan çərçivəsində Şuşa şəhərinin bütün infrastrukturu yenidən qurulub, yeni yollar yaradılıbdır. Bu ilin sentyabr ayında biz min şagird yerlik məktəbin açılışını edəcəyik və 90 çarpayılıq xəstəxana da ilin sonuna qədər hazır olacaqdır. Şuşada hər şey baş plan əsasında edilir. Bu isə imkan verəcəkdir ki, şəhər daha gözəl olsun. Yəni, heç vaxt olmadığı qədər gözəl olacaqdır. Çox rahat, müasir şəhər olacaqdır. Eyni zamanda təbii ki, onun orijinallığı qorunacaqdır, çünki bütün tarixi-memarlıq abidələri hazırda bərpa edilir. Şuşaya səyahət edən insanlar burada tez-tez dəyişikliklərin şahidi olurlar. Çünki bu şəhər gündən-günə gözəlləşir. Bəzi söküntü işləri hələ də qarşıdadır, çünki sovet dövründə tikilmiş binalar var və onların dözümlülüyü bizə imkan vermir ki, onları yenidən istismara verək. Ancaq Şuşanın Baş planı möhtəşəmdir, hesab edirəm ki, 3-4 il ərzində bu şəhər təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhəri olacaqdır.

Yeri gəlmişkən, bu mehmanxana da yenidir, tamamilə yenidir və o da bizim işlərimizin gözəl təzahürüdür. İki mehmanxana - "Qarabağ" və "Xarıbülbül" bərpa edilib, bu isə sıfırdan inşa edilmiş ən yeni mehmanxanadır. Bu mehmanxana ilə bağlı maraqlı bir fakt ondan ibarətdir ki, burada separatçılar özlərinə qondarma parlamentin binasını inşa edirdilər. Mən Şuşa azad olandan sonra buraya ilk dəfə gələndə gördüm ki, bina tam yekunlaşmamışdı. Onlar öz qondarma "parlament"ini buraya köçürmək istəyirdilər və bu şəhəri - Şuşanı erməniləşdirməyə davam etməyə çalışırdılar. O binanın qarşısında dayanarkən onu şeytan yuvası adlandırdım. Şeytan yuvası söküldü və biz bu 5 ulduzlu gözəl hoteli inşa etdik. Ümid edirəm ki, qonaqlarımız burada özlərini rahat hiss edirlər. Bu, Şuşanın necə sürətlə inkişaf etdiyini göstərir.

**Moderator:** Cənab Prezident, iki saatdan artıqdır ki, biz Sizinlə birlikdəyik. Aydındır ki, hamı bu prosesin bir hissəsi olmaq istəyir. Lakin biz Sizin qonaqpərvərliyinizdən həddən artıq istifadə etmək istəmirik. Ola bilərmi cənab Markova da imkan verək. Çünki əvvəldən sual verməyə çalışır, buna müvəffəq olmayıb.

Rusiyalı politoloq **Sergey Markov:** Təşəkkür edirəm, cənab Prezident. İcazənizlə, sualımı ingiliscə verim. Yadımızdadır, bizim ilk kiçik beynəlxalq konfransımız burada keçirildi. Buraya səfərə gələndə də yolboyu partlayış oldu. Ümid edirəm ki, bundan sonra heç bir partlayış olmayacaq və artıq ermənilər də bu reallıqlarla barışacaqdır. Mən təkcə siyasi xadimə deyil, həm də qalib gələn bir şəxsə sual verirəm: Siz çox təcrübəli şəxssiniz. Siz bu gün üç vasitəçini qeyd etdiniz və onlar arasında da müəyyən rəqabət var. Hər bir vasitəçi uğurlu olmağa çalışır. Eyni zamanda, onlar Minsk qrupu çərçivəsində bir yerdə işlədilər, amma bu, heç bir nəticə vermədi. Onlar uğursuzluğa düçar oldular. Çünki onların fəaliyyətsizliyi nəticəsində İkinci Qarabağ müharibəsi baş verdi. Yəni 28 il ərzində onlar mənasız danışıqlar apardılar və bu da İkinci Qarabağ müharibəsi ilə nəticələndi. Yəni, bu gün biz onun şahidi oluruq ki, vasitəçilərin sayı artır. Ancaq mənə elə gəlir ki, burada mənа bir balaca itir. Yəni Sizcə, vasitəçilərin hansı daha uğurlu olacaqdır? Yəni vasitəçilər uğurlu olmaq üçün nə etməlidirlər və daha geniş mənada necə hesab edirsiniz, hansı beynəlxalq təşkilatlar böhranla üz-üzə qalmamaq üçün necə inkişaf etməlidirlər? Yəni BMT bu gün böhrandadır, ATƏT-in Minsk qrupu da ATƏT-in fəaliyyətsizliyini göstərdi. Yəni, Siz beynəlxalq münasibətlər sahəsində böyük təcrübənizə əsaslanaraq, bu beynəlxalq təşkilatların necə daha uğurlu və səmərəli ola biləcəyi barədə nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** Sualınıza görə çox sağ olun. Mən bir balaca aydınlıq gətirmək istəyirəm. Burada vasitəçilərlə bağlı iki prosesimiz var. Biri Azərbaycan və Ermənistanladır, birbaşa orada vasitəçi olaraq Rusiya və ABŞ var. Eyni zamanda da Brüssel formatımız var. Bu, rəsmi danışıqlar formatı deyil, çünki danışıqlar xarici işlər nazirləri, onların heyətləri və ekspertlər səviyyəsində aparılır. Brüssel formatı isə bir balaca əlavə dəstəkverici mexanizmdir ki, Ermənistan və Azərbaycan liderləri təmas qursunlar. Hesab edirəm ki, o, bu günə qədər müəyyən dərəcədə uğurlu olubdur. Bu formatlar arasında müəyyən fərq var. Minsk qrupu ilə bu formatın fərqi ondan ibarətdir ki, Minsk qrupunda üzvün biri Fransa idi, bu gün Fransa artıq prosesdə yoxdur. Ancaq Avropa İttifaqı rəsmi vasitəçi olmasa da, mən onu müəyyən təzyiqləri azaldan, iki liderin bir-biri ilə danışıqlar aparmasına və mövqelərini daha yaxşı başa düşmələrinə imkan verən amil adlandırardım. Minsk qrupuna gəldikdə, demək istəyirəm ki, onun fəaliyyətsizliyini mən yox, onlar özləri etdilər. Yəni, İkinci Qarabağ müharibəsindən sonra onlar da özlərinə sual verməyə başladılar ki, növbəti hansı addımlar atmalıdırlar. Bizimlə təmas quranda mən qeyd etdim ki, münaqişə artıq bitib. "Madrid prinsipləri" adlandırılan sənədin bir çox müddəaları artıq həll edilibdir. Ona görə də mən hesab etdim ki, onlar fəaliyyətini davam etdirəcəksə, etimad, quruculuq tədbirləri həyata keçirə bilərlər və 10 noyabr 2020-ci il Bəyannaməsinin müddəalarının tam həyata keçirilməsinə nail olsunlar. Bildiyiniz kimi, iki müddəa hələ də həllini tapmayıb. Bunun birincisi, erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması, ikincisi isə Naxçıvana çıxışın təmin edilməməsidir. Ermənistan hələ də bu iki müddəanı təmin etməyib. Bu, bir növ geosiyasi toqquşma nəticəsində Minsk qrupu artıq fəaliyyətinə son qoydu. Bu gün Minsk qrupunun yenidən canlandırılması qəbuledilməzdir və biz bunu qəbul etməyəcəyik. Bu qırılmış vazanı yenidən bir yerə gətirmək üçün bu gün müəyyən fikirlər, danışıqlar var. Amma bu, praktiki cəhətdən də mümkün deyil. Eyni zamanda Azərbaycan buna razı olmayacaqdır. Çünki bizim onların fəaliyyəti ilə bağlı o qədər də xoş xatirələrimiz yoxdur. Rəqabətə gəldikdə, bəli, biz vasitəçilər arasında bu rəqabəti görürük. Bu isə qlobal rəqabətin bir parçasıdır, hətta o rəqabətin harada olmadığını tapmaq çətin olardı, yəni, Cənubi Qafqaz və Azərbaycan istisna deyil.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təbii ki, təşəbbüsü Rusiya öz üzərinə götürdü. Çünki artıq qeyd etdiyim kimi, Rusiya 10 noyabr Bəyannaməsinin hazırlanmasında vasitəçilik edirdi. Rusiya sülhməramlıları hazırda regionda müvəqqəti yerləşdirilib. Rusiya Azərbaycanın qonşusudur, ancaq Ermənistanla qonşu olmasa da, onunla olduqca yaxın ölkədir. Ona görə bu, təbii idi. Daha sonra biz, əlbəttə, gördük ki, Rusiyanın digər məsələlərə bir balaca başı qarışdı və rəqiblər belə demək olarsa, fürsətdən istifadə etdilər. Bu rəqabətin Cənubi Qafqaza hansı təsiri olacağını demək çətindir. Mənim üçün Prezident olaraq hər zaman vacib olub, hətta işğal dövründə də vacib olub ki, Azərbaycan rəqabət meydanına çevrilməməlidir. Bu, bizim üçün və istənilən ölkə üçün ən pis ssenaridir. Biz bu gün görürük ki, məhz bu, Ermənistanda baş verir. Ermənistan elə bir ölkəyə çevrilir ki, orada ciddi rəqabət gedir və bu, ciddi problemlər yarada bilər. Təkcə Rusiya və Amerika deyil, digər ölkələr də bu prosesə fəal surətdə qoşulurlar. Hesab edirəm ki, Ermənistan hökumətinin hazırda aydın xarici siyasət strategiyası yoxdur. İkinci Qarabağ müharibəsinə qədər müəyyən strategiyaları var idi. Bu gün isə bu, yoxdur və bu da onlar üçün ciddi nəticələr yaradacaq.

Azərbaycana gəldikdə isə bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Bildiyiniz kimi, Rusiya və Amerika silahlı qüvvələrinin yüksək səviyyəli nümayəndələri, çox yüksək, yəni ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bu isə bizə olan etimadın, etibarın göstəricisidir. Belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir, hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir. Yəni, bu, o vaxt idi ki, bu rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə belə təmaslar potensial olaraq Azərbaycanda yenə də bərpa edilə bilər.

Yekun nəticənin nədən ibarət olacağını demək çətindir. Əsas məsələ odur ki, istər Moskva, istərsə də Vaşinqton olsun, hər iki vasitəçi danışıqlar üçün şərait yaradır. Bu, üçtərəfli danışıqlar deyil, bu, ikitərəfli danışıqlardır. Bu yaxınlarda Vaşinqtonda olub, bir neçə gündən sonra Moskvada olacaq. Yəni bu, kimin dəvət etməsindən asılıdır. Bir neçə gün əvvəl Rusiya xarici işlər naziri belə bir dəvət edəndə mən tapşırdım ki, buna razılıq verilsin və tarix müəyyən edilmişdi. Sonra ermənilər tarixin dəyişilməsini xahiş etdilər. Biz də buna razılıq verdik. Amerikalılar nazirləri daha tez-tez dəvət edirlər, ancaq bunu aydın bilmək lazımdır ki, bu, ikitərəfli danışıq formatıdır. Ermənistan ilə Azərbaycan arasında aparılan danışıqlara dair yanaşma odur ki, bu, ikitərəfli olmalıdır. Bu, bizim yanaşmamızdır. Bu görüşlərin harada keçirilməsi, əlbəttə ki, vacibdir. Bunun öz rolu var və biz hər cür vasitəçilik səylərinə açığıq ki, mövqelərimizi yaxınlaşdıraq.

Hazırda danışıqlar masasında əsas məsələlərdən biri Ermənistanın rəsmi olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsidir. Onlar bunu şifahi şəkildə ediblər, bu, onların mövqeyidir. Biz onu qəbul etdik. Onların baş naziri dedi, "Qarabağ Azərbaycandır". Kaş ki, o, bunu 2019-cu ildə deyəydi. Amma o, Xankəndidə tamamilə başqa bir söz demişdi. Ancaq o, bu gün həmin sənədə öz imzasını qoymalıdır. Bizim sülh sazişimizin layihəsində belə bir bənd var ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası yoxdur. Çünki hazırda onların mövqeləri qeyri-müəyyəndir. Bir tərəfdən deyirlər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, amma digər tərəfdən də deyirlər ki, Qarabağdakı erməni icması da sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməlidir. Bu məsələ mümkünsüzdür. Mətnlə bağlı müəyyən təkliflər var. Onlar milli azlıqların hüquqları və təhlükəsizliyi ilə bağlıdır və bu, hər iki ölkəyə aiddir. Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır. Ümid edirəm ki, biz yekun mərhələyə çatacağıq. Proqnoz vermək çətindir. Mən bizdən asılı olan məsələlərlə bağlı proqnoz verə bilərəm. Ancaq biz danışıqlarla bağlı ümidliyik. Amma biz o qədər də nikbin deyil, real olmalıyıq.

**Moderator:** Cənab Prezident, bu, son sualımız olacaq, ADA Universitetindən Şəfəq Mehrəliyeva.

**Şəfəq Mehrəliyeva:** İcazənizlə, mən də sualımı ingilis dilində verərdim. Cənab Prezident, mən ADA Universitetində kommunikasiya sahəsində dərs deyirəm. Bu gün ərzində biz həmkarlarımızla müasir media trendləri haqqında danışacağıq və bu sahədə yaranan sual sosial media ilə peşəkar KİV-lər arasında əlaqələrə aiddir. Burada müəyyən rəqabət var. Siz sosial şəbəkələrdə çox fəalsınız, Sizin fəaliyyətiniz işıqlandırılır. Sizi müxtəlif nəsillərin nümayəndələri izləyirlər. Mənim oğlum da Sizin fanatınızdır və birinci xanım da bilməlidir ki, biz onu çox diqqətlə izləyirik. Onun mesajları, videoları çox isti və səmimi olur və o da Sizinlə birbaşa təmasın vasitəçisidir, heç bir maneəsiz, süzgəcsiz. Sosial şəbəkələrdən istifadə baxımından Siz sosial medianın rolunu necə görürsünüz və Siz ondan istifadə edirsiniz?

**Prezident İlham Əliyev:** Mən sizə deyə bilərəm ki, ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrənirəm. Media ilə təmaslarımda həmişə deyirdim ki, siz mənim gündəlik işimdə mənə yardımçı olursunuz. Çünki hər bir prezidentin bir-birinə bənzər fəaliyyəti var. Xüsusilə də Azərbaycan kimi ölkədə insan 24 saat işləməlidir və istənilən xəbərə, yaxşı və ya pis xəbərə hazır olmalıdır. Eyni zamanda fəaliyyətin miqyası o qədər böyükdür ki, bəzən bir də görürsünüz, cəmiyyətin nəbzini müəyyən qədər hiss etməmək olur. Çünki cəmiyyətin nəbzini hər zaman hiss etmək lazımdır. Mən ölkədə səyahət edirəm, insanlarla görüşürəm və təbii ki, sosial mediadan istifadə edirəm. Azərbaycanda baş verən bir çox hadisələr və mənə məruzə edilməmiş bəzi hadisələr, istər bürokratik maneələr və ya bilərəkdən mənə məruzə edilməyən müəyyən məsələlər olubdur və ya mən digər məsələlərlə məşğul olmuşam, hətta mənim nəvələrim mənə müəyyən məlumatları verirlər. Övladlarım sosial mediada gördüklərini mənə deyirlər və mən özüm də sosial medianı izləyirəm. O, mənə çox yardımçı olur. Bəzi məsələlər var ki, məni də müəyyən dərəcədə qıcıqlandırır. Ölkəmizdə ədalətsizlik, bürokratiya, pis idarəçilik və ya digər mənfi hallar, əlbəttə ki, bizim həmvətənlərimiz, hər bir vətəndaş kimi məni də qıcıqlandırır. Ona görə də mənim kommunikasiya kanallarım fərqlidir, müxtəlifdir. Postmüharibə dövrünü və hazırkı vəziyyəti nəzərə alsaq, təhlükəsizlik məsələləri, sülh prosesi, enerji diplomatiyası, qlobal təhlükəsizlik və Azərbaycanın inkişafı mənim gündəlik fəaliyyətimin böyük hissəsini, əsasını təşkil edir. Ona görə də belə bir şəraitdə müəyyən məsələlər mənim diqqətimdən yayına bilər. Həm sosial media, həm ənənəvi KİV-lər mənə kömək edir ki, məsələlərdən xəbərdar olum və ona dərhal reaksiya verim. Sizə deyə bilərəm ki, bir çox hallarda müəyyən dövlət məmurlarının reaksiyası verilir, hətta bir ağacın belə kəsilməsi, - mən onu mediadan bilmişəm, - o, məmurlarda da intizam yaradır. Çünki mən ölkəni gəzirəm, ölkədə səyahət edirəm və mən bunu avtomobillə edirəm. Buna səbəb isə mən avtomobillə hərəkət edəndə daha çox görürəm, nəinki helikopter və ya təyyarə ilə səyahət edəndə. Yerlərdə olan məmurlar bilirlər ki, gələn dəfə gələndə mən bunu yoxlayacağam, buna nəzarət edəcəyəm. Ona görə də mən gələcək fəaliyyətimdə də əlbəttə ki, mediadan istifadə edəcəyəm. Mən, əlbəttə ki, istədiyim qədər fəal deyiləm, çünki məşğulam. Ancaq cəmiyyətdə müəyyən narahatlıq doğuran məsələlərə gəldikdə, mən dərhal təmasdayam, mənim ailəm də mənimlə təmasdadır, qohumlarım təmasdadır və belə görüşlər də çox vacibdir.

Ötən il burada, Şuşada Azərbaycanın media nümayəndələrinin birinci Forumu keçiriləndə mən bu tədbirdə iştirak etmədim. Prezident Administrasiyasına göstəriş verdim ki, gələn dəfə bu tədbiri beynəlxalq forum səviyyəsində təşkil etmək lazımdır. Bu, artıq baş verir və mən qərara aldım ki, gəlim burada iştirak edim. Mən bu tədbirdə çıxışçı kimi təqdim edilmişdim. Ancaq mən hesab etdim ki, burada uzun-uzadı çıxış etməyə ehtiyac yoxdur. Hesab etdim ki, bu sorğu-sual daha maraqlı olar.

Sizə səbirli olduğunuz üçün təşəkkür edirəm. Üç saata yaxındır ki, bir yerdəyik. Əminəm ki, siz bu müzakirələr sayəsində ölkələrinizə çox yaxşı nəticələrlə qayıdacaqsınız. Bizim hökumətimiz üçün də müəyyən maraqlı ideyalar, istiqamətlər olacaqdır. Sonuncu təklifim isə ondan ibarətdir ki, bu forum müntəzəm olaraq keçirilsin və buna birinci Şuşa Qlobal Media Forumu adı verilsin.

**Moderator:** Beləliklə, rəsmi hissəmiz başa çatır. Cənab Prezident, Sizə bir daha təşəkkür edirik. Gələn il görüşənədək.

❖ ❖ ❖

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi nəzərdə tutulur. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə edəcəklər.

Forum çərçivəsində Qoşulmama Hərəkatı media platforması təşəbbüsü də irəli sürüləcək.

Qeyd edək ki, bu günədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri indi də müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır.

# Prezident İlham Əliyev Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub

*Əvvəli 1-ci səh.*

Bildirildi ki, Şuşa şəhəri üçün strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin bərpası qarşıya qoyulan əsas məqsədlərdəndir. Kəndin inkişafı, burada məskunlaşacaq əhali üçün rahat və sağlam yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi prioritetlər arasındadır. Bunu nəzərə alaraq yenidənqurma üzrə təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur.





Qeyd olundu ki, görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev - ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, hotel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır. Bildirildi ki, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) evlər konsepsiyası kənd ərazisində şəhərin praktikliyini təmin etmək məqsədi daşıyır. Bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış blokları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda onların hər birini şəxsi həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında ən optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub.

Qeyd edildi ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda hotel və istirahət mərkəzi tikiləcək. Hotel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nömrədən ibarət olacaq hotel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

# Prezident İlham Əliyev Şuşa Şəhər Xəstəxanasının binasında tikinti işlərinin gedişatı ilə tanış olub



*Əvvəli 1-ci səh.*

Məlumat verildi ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa Şəhər Xəstəxanasının ərazisində eyni zamanda Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

Qeyd edək ki, əhalinin sağlamlığı daim dövlət başçısının diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Şuşa Şəhər Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Bu həm də onu göstərir ki, azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.



# Şuşada 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişatı ilə tanışlıq

*Əvvəli 1-ci səh.*

Məktəbdə hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, 1 STEAM mərkəzi, kitabxana və oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, tibb otağı, müayinə otağı, yeməkxana, həmçinin akt və idman zalları, inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, transformator, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası da yekunlaşıb.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında da özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verib. Şuşada 1 saylı tam orta məktəb binasının inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəb binasının inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.









# Belçikalıların Kralı Əlahəzrət Filipə

Əlahəzrət!

Belçika Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2023-cü il*

# Azərbaycan və Rusiyanın XİN rəhbərləri arasında telefon danışığı olub



İyulun 21-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli münasibətlər, bölgədə sülh və sabitliyin təmin edilməsi istiqamətində tədbirlər, Azərbaycanla Ermənistan arasında normallaşma prosesi və bu istiqamətdə mövcud çətinliklər müzakirə edilib.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Ziyafət ƏSGƏROV:*

# "Pyotr Tolstoyun açıqlaması Rusiya-Azərbaycan münasibətlərinə xələl gətirir"

Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun açıqlaması heç bir halda başa düşülən deyil, Rusiya ilə Azərbaycan arasında mövcud münasibətlərə və bu münasibətləri tənzimləyən müqavilələrə xələl gətirir.



Bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib. Ziyafət Əsgərovun sözlərinə görə, 22 fevral 2022-ci il tarixli Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməni xatırlatmaq kifayətdir ki, hər şey aydın olsun: "Həmin bəyannamədə hər iki dövlətin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, eyni zamanda bir-birilərinin daxili işlərinə qarışmaması xüsusi vurğulanıb. Hesab edirəm ki, Pyotr Tolstoy bu bəyannaməni təsdiq edən Rusiya Prezidenti Vladimir Putinin imzasına hörmətlə yanaşmalıdır.

Azərbaycan 30 ildən artıqdır ki, müstəqil dövlətdir, müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan heç kimdən asılı deyil. Azərbaycan Rusiya ilə münasibətlərdə beynəlxalq hüququn bərabər subyektliliyi prinsipinə əsaslanır".

Parlamentin komitə sədri Azərbaycanın müstəqilliyinin əbədi olduğunu vurğulayıb: "Təəssüf ki, Rusiyada Azərbaycanla əlaqələrə kölgə salan Zatulin, Milonov kimilərinin sayı yüksələn xətt üzrə irəliləyir ki, bu hal, o cümlədən də Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun açıqlaması dövlətlərarası münasibətlərə xələl gətirir.

Son zamanlar Rusiya mediasında da anti-Azərbaycan ab-havası artır, ölkəmizin ünvanına kəskin hücumlar özünü açıq büruzə verir. 44 günlük Vətən müharibəsi bir daha Azərbaycanın hansı gücə malik olduğunu göstərdi. Rusiyanın belə rəsmi şəxsləri bunları nəzərə almalıdırlar. "Dağlıq Qarabağ" və "Stepanakert" kimi anlayışlar isə artıq tarixin arxivinə qovuşub. Pyotr Tolstoy "bəlkə də qaytardılar" arzusu ilə yaşayırsa, bilməlidir ki, qatar artıq çoxdan gedib və bununla razılaşmalıdır. Hamı bilməlidir ki, müstəqil dövlət kimi Azərbaycan öz ərazisində prosesləri ölkə qanunvericiliyi çərçivəsində tənzimləməlidir və tənzimləyir. Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası da daxil olmaqla, bütün məsələlər bu kontekstdə qiymətləndirilməlidir. Bu, zəruri prosesdir və bu prosesə maneçilik törədilməsi cəhdləri iflasa məhkumdur".

***"Azərbaycan"***

# Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışı dünya mediasının diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda Şuşa Qlobal Media Forumundakı çıxışı dünya mediasının diqqət mərkəzindədir.**




AZƏRTAC xəbər verir ki, Pakistanın rəsmi **"Associated Press of Pakistan"** Agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışından əsas məqamları dərc edib. Agentliyin materialında diqqətə çatdırılıb ki, Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

Xəbərdə qeyd olunub ki, tədbir iştirakçıları qarşısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev medianın insanların maarifləndirilməsi və onların problemlərinin həllində mühüm rol oynadığını söyləyib. Azərbaycanın dövlət başçısı həmçinin ənənəvi media ilə yanaşı, sosial medianın da mühüm rolunu qeyd edib.

Pakistanın informasiya agentliyi vurğulayıb ki, işğaldan azad olunmuş ərazilər və müharibə məsələlərinə toxunan Prezident İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyin-çiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi".

Materialda diqqətə çatdırılıb ki, forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi nəzərdə tutulur. Dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə edəcəklər.

Sonda qeyd edilib ki, Şuşa şəhəri müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır.

**"Belarus seqodnya"** nəşri öz xəbərində yazıb ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən forumda dünyanın müxtəlif ölkələrindən media nümayəndələrini bir araya toplayıb. Bu mötəbər tədbirdə 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir. Rəsmi açılış mərasimindən sonra forum işini sessiyalarda davam etdirəcək, rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə olunacaq.

Bu nəşrdə həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında Rusiya-Azərbaycan münasibətləri barədə söylədiyi fikirlər də yer alıb. Qeyd olunub ki, dövlət başçısı Moskva ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, həmçinin konkret nəticələrə əsaslandığını bildirib.

Prezident İlham Əliyevin Forumdakı çıxışı qardaş Türkiyənin **"TRTHaber", "Takvim", "Yeni Şafak", "HaberGlobal", "Milliyet, "Anadolu"** Agentliyi, **"CNN Türk"** və başqa telekanal, agentlik, qəzet və portalları tərəfindən geniş işıqlandırılıb. Bu media orqanları dövlətimizin başçısının söylədiyi "İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyin-çiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi" fikirlərini ön plana çıxarıblar.

Türkiyə mediasının dərc etdiyi materiallarda vurğulanıb ki, dünyada və regionda vəziyyətin dəyişməsinə, yaranan yeni reallıqlara toxunan Azərbaycan Prezidenti dayanıqlı sülhün, təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini qeyd edib. O, Türkiyənin bu məsələdə mühüm rolunu vurğulayıb, Ankaranın eyni zamanda qarşıdakı illərdə daha çox qlobal nüfuz qazanacağını bildirib.

Şuşa Qlobal Media Forumu Rusiya mediasının da diqqət mərkəzindədir. Bu ölkənin rəsmi **TASS** Agentliyinin yaydığı, habelə **"News.ru"** və **"Ria.ru"** saytında yerləşdirilən xəbərlərdə Prezident İlham Əliyevin Rusiya-Azərbaycan münasibətləri, Türkiyə ilə əlaqələrin daha da güclənəcəyi, Bakının Qoşulmama Hərəkatına yeni nəfəs verməsi, Azərbaycanın Moskva ilə Vaşinqton arasında münasibətlərin bərpası üzrə danışıqlar məkanı ola biləcəyi, Qarabağa yaxın üç ildə 150 min azərbaycanlının qayıdacağı, Ermənistanla sülh sazişinin bu ilin sonuna qədər imzalanması ehtimalı barədə fikirləri yer alıb. "Vesti Kavkaza" portalı isə dövlətimizin başçısının Ermənistanın mina terroru, Azərbaycan dövlətinin ərazilərin minalardan təmizlənməsi üzrə fəaliyyəti haqqında fikirlərinə geniş yer ayırıb. Rusiya mətbuatı həmçinin Şuşa Qlobal Media Forumunda müzakirə olunan məsələlər barədə ətraflı məlumat verib.

**Albaniya Teleqraf Agentliyinin** (ATA) AZƏRTAC-a istinadla yaydığı xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunub. Xəbərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Moskva ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, müharibədə qazanılmış Qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs edib. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin bu ilin sonuna qədər imzalanması kifayət qədər mümkündür. Lakin bu olmasa, o halda sülh olmayacaq. Bu isə bölgə üçün yaxşı ssenari deyil, sabitlik, təhlükəsizlik bəxş etməyəcək. Eyni zamanda çox həssas geosiyasi vəziyyəti nəzərə alaraq gələcəkdə də çətinliklər yaradacaq.

İspaniyanın **"El Periodista"** nəşrində dərc olunan xəbərdə də Azərbaycan Prezidenti İlham Əliyevin forumdakı çıxışının əsas məqamları yer alıb. Materialda dövlətimizin başçısının dünyada və Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar, Qarabağda son vəziyyət və bu regionda yaşayan erməni azlığı ilə bağlı fikirləri, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi və azərbaycanlıların öz torpaqlarına qayıtması barədə fikirləri yer alıb. Yazıda qeyd olunub ki, Ermənistanın mina terrorundan bəhs edən Azərbaycanın dövlət başçısı deyib: "Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni etiraf etdilər ki, onlar 400 mindən artıq mina basdırıblar. Ancaq biz bilirik və bu, olduqca dəqiq məlumatdır ki, minaların sayı 1 milyona yaxındır".

**"Associated Press"** Agentliyində yayımlanan "Şuşa Qlobal Media Forumu: Dünyanın media liderləri arasında ilhamverici birlik" sərlövhəli məqalədə forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin mühüm mövzuları, o cümlədən yeni media sahəsində irəliləyişləri və Azərbaycanın regionda strateji əhəmiyyəti ilə bağlı fikirlərinə yer verib. Məqalədə Azərbaycanda media sahəsində davam edən islahatların bu sahənin müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açması barədə dövlətimizin başçısının fikirləri xüsusi vurğulanıb.

ABŞ-nin **"Newyorkinsider.net"**, Fransanın "France11", Kubanın **"Prensa-latina.cu"**, Qırğızıstanın **"AKİ Press"**, eləcə də digər xarici KİV-lərdə də yayımlanan məqalələrdə 49 ölkədən 200-dək xarici qonağın qatıldığı Şuşa Qlobal Media Forumunun əhəmiyyəti qeyd olunub, bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı və dövlətimizin başçısının fikirləri diqqət mərkəzində saxlanılıb.

# YAP Mərkəzi Aparatının rəhbəri ilə ICAPP-ın baş katibi arasında görüş keçirilib





Kamboca Krallığında keçiriləcək parlament seçkilərini Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) missiyasının tərkibində müşahidə etmək məqsədilə bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov iyulun 21-də ICAPP-ın baş katibi Ahn Myung-soo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Tahir Budaqov Yeni Azərbaycan Partiyasının ICAPP ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini, qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsinin önəmini vurğulayıb. Öz növbəsində Ahn Myung-soo Yeni Azərbaycan Partiyasının ICAPP-ın Daimi Komitəsinin üzvü kimi qurumun fəaliyyətində yaxından iştirak etdiyini bildirərək birgə səylərlə əməkdaşlığın davamlı inkişaf edəcəyinə əminliyini ifadə edib. Görüşdə YAP-ın yeni yaradılmış ICAPP Biznes Şurasındakı fəaliyyəti və əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

Sonra ICAPP-dan olan müşahidəçilər "Kamboca Milli Assambleyasına seçkilərin tarixi və perspektivləri" mövzusunda Kamboca Milli Seçki Komitəsi, Vətəndaş Cəmiyyəti Alyansı Forumu və Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunmuş brifinqdə iştirak ediblər. Brifinqdə Kamboca Milli Assambleyasına "Seçkilər haqqında" qanunun mahiyyəti, VII çağırış Milli Assambleyaya seçkilərdə təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən tədbirlər, eləcə də Kambocanın tarixi və mövcud ictimai-siyasi vəziyyəti haqqında məruzələr dinlənilib, iştirakçıların sualları cavablandırılıb. Günün sonunda ICAPP missiyasının üzvləri Baş nazirin keçmiş müavini mərhum Samdek Vibol Panha Sok Anın həyat yoldaşı xanım Eni Sok Anın adından verilən şam yeməyinə qatılıblar.

Qeyd edək ki, ICAPP-ın müşahidə missiyasının tərkibinə YAP üzvü, "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru, ICAPP Biznes Şurasının üzvü Ruslan Quliyev də daxildir.

## *Aydın MİRZƏZADƏ:*

# "Pyotr Tolstoy fikirlərinə görə Azərbaycandan üzr istəməlidir"

Milli Məclisin deputatı Aydın Mirzəzadə Rusiya Dövlət Dumasının üzvü Pyotr Tolstoyun təxribatçı çıxışındakı fikirlərinə etiraz edib.



Aydın Mirzəzadə bildirib ki, Rusiya Dövlət Dumasının vitse-spikeri böyük səhv edir. Onun söylədiyi fikirlər beynəlxalq hüquq normalarına, Rusiyanın rəsmi siyasətinə, hakim Vahid Rusiya Partiyasının siyasi xəttinə ziddir. Pyotr Tolstoy bilməlidir ki, bugünkü dünyada sülhün, stabilliyin qorunmasının əsas şərtlərindən biri dövlətlərin suverenliyinə, dövlət müstəqilliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaqdır. Pyotr Tolstoyun dedikləri orta əsr təfəkkürünün, Çar Rusiyasının işğalçılıq ideologiyasının qalığıdır.

Milli Məclisin deputatı qeyd edib ki, Tolstoy tanınmış telejurnalistdir və efir verilişləri ilə parlament mövqeyini dəyişik salır. O bilməlidir ki, dünyanın müstəqil dövlətlərinin hər biri öz müstəqilliyinin keşiyindədir. Beynəlxalq hüquq da dövlət müstəqilliklərinin keşiyindədir.

Aydın Mirzəzadə bildirib ki, Pyotr Tolstoy bu fikirlərinə görə ilk növbədə Azərbaycandan üzr istəməlidir. Onun söylədiyi fikirlər Rusiya Prezidentinin, hakimiyyətinin, hakim Vahid Rusiya Partiyasının siyasi mövqeyinə ziddir və bu cür fikirlər iki dövlət arasındakı münasibətləri böyük zərbə altında qoyur.

Aydın Mirzəzadə Rusiyanın rəsmi dairələrinin qısa bir zamanda hakim partiyanı təmsil edən vitse-spiker postunda olan Tolstoyun fikirlərinə aydınlıq gətirəcəklərinə və təkzib edəcəklərinə inandığını deyib. Milli Məclisin deputatı qeyd edib ki, Rusiyanın bu gün Azərbaycanla münasibətləri var. Azərbaycanla Rusiya strateji müttəfiqlərdir və strateji müttəfiqin suverenliyini şübhə altına almaq siyasətçi üçün bağışlanmaz böyük səhvdir.

***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

**Əsrlər boyu insanlar doğru, ədalətli və ucadan söylənən cəsarətli sözə ciddi ehtiyac duyublar!**

**Əsrlər boyu doğru, ədalətli sözü açıq və ucadan söyləmək çətin, qorxulu, bəzən isə mümkünsüz olub!**

**Haqq və ədalət, xoş güzəran naminə yorulmadan çarpışan insanlar azad sözü - həqiqət saydıqları sözü qorxu-ürküsüz, azad şəkildə deyə bilmək uğrunda da mübarizə aparıblar.**

**Tarixin müəyyən mərhələlərində insanlar buna nail olsalar da, bir çox halda dillərindən bəlaya düşmüş, söylədikləri sözə və fikrə görə təqib edilmiş, müxtəlif formada cəzalandırılmış, bəzən isə zindanlara atılmışlar.**

**Lakin bəşər övladı bu yoldan usanmamış, qorxub geriyə çəkilməmişdir.**

**Sivilizasiya inkişaf etdikcə, cəmiyyətin və dövlətin idarə olunması təkmilləşdikcə, artıq azad söz daşıyıcısı sayılan mətbuatın sərbəst və maneəsiz fəaliyyətinə də imkan yaradılmasına nail olunmuşdur.**

**Buna qədər isə mətbuat qadağa və repressiyalardan keçmiş, senzura nəzarətinə dözməli olmuş, bəzən isə "icazə verilən hədd"də azadlıq və sərbəstlik göstərmişdir.**



# Jurnalistlərin böyük dostu idi

Azərbaycan milli mətbuatı da uzun, mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Mətbuatımızın qaranquşu sayılan "Əkinçi" qəzetinin ilk nömrəsi 22 iyul 1875-ci ildə işıq üzü gördü. Bu, xalqımızın ictimai-siyasi, mənəvi və mədəni həyatında çox mühüm hadisə idi. Kütləvi savadsızlığın baş alıb getdiyi, mətbəə və çap imkanlarının məhdudluğu şəraitində qəzet buraxmaq heç də asan məsələ deyildi. Üstəlik, çox ciddi və qərəzli çar senzurasının mövcudluğunu da nəzərə alsaq, məsələnin mürəkkəbliyi daha aydın duyular. Lakin həmin dövrdə öz xalqına təmənnasız xidmət etməyə, onun gözünü açıb maarifləndirməyə çalışan görkəmli ziyalılar, vətənpərvər insanlar da vardı və onlar heç bir çətinlikdən qorxmayaraq, geri çəkilmək fikrində deyildilər. Mətbu sözün, xeyirxah əməllərin də faydası hələ lazımınca qiymətləndirilmirdi. "Əkinçi"nin yaradıcısı Həsən bəy Zərdabi isə ruhdan düşməyərək bütün məhrumiyyətlərə dözürdü: "Hər kəsi çağırıram gəlməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın, necə ki bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürür ilə əriyib deşilir, habelə söz də, ələlxüsus, doğru söz, mürür və qanmazın başını deşib, onun beyninə əsər edər… Belədə qəzet çıxarmaqdan bir qeyri-əlac yoxdur ki, kağızın üstündə yazılmış o doğru sözlər qapı-pəncərələrdən o iman mənzilinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın".

Dövrün cəhalətinə, söz deməyin çətinliyinə baxmayaraq, Həsən bəy Zərdabi və onun məsləkdaşları əqidə saflığı və daxili yanğı ilə xalqa xidmət etmək, onu maarifləndirərək gözünü açmaq yoluna qədəm qoydular.

"Əkinçi" qəzeti çox sağlam və məhsuldar "toxum" oldu, Azərbaycan mühitində inkişaf edərək bar verməyə başladı. Beləliklə, ümumbəşəri dəyərlərə söykənən və ucadan açıq söz demək imkanı verən yeni bir mətbuat yarandı. Zülmət səltənətində nura bənzəyən "Əkinçi" qəzeti öz ətrafına Azərbaycan xalqının görkəmli ziyalılarını, söz deməyə mənəvi haqqı və qabiliyyəti olanları toplayaraq maarifə, elmə, mədəniyyətə xidmət göstərməyə başladı.

Uzun ömür sürə bilməyən "Əkinçi"nin başladığı iş yarımçıq qalmadı. Sonralar onun səpdiyi sağlam və rasional toxumlardan Azərbaycan xalqına, onun milli mənafeyinə xidmət edən onlarca qəzet və jurnal "cücərdi". O dövrdə doğru və ədalətli söz demək asan deyildi! "Qabili-imkanmı olur qanmamaq" - söyləyən Mirzə Ələkbər Sabir sözün yeni, başqa tərzdə deyiliş formasını tapdı. XIX əsrin əvvəllərində Molla Nəsrəddin ədəbi məktəbi yarandı. Bütün fəaliyyətləri ilə xalqa xidmət göstərən bu məktəbin nümayəndələri özlərinə məxsus üslubda - oxucunu özünə güldürməklə nöqsan və naqisliklərin islahına, yaramaz vərdiş və adətlərin tərgidilməsinə çalışırdılar!

"Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər daim təzyiq və təqiblərə məruz qalır, hərdən müxtəlif müddətlərə fəaliyyətlərini dayandırmalı olurdular. Lakin mətbuat xalqın və cəmiyyətin həyatına elə sıx daxil olmuşdu ki, onu daha ayırmaq, qoparıb atmaq mümkün deyildi! Azərbaycan mətbuatı ilə yanaşı, bu sahənin fədailər ordusu da yaranır, formalaşırdı.

Əsrin əvvəllərində Mirzə Fətəli Axundov, Əsgərağa Gorani, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Üzeyir bəy Hacıbəyli, Nəriman Nərimanov və onlarca digər qələm sahibi söz meydanına çıxaraq sidq-ürəkdən xalqa xidmət etməyə, inkişaf və yüksəliş uğrunda mübarizə aparmağa başladılar. Doğrudur, həmin dövrdə də şəxsi mənafeyini güdənlər, vicdanı ilə alverə girənlər olub. Lakin xalqın yaddaşında və mətbuat tarixində yalnız maddi ehtiyacdan çox mənəvi borc hissi ilə qələm çalanlar qalıb, həmişəyaşarlıq kəsb edib! Şübhəsiz ki, Azərbaycan mətbuatının və jurnalistikasının təməlini qoyanların çəkdikləri zəhmət və gördükləri iş nəticəsiz qalmadı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" imzaladığı fərmanda deyilir: "Milli demokratik mətbuatın "Əkinçi" tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı". Həmin fərmanda "Molla Nəsrəddin" ədəbi məktəbinə də yüksək qiymət verilmişdir: "Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii publisistik irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar".

1918-1920-ci illərdə - Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin təməli qoyuldu. Bütövlükdə həmin illər dövri mətbuatın fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, "Əkinçi" prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi oldu. Yetmiş ildən artıq davam edən sosializm dövrü isə mətbuat və jurnalistika sahəsində yüksəliş və inkişafla müşahidə edilmişdir. Doğrudur, həmin dövr mətbuatı partiyalı mövqe ilə bağlı idi. Lakin vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş, qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Bu gün sosializm dövrü mətbuatının üzərindən qara xətt çəkmək, həmin dövr jurnalistikasının xidmətlərini inkar etmək ən azı ədalətsizlik olar. Sovet hakimiyyətinin mövcudluğu zamanı müəyyən ideoloji buxovlara baxmayaraq, kütləvi informasiya vasitələrində dilimizin, mədəniyyətimizin, elmimizin inkişafı, xalqın adət-ənənəsinin qorunması ilə bağlı müntəzəm yazılar verilmiş, hətta bəzi mətbuat orqanlarında həmin dövr üçün müxalif ruhlu, vətənpərvərlik hissləri ilə yoğrulmuş materiallar dərc edilmişdir. Bütövlükdə Azərbaycan mətbuatı öz milli varlığını qoruyub saxlamış, qazandığı zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra ölkədə demokratiyanın və söz azadlığının bərqərar olunması yönündə xeyli iş görülmüşdür. Baş müəllifi Heydər Əliyev olan müstəqil Azərbaycan dövlətinin yeni Konstitusiyasında ölkədə mətbuat və söz azadlığının mövcudluğu öz təsdiqini tapmışdır. Konstitusiyanın 50-ci maddəsində deyilir: "Kütləvi informasiyanın azadlığına təminat verilir".

Ümummilli Liderimiz Heydər Əliyev mətbuat və söz azadlığının təmin edilməsi üçün cəmiyyətdə lazımi mühitin yaradılmasına nail olub, öz fəaliyyətində daim demokratik prinsipləri əsas tutub.

Heydər Əliyev dövlətə rəhbərlik etdiyi müddətdə mətbuatla bağlı yaranmış bütün mübahisəli məsələlərdə həmişə mətbuatın mövqeyini müdafiə etmişdir.

Məhz Heydər Əliyevin təşəbbüsü və qərarı ilə AXC-Müsavat iqtidarı dövründə kütləvi informasiya vasitələrinə qoyulmuş senzura nəzarəti ləğv edilmiş, mətbuat əlavə dəyər vergisindən azad olunmuş, sözün azadlığından sui-istifadə edərək cinayət törədən bəzi jurnalistlər alicənablıqla əfv edilərək, vaxtından qabaq azadlığa buraxılmışlar. Kütləvi informasiya vasitələrinin fəaliyyət sərbəstliyinin təmin olunması üçün yenidən daha təkmil bir qanun hazırlanaraq Milli Məclis tərəfindən qəbul edilmişdir.

Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra cəmiyyətin və mətbuatın demokratikləşdirilməsi sahəsində qısa müddətdə xeyli iş görülmüşdür. Şübhəsiz ki, söz azadlığının təminatı, cəmiyyətdə azad söz demək imkanının yaradılması sevindirici haldır. Hazırda ölkəmizdə yüzlərlə müxtəlif kütləvi informasiya vasitəsi - qəzet, jurnal, informasiya agentliyi, elektron sayt, internet TV və teleradio kanalları fəaliyyət göstərir. Azad fikirliliyin, plüralizmin mövcud olduğu cəmiyyətdə mətbu orqan təsis etmək, sayt açmaq, qəzet buraxmaq çox asan və hər kəsə müyəssər olan işdir. Lakin söz azadlığı, qəzet bolluğu müəyyən problemlər də yaratmış, bir sıra arzuolunmaz meyillər doğurmuşdur. Sovet dövrü çərçivələri birdən-birə dağıdıldıqdan sonra yaranan azad mətbuat mühitinə bir çoxlarının hələ hazır olmadığı həqiqəti də meydana çıxdı. "Reket jurnalistikası" fəaliyyətə başladı.

Əsl jurnalistlərin neçə on illər ərzində mətbuata və jurnalist adına qazandırdıqları hörmət-izzəti "cır qəzetçilər" çox qısa bir müddətdə töküb dağıtdılar. Əgər müasir mətbuatın bir bəlası onun qeyri-peşəkarlarla, səriştəsizlərlə "çirklənməsi"dirsə, ondan daha qorxulu düşmən bir qisim mətbuatın xalqa xidmət etməyi bacarmamasıdır. Yaxud milli və dövlətçilik mənafeyinin, mətbuatın şəxsi maraq və mənafelərə qurban verilməsidir. Əlbəttə, hüquqi-demokratik dövlət qurulduğu bir zamanda heç bir dövlət və qeyri-dövlət strukturu mətbuatı nədən və necə yazmağa məcbur edə bilməz. Lakin milli mənafeyin dərki, xalqa xidməti bacarmaq hər bir qələm əhlinin qanında və canında olmalıdır. Yalnız bu halda Azərbaycan mətbuatının tarixi ənənələrini yaşatmaq, davam etdirmək, yeni şəraitə uyğun şəkildə, novatorluqla zənginləşdirmək mümkündür. Ənənəyə söykənməyən novatorluq isə əllaməçilikdən və səriştəsizlikdən başqa bir şey deyil!

Uzun müddət havasız şəraitdə, qaranlıq mağarada saxlanan insan qəflətən gen və işıqlı dünyaya, təbiətin saf havasına çıxarıldıqda gözləri necə qamaşır və təmiz hava başını necə gicəlləndirirsə, Azərbaycan mətbuatı da bütün çərçivələrdən azad, qadağasız mühitə yetişdikdə eyni halı keçirdi. Kim qəzet istəyir açır, nə istəyir yazır, kimdən xoşu gəlmirdisə, ağına-bozuna baxmadan tənqid edirdi (Təəssüf ki, belə özbaşınalıq hələ də davam edir). Lakin demokratiyanın ən mühüm əlamətlərindən biri kimi hüquqi-demokratik inkişaf yolunu tutan Azərbaycanda həqiqi söz və mətbuat azadlığının bərpası çox vacib idi. Ulu Öndər Heydər Əliyev bu mühüm cəhəti nəzərdə tutaraq deyirdi: "…Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir, çox vacib bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq".

Müdrik dövlət rəhbəri bu vəzifənin tam reallaşmasından ötrü bütün zəruri tədbirləri ardıcıllıqla həyata keçirdi. Onun mətbuatın sərbəstləşməsinə yönəlmiş hər konkret və inamlı addımı müəyyən qrup adamlar tərəfindən "vaxtı çatmamış" və "acı nəticələr doğuracaq addımlar" kimi ehtiyatla qarşılansa da, həyat Ulu Öndər Heydər Əliyevin cəsarətli və uzaqgörən reformator olduğunu dəfələrlə təsdiq etmişdir!

Aparılan islahatlar isə həm də mətbuatın sürətli inkişafına təkan vermiş oldu. Məsələn, özlərini demokrat adlandırsalar da, iqtidarda olduqları qısa dövrdə azad sözə münasibətdə böyük problemlər yaradan, mətbuata senzura nəzarəti qoyan, jurnalistləri döyüb təhqir edən AXC-Müsavat cütlüyü sonadək KİV-i dar çərçivədə saxladı.

"Jurnalistlik qeyri-adi, böyük zəhmət, xüsusi bilik tələb edən bir sənətdir. Azərbaycan dövləti jurnalistlərin əməyini daim yüksək qiymətləndirir, kütləvi informasiya vasitələrinin mövcud problemlərini həll etmək üçün əlindən gələni edir və bundan sonra da edəcəkdir", - deyən Ulu Öndər Heydər Əliyev ilk öncə senzura nəzarətini ləğv etdi. Bu, bəzilərinin güman etdiyi kimi xaos yaratmadı. Əksinə, vətəndaşlarla məhkəmə çəkişmələrinə düşən qəzetlər və jurnalistlər sözün məsuliyyətini dərk edib qiymətləndirməyi öyrəndilər. Bütövlükdə isə mətbuatın mövzu dairəsi daha da genişləndi, hadisələrə müdaxilə cəsarəti artdı. Bu gün hər bir qələm sahibi Azərbaycan mətbuatının senzura buxovundan qurtarmasını Ulu Öndər Heydər Əliyevin mətbuat azadlığının təminatı sahəsində ən böyük xidmətlərindən biri hesab edir.

Şübhəsiz, möhkəm və müasir qanunvericilik bazası yaratmadan mətbuatın sərbəst fəaliyyətini və sürətli inkişafını da təmin etmək olmazdı. Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyev bu missiyanı da layiqincə yerinə yetirdi. Onun tövsiyəsi və iradəsi ilə kütləvi informasiya vasitələri haqqında yeni, daha təkmil bir qanun hazırlanaraq Milli Məclis tərəfindən qəbul edildi, bir qədər keçmiş isə zamanın tələblərindən irəli gələn dəyişikliklər aparılaraq kütləvi informasiya vasitələrinin təsisindəki bütün maneə və əngəllər aradan qaldırıldı.

Azərbaycan jurnalisti üçün qapalı sahə, qadağan olunmuş mövzu yoxdur. O, hətta mütəmadi şəkildə ölkə Prezidenti ilə görüşə, istədiyi sualı ona ünvanlayıb cavab ala bilir. Bu, keçmişdə də belə olub, indi də belədir. Ulu Öndərdən qalan qaydadır. Ümummilli Lider Heydər Əliyev özü daim jurnalistlərlə görüşə can atır, buna şərait yaradırdı. Hər dəfə xarici səfərlərə yola düşəndə aeroportda kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşür, onların bütün suallarını cavablandırırdı. Uzunmüddətli uçuşlar zamanı yenə də jurnalistləri "darıxmağa qoymur", elə təyyarədə onlar üçün sual-cavab təşkil edirdi. Geri döndükdə də hökmən hava limanında jurnalistlərin qarşısına çıxır, səfərin gedişi və yekunları barədə müxtəlif suallara cavab verirdi. Müəyyən mədəni-kütləvi tədbirlərdən öncə, yaxud sonra da Heydər Əliyev kamera və qələm sahiblərinin "işləmələri"nə, "ürəklərini boşaltmaları"na imkan yaradırdı. Fəxrlə etiraf etməliyik ki, müasir dövrümüzdə dünyanın heç bir yerində Ulu Öndər Heydər Əliyev qədər jurnalistlərlə sıx təmasda, sərbəst və mehribanlıq şəraitində fəaliyyət göstərən ikinci bir dövlət başçısı yox idi! Bu, Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyündən, daim "aşkarlıq işığı"nda işləməyə adət etməsindən, mətbuata və azad sözə hörmətindən irəli gəlirdi!

Daha bir maraqlı məqam. Ümummilli Lider Heydər Əliyev jurnalistlərlə daimi və yaxın təmasda olmaqdan əlavə, dəfələrlə onları Prezident sarayında qəbul edərək bir neçə saat ərzində dinləmiş, mətbuatın problem və çətinliklərini araşdıraraq öyrənmiş, aradan qaldırılması üçün konkret və əməli tədbirlər görmüşdür. Hər iki görüşdən sonra Azərbaycan milli mətbuatında bir canlanma və irəliyə doğru sıçrayış nəzərə çarpmışdır. Ən nəhayət, milli mətbuatımızın inkişaf və problemlərinə belə yaxın diqqət və qayğının nəticəsi olaraq Ulu Öndər Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" adına layiq görülmüşdür. "Bizim ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir. Bilin, bu, mənim səmimi sözlərimdir. Sözlər deyil, bu, mənim siyasətimin bir hissəsidir". Heydər Əliyev ardıcıl və məqsədyönlü şəkildə gördüyü işlərlə verdiyi bu bəyanata daim sadiq qaldığını dəfələrlə sübut etmişdir.

Qeyri-adi zəka, böyük dünyagörüşü və zəngin təcrübə sahibi olan Ulu Öndər Heydər Əliyev görüş və söhbətləri zamanı jurnalistləri öyrətməyə, vətənə və xalqa sədaqətli xidmət yollarını da göstərməyə çalışırdı. Daim tövsiyə edirdi ki, hər bir qəzet, teleradio kanalı və ya informasiya agentliyi öz fəaliyyətində Azərbaycan xalqının və dövlətinin milli maraqlarını qorumalı, ona hörmətlə yanaşmalıdır! Bəs milli mənafe nədir və o, mətbuatda necə gözlənilməlidir? Milli mənafe anlayışını aydınlaşdırmaq üçün müstəqil Azərbaycanın ideoloji konsepsiyasına müraciət etmək gərəkdir. Başlıca cizgiləri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ideoloji konsepsiyanın üç mühüm prinsipi mövcuddur. Birincisi, dövlətçilikdir. Azərbaycanın müstəqil dövlətçiliyini qoruyub saxlamaq, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Milli vətənpərvərlik də dövlətçilik prinsipinin tərkib hissəsidir.

İkinci prinsip milli-mənəvi dəyərlərdir. Xalqın əsrlər boyu əldə etdiyi, qoruyub saxlayaraq bu günümüzə çatdırdığı milli-mənəvi dəyərlərə dilimiz, adət və ənənələrimiz, bütövlükdə milli mentalitetimiz daxildir.

Ən nəhayət, ümumbəşəri dəyərlərə hörmət hissi də Azərbaycanın milli mənafeyi ilə səsləşən məsələdir. Azərbaycanda hüquqi-demokratik, dünyəvi dövlət qurulur. Azərbaycan Avropa Şurasına, beynəlxalq müqavilə və konsepsiyalara qoşulub. İrqi, dini, milli ayrı-seçkiliyi qəbul etmir, müharibənin və zorakılıqların, insan haqlarının pozulmasının əleyhinə çıxır. Bütün bu üç prinsip və ondan irəli gələn vəzifələr ölkənin kütləvi informasiya vasitələrində nəzərə alınmalı, hər bir qələm sahibi tərəfindən gündəlik fəaliyyət normasına çevrilməlidir! Yalnız belə olan halda hər bir qələm sahibi vətənə və xalqa həqiqi xidmət göstərmiş olar!

Ulu Öndər Heydər Əliyev Azərbaycan mətbuatının azadlığının və müstəqilliyinin hüquqi-mənəvi təminatçısı olmaqla yanaşı, onun maddi-texniki bazasının möhkəmlənməsi qayğısına da qalırdı. Bununla bağlı təkcə 2001-ci ildə iki dəfə xüsusi fərman imzalamışdı. "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında" 20 iyul 2001-ci il tarixli Prezident fərmanında kütləvi informasiya vasitələri məhsullarının illik satışından redaksiyaların əldə etdikləri mənfəətdən ödədikləri vergidən azad edilmələri, habelə ölkəyə gətirilən qəzet kağızına tətbiq olunan gömrük idxal rüsumunun azaldılması barədə Nazirlər Kabinetinə müvafiq tapşırıq verilmiş və icra olunmuşdur. "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" 27 dekabr 2001-ci il tarixli fərmanda isə mətbuatın maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, məlumat və fikir azadlığı üçün daha geniş imkanlar yaradılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş, habelə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi müddətinin uzadılması və onlara dövlət tərəfindən kredit verilməsi məsələləri öz həllini tapmışdır. Sonralar bu borclar bağışlanıldı.

Azərbaycanda söz və mətbuat azadlığının hansı səviyyədə təmin olunduğunu və necə sürətlə inkişaf etdiyini müəyyənləşdirməkdən ötrü mövcud vəziyyəti sadəcə olaraq müstəqilliyin ilk dövrləri ilə müqayisə etmək yetərlidir. Mətbuatın daxilində müəyyən problemlər olsa da, dövlətlə kütləvi informasiya vasitələri arasında heç bir problem yoxdur! Çünki Azərbaycanın indiki iqtidarı bu sahənin inkişafına daim diqqət və qayğı göstərir, kömək əlini uzadır.

Ölkəmizdə söz və mətbuat azadlığının təminatçısı jurnalistlərin yaxın dostu və hamisi möhtərəm Heydər Əliyev idi! İndi tam əminliklə söyləmək olar: Bu ənənə böyük və əvəzedilməz dövlət xadimi İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə o deməkdir ki, milli mətbuatımız həmişə inkişaf edəcək, çiçəklənəcək, ədalətli və obyektiv bir mətbuat kimi daim milli və dövləti maraqları qoruyaraq xalqın hörmət və məhəbbətini qazanacaqdır!

Ümummilli Liderimiz Heydər Əliyevin istədiyi kimi…

**Bəxtiyar SADIQOV**




# Qəzet haqqında düşünərkən

## Yaxud odu söndürüb külünə qızınmaq istəyəndə...

**Türk xalqlarının qəhrəmanlıq dastanı olan "Koroğlu"nun sonuncu qolunu xatırlayırsınızmı? Odlu silahı (tüfəngi) görən Koroğlunun misri qılıncını "sənin zamanın qurtardı" deyib yerə qoymasını nəzərdə tuturuq.**

İndi ən azından Azərbaycanda qəzetlər vaxtı keçmiş həmin misri qılıncı xatırladır. Niyə ən azından Azərbaycanda - bu barədə... az sonra.

Ötən əsrin 90-cı illərinin ortaları idi. Müstəqil Azərbaycanda ilk dəfə KİV haqqında qanun hazırlanırdı. Milli Məclisin müvafiq komissiyasında layihə müzakirə olunarkən jurnalist kimi bizi də dəvət etmişdilər. Və təxminən 25 ildən sonra həmin müzakirələrdən şəxsən mənim yadımda qalan o olub ki, sən demə, bizdə, layihəyə əsasən, KİV təsis etmək üçün nəinki müvafiq ali, ümumiyyətlə, təhsilə ehtiyac yox imiş. Bəli, bəli, təəccüblənməyin, həmin qanunla Azərbaycanda sözün birbaşa və dolayısı mənasında yoldan ötən hər kəsə KİV təsis etmək hüququ verilirdi. Və bizim hər vəchlə etirazlarımıza baxmayaraq, verildi də.

Adam belə bir vəziyyətə alışsa da, hər dəfə yada düşəndə dəhşətə gəlir. O illər kimlər doluşmadı bu şərəfli və məsuliyyətli peşəyə?! Hətta o dərəcədə ki, həmin dövr cibində "Press" vəsiqəsi olmayan çox az adam tapılırdı. Hətta o həddə ki, qədim peşə sahibləri belə, kütləvi surətdə "müxbir" olmuşdular. Hətta o səviyyədə ki, əsl jurnalistlər "jurnalistəm" deməyə utanırdılar.

Həmin illərin "qəzet"lərinin təkcə adlarına nəzər salmaq yetərdi ki, səviyyələri məlum olsun. İndi onları sadalayıb ürək bulandırmaq istəmirik. Baxmayaraq ki, onlar şər-şəbədə ilə neçə-neçə adamın ürəyini bulandırır, nə isə qoparmaq üçün min oyundan çıxırdılar.

Bununla "zorən jurnalist"lər həm də mətbu sözü hörmətdən salır, qəzetin ictimai nəzarət və ictimai qınaq funksiyasını heçə endirirdi. Başqa sözlə desək, cəmiyyətin inkişafı üçün vacib sayılan şərtlərə ictimaiyyətin münasibətini pis yönə dəyişirdilər. Əleyhinə olunan bütün cəhd və etirazlarsa nəticəsiz qalırdı. Azsaylı və abrına qısılmış peşəkar jurnalistlər çoxsaylı və təşkilatlanmış "həmkar"larının qarşısında təsirli nə edə bilərdilər ki?!

O illərdən xeyli zaman ötüb. Dövr, tələb və imkanlar da dəyişib, həmin, yumşaq desək, boşluğun aradan qaldırıldığı KİV haqqında qanun da. Hətta yeni qanunun adına da əl gəzdirilib, indi "Media haqqında" adlanır. Dəyişməyən nə isə varsa, o da qeyri-peşəkar "jurnalist"lərin yenə ölkə KİV-ində meydan sulamalarıdır. Düzdür, indi onlar "qəzet redaktorları" deyillər. Əvəzində hərəsinin bir neçə saytı, internet TV-si var. Hətta aralarında özlərini "media holding" sahibləri adlandıranlar da tapılır, baxmayaraq ki, nə ol(may)an təhsillərinin, nə də savad və qabiliyyətlərinin jurnalistikaya dəxli var. Olan yalnız xərclərini qarşılayan sponsorlarıdır ki, onların da məqsədləri dairəsində xalqın və dövlətin maraqlarını qoruyan informasiya siyasətindən savayı nə desən mövcuddur.




Amma bu gün ölkənin internet kütləvi informasiya vasitələrində vəziyyəti acınacaqlı edən təkcə həmin resursların müəyyən qisminin qeyri-peşəkarların əllərində olması deyil. Əlavə problem bundadır ki, belələrinin jurnalist kimi tərəfsiz olmamaları bir yana, əqidə cəhətdən etibarsız və sürüşkən mövqe nümayiş etdirmələri cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Belə halda isə onların ictimai rəyə nəinki təsiri olur, hətta fəaliyyətləri əks effekt verir ki, bu da indiki gərgin ideoloji mübarizə zamanında təhlükəli tendensiyadır. Çünki əqidə bir yana, ictimai marağı şəxsi mənafeyə qurban verib tez-tez səngər dəyişənlərə stavka etmək "rus ruletkası" qədər risklidir. Ən yeni tariximiz dəfələrlə sübut edib ki, "ingilis bayrağı"na bənzəyən beləlrəri ilə kəşfiyyata demirik, balıq tutmağa da getmək olmaz. Lakin nə olsun? Gedirlər də, lap o yana keçirlər də.

O yan demişkən. Görürsünüz o yandakı sosial şəbəkə üzərindən "media" yaradanlar nə gündədir? İndi onların söyüş və təhqir dolu ağızlarını yummaq üçün qanuni yollar və üsullar axtarılır. Halbuki jurnalistikanın qapıları qeyri-peşəkar və təsadüfi adamların üzünə vaxtında bağlansaydı, bunu söz və mətbuat azadlığının boğulması kimi qələmə verənlərin cavabı arqumentlər və qətiyyətlə verilsəydi, indi belə axtarışa da ehtiyac qalmazdı. Axı o yana jurnalistikada indinin özünəcən medianın yanından keçməyə layiq olmayan kəslərin meydan suladığı bu yandan köçüblər. Bu yanda görsəydilər ki, media peşəkarlıq tələb edən sahədir, onlarlıq deyil, o yanda klaviatura, mikrofon və ya kamera arxasına keçməyə cəsarət etməzdilər.

Sözsüz ki, bu, problemin, necə deyərlər, texniki tərəfidir. Mənəvi tərəfi, təbii ki, başqadır. Və bu, ilk növbədə tərbiyə məsələsidir. Amma tərbiyəni formalaşdıran amilləri də unutmaq olmaz. O amillərdən biri isə gözün gördüyü, yəni KİV-in qapılarının hər "sort" adamlar üçün indiyəcən açıq qalmasıdır və heç kim də inkar edə bilməz ki, KİV-də "açıq qapı" siyasətinin ziyanları bu gün "populyar" olan xəbər saytlarında daha aydın görünür. Vaxtaşırı bu barədə çox yazıldığı, üstəlik, yazılanların heç bir təsiri olmadığı, əksinə, birinin üzərinə beşinin qoyulduğu üçün həmin ziyanları təkrar sadalamaq fikrindən uzağıq. Bununla belə, adını xəbər portalı qoyub hər cür oyundan çıxan saytlardakı mövcud reallığa göz yumulmasını da istəməzdik. Axı savadsız əməkdaşlarının səviyyəsiz yazıları, çayxana xəbərləri, bir-birilərini demək olar bütünlüklə təkrar etmələri bu zaman hətta "mənbə"nin kobud səhvlərini tirajlamaları və s. bir yana, adamları şantaj edib pul qoparmaq kimi cinayətlə məşğul olmalarına necə göz yummaq mümkündür?! Xüsusən də bu zaman söhbət KİV-in və jurnalistin nüfuzundan gedirsə...

Söz ki, nüfuzdan düşdü, deməli, KİV-in "ağsaqqal"ı hesab edilən qəzet məsələsinə qayıtmağın məqamıdır.

Birbaşa və açıq etiraf edək: dövlətin bütün yardım və dəstəyinə baxmayaraq, bu gün Azərbaycanda qəzetlərin vəziyyətinin yaxşı olduğunu demək reallığa göz yummaq təsiri bağışlayardı. Bunu başqa cür necə izah edək ki, ölkənin əsas rəsmi mətbu orqanı sayılan "Azərbaycan" qəzetinin tirajı cəmi 5 min civarındadır. Və bu, hazırda ölkə üzrə... ən yüksək tirajdır. İndi təsəvvür edin ki, başqa qəzetlər nə gündədir. Halbuki, məsələn, Belarusda "Azərbaycan"la eyni statusda olan "S.B.Belorus seqodnya" qəzeti 190 min, paytaxt Minskin mətbu nəşri "Veçerniy Minsk" isə 100 min tirajla çıxır. Belarusu misal gətirməyimizin səbəbi ölkələrimizin əhalisinin təxminən eyni olması və bir sistemdən çıxmasıdır. Üstəlik, digər keçmiş sovet respublikalarında, məsələn, Rusiyada, Qazaxıstanda, Özbəkistanda da qəzetlərə münasibətdə vəziyyət Belarusdan pis deyil ki, yaxşıdır!

Elə isə Azərbaycanda nə baş verib ki, qəzetə maraq bu dərəcədə azalıb?

Dövlət dəstəyi zəifdir? Bunu heç kim iddia edə bilməz. Bəlkə də dünyanın heç bir ölkəsində KİV-ə, o cümlədən qəzetlərə Azərbaycandakı qədər dövlət tərəfindən təmənnasız dəstək verilmir. Təkcə MEDİA İnkişaf Agentliyini xatırlatmaq yetər ki, ölkəmizdə dövlət-KİV münasibətlərinin səviyyəsi məlum olsun.

Xalqın qəzet oxumaq vərdişinin zəifləməsi? Bu suala birmənalı cavab vermək çətindir. Lakin həmin səbəbi də qəzetlərin indiki durumunun əsas "günahkar"ı hesab etmirik. Pisdənyaxşıdan, azdan-çoxdan oxuyan xalqımız hələ əlifbanı unutmayıb.

Həyatımızın bütün sahələrinə daxil olan internetin təsiri? Sözsüz ki, operativ və pulsuz informasiya almaq imkanı 40 qəpik ödəyib qəzet oxumaq istəyini üstələdiyindən bu arqumentin üstündən xətt çəkə bilmərik. Amma fikirləşəndə ki, Azərbaycanı müqayisə etdiyimiz ölkələrdə də internet var, onda bu səbəbi də qəzetlərin əsas "qənim"i saymaq olmaz.

Bəlkə qəzetlərin maraqsız olmaları, səhifələrində oxumağa nə isə tapılmaması? Bu səbəb ilk baxışdan həqiqət təsiri bağışlasa da, onu bütün oxucu kateqoriyalarına aid etmək düzgün deyil. Bəli, kim xəbərin doğru, ya yalan, ictimai əhəmiyyətli, yaxud yalan sensasiya, maarifləndirici və ya ziyanlı olmasının fərqinə varmırsa, qoy adlarını səhvsiz yaza bilməyənlərin təsis etdikləri saytları izləsin. Amma bu ölkədə hamı belə deyil axı... Elitar oxucu şayiələr və ara söhbətləri əsasında yazılanları qəbul etmir, ona doğru informasiya, ağıllı təhlil, obyektiv şərh lazımdır ki, onları da bu gün səviyyəsiz saytlardan yox, səviyyəli qəzetlərdən oxumaq mümkündür. Bir də indi bu cür qəzetlərin özlərinin də saytları var. Amma onların digərlərindən fərqi etibarlı mənbə imiclərini qorumalarıdır. Elə buna görə də bu saytlarda nə haradasa maşının ağac kötüyünə dəyməsi, nə ər-arvad davası, nə də hansısa toy müğənnisinin makiyajı və ya avtomobilinin markası haqqında xəbərə rast gəlmək mümkündür. Bu kimi "fakt"lardan xəbər düzəldib "layk" qazanmaq bizim işimiz deyil.

Bəs onda bizdə "Günəş haradan çıxır" ki, qəzetlərə maraq ən azı tiraj cəhətdən bu qədər azalıb?

Yenə qayıdırıq yazımızın, həm də təkcə yazımızın yox, müstəqillik illərində KİV tariximizin əvvəlinə. Bəli, məhz həmin vaxt KİV-in qapılarını heç bir peşədə olmadığı qədər istənilən (və təsadüfi) adamın üzünə açmağa qərar veriləndə gərək bunun söz və mətbuat azadlığının təminatı yox, söz və mətbuatı hörmətsiz, nüfuzsuz edəcəyi nəzərə alınardı. Nəzərə alınardı ki, indiki kimi jurnalistikada peşəkarlıq problemi yaşanmasın. Çünki qeyri-peşəkarlıq elə bir zərərli "ağac"dır ki, "meyvə"sini hər deyəndə yığıb qurtarmaq olmur. Əks halda Azərbaycanda bu gün nəşr edilən bütün qəzetlərin üst-üstə tirajı Belarusdakı çox demirik, bir qəzetin tirajına çatardı. Hələ qonşu ölkələrdəki qəzetlərin maddi-texniki imkanlarını demirik. Rusiyanın rəsmi mətbu orqanı olan "Rosiyskaya qazeta"nın 15 xarici ölkədə müxbir məntəqəsi var. Türkiyənin "Sabah", "Milliyet", "Hürriyyət" qəzetləri isə dünyanın 50 nüfuzlu nəşrləri sırasındadır.

Biz demirik Azərbaycan qəzetləri dünyanın nüfuzlu çap KİV sırasında olmalıdır, baxmayaraq ki, bunu arzulamaq haqqımızdır. Deyirik ki, yazdıqlarımız heç olmazsa, ölkə əhalisinin 5-10 faizinə də olsa çatsın. Axı qəzet hər cür lazımsız və yalan xəbər tirajlayan sayt, dedi-qodu yayan sosial şəbəkə deyil. Qəzetin sözü tarixən sanbalı, çəkisi, obyektivliyi, ictimai rəyə təsiri ilə seçilib. Təsadüfi deyil ki, aparıcı ölkələrdə indiyəcən gündəmi qəzet manşetləri müəyyən edir, siyasi liderlər sözlərini qəzet səhifələrində deyirlər, biznes adamları səhərlər qəzet səhifələrini vərəqləyəndən sonra işə başlayırlar. Yoxsa dünyanın nəhəng şirkətləri milyonlar hesabına nüfuzlu qəzetlərin səhmlərini almazdılar.

Bütün bunlar o deməkdir ki, sivil ölkələrdə kino teatrların, televiziya kinonun yerini verə bilmədiyi kimi, internet və elektron KİV də yazılı nəşrləri əvəz etməyi bacarmayıb. Və tam əminik ki, əvvəl-axır Azərbaycanda da belə olacaq və 148 yaşlı mətbu sözümüz haqq etdiyi hörməti və şöhrətini qaytaracaq. Təbii ki, bu gün az-çox qəzetlərdə qalan peşəkarların sayəsində.

"Koroğlu" dastanından xatırlatdığımız epizoda gəldikdə isə, onu deyək ki, həmin vaxtdan bəri dünyada nə qədər dəhşətli odlu silahlar yaradılsa da, qəhrəmanlıq rəmzi qılınc olaraq qalır.

*Raqif MƏMMƏDLİ,*
*"Azərbaycan"*

# Jurnalist taleyi başqalarına bənzəmir

Üçüncü kursda oxuyanda Tovuzun "Həqiqət" qəzetində təcrübə keçirdim. Qəzetin çox sərt və ötkəm, həm də özü və sözü bütöv redaktoru Musa Musayev bir gün mənə dedi ki, səndən jurnalist olmayacaq.

Çox təəccübləndim, hətta dəhşətli dərəcədə heyrətə gəldim: "Necə yəni olmayacaq? Mən bu peşə üçün həyatımın neçə ilini kitablarla yatıb-durmuşam ki, Jurnalistika fakültəsinə daxil ola bilim". Ürəyimdən keçənləri dilimə gətirdim: "Yox, Musa müəllim, mən mütləq jurnalist olacam". Redaktorun cavabı da qəribə oldu və illərdir yaddaşımdan qopmur: "Bəlkə də sən jurnalist ola bildin, amma yazılarından və imzandan başqa bu dünyada heç nəyin olmayacaq".

Musa müəllimin bu öncəgörməkliyini sonralar taleyimdə yaşadım. Amma jurnalist ola bilməyəcəyim haqda verdiyi "proqnoz" təsdiqini tapmadı. Mən bu gün jurnalistəm və jurnalistikaya məbəd kimi baxıram, səcdəgah kimi önündə diz çökürəm. 40 illik fəaliyyətimdə jurnalistikanın xoş aurasını taleyimin şansı hesab edirəm.




Biz jurnalistikanın sözün bütün mənalarında məktəbini oxumuşuq. Beş il müəllimlərimizdən dərs almışıq. Janrları öyrənmiş, xəbər, məqalə və zarisovka yazmağın, reportaj hazırlamağın, sual verməyin təcrübəsini keçmişik. Müsahibə götürəcəyimiz həmsöhbətimizi çözmək və "sökmək" üçün Jurnalistika fakültəsində düz on semestr imtahan vermişik.

Sonuncu kursda "Azərbaycan jurnalistləri "Böyük vətən müharibəsi illərində" adlı diplom işi yazdım. Mövzunu yazarkən 1941-1945-ci illərdə birbaşa cəbhə xəttində, döyüş bölgələrində çıxmış qəzetlərin tozunu uddum, günlərlə arxivdə həmin qəzetləri vərəqlədim, jurnalistlərin fəaliyyətini araşdırdım. Və nə qədər pafoslu səslənsə də, elə o günlər 35-40 il əvvəlin qəzetlərinin tozu, saralmış kağız rəngi məni jurnalistikaya daha bərk bağladı, bu peşəni daha çox sevdirdi.

Və beləcə, jurnalistikaya illərimizi verdik, həyatımızı bağladıq. Jurnalistika bizim tale yolumuzda işıq oldu, dünyadan küsəndə, həyatdan bezəndə əlimizdən tutdu. Biz peşəkar jurnalist olaraq seçdiyimiz sahənin fəhləsi, sözün qulu, mətbuatın nökəriyik. Və bu statusumuzdan dolayı hər zaman qürur duyuruq. Biz jurnalistikaya xəyanət etmirik. Heç vaxt ondan üz döndərmək barədə fikirləşmirik. Vaxt oldu ki, o, əlinin arxası ilə bizi geri çevirmək istədi, amma biz onun cazibəsindən çıxa bilmədik. Hər gün, hər an içində olduğumuz ahənrübanın nəfəsini alırıq. Bu nəfəs bizim həyatımız, taleyimizdir, ondan qaça bilmərik.

Çünki jurnalist ömrü, jurnalist taleyi başqalarına bənzəmir. Tam fərqli bir taledir, fərqli bir yaşamdır bu ömür. Bu ömürdə yaşananları başqa peşə sahibləri yaşamır. Jurnalistin həyatı çalxantılarla, fırtınalarla doludur. Onun gündəlik iş rejimi də fərqlidir. Əsl jurnalistin ürəyi həmişə sızlayır. Əsl jurnalistin beyni daim fikirləşdiyi üçün ağrıyır. Lakin bu sızıltılar, bu ağrılar bizi incitmir, çünki bu taleyi özümüz seçmişik və jurnalistikaya gəlməyimizdən, həyatımızı bu çətin və şərəfli, həm də müqəddəs peşəyə həsr etməyimizdən qətiyyən peşman deyilik.

İllər öncə Musa müəllim əslində bütün jurnalistlərə xitabən dediyi bir fikirdə haqlı idi. Bu gün bizim gerçəkdən imzamızdan və sözümüzdən başqa heç nəyimiz yoxdur. Həmişə belə düşündük və indi də o fikirdəyik ki, jurnalistika məhz budur - mənəvi zənginlik fonunda sözün və imzanın şərəfini qoruyub saxlamaq.

Bu gün Milli Mətbuat Günüdür. Ömrünü jurnalistikaya həsr etmiş, bu peşənin ağrı-acılarını könüllü qəbul edərək ona təslim olmuş həmkarlarımızı təbrik edirik.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Gənclər Kitabxanasında Milli Mətbuat Günü ilə əlaqədar silsilə materiallar hazırlanıb

Hər il iyulun 22-si ölkəmizdə Milli Mətbuat Günü kimi qeyd olunur. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərib.

Hazırda respublikada çox sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, onlayn xəbər portalları fəaliyyət göstərir.

Respublika Gənclər Kitabxanasında bu əlamətdar gün münasibətilə silsilə materiallar - videomaterial, biblioqrafik siyahı, virtual və ənənəvi sərgi hazırlanıb.

AZƏRTAC xəbər verir ki, kitabxana əməkdaşları tərəfindən hazırlanan videoçarxda Azərbaycanda mətbuatın təməlini qoyan "Əkinçi" qəzetinin yaranma dönəmi, tarixi, inkişafı haqqında geniş məlumat verilir və qəzetinin nüsxələrinin görüntüləri təqdim edilir. Materialda 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin qərarı ilə Azərbaycan mətbuatının üzərindən dövlət senzurasının ləğv edilməsi ilə ölkəmizdə söz və mətbuat azadlığının əsasının qoyulmasından, bu islahatların mətbuatın inkişafına ciddi təkan verməsindən, müasir dövrdə informasiya texnologiyalarının inkişafının Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirməsindən bəhs edilir. Videomaterialda Azərbaycanda müasir jurnalistikanın özəllikləri haqqında da bəhs edilir, bu sahədə qəbul edilən sərəncam və fərmanlar haqqında məlumat verilir.

Virtual kitab sərgisində Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və bir sıra görkəmli dövlət xadimlərinin mətbuat, söz azadlığı mövzusunda söylədikləri dəyərli fikirlər yer alır. Burada Həsən bəy Zərdabinin həyat və yaradıcılığı, "Əkinçi" qəzetinin yaranma tarixi, qəzetin ərsəyə gəlməsində əməyi keçən dahi Azərbaycan simaları haqqında məlumat təqdim olunur. Həmçinin "Heydər Əliyev və mətbuat", "Azərbaycan mətbuat tarixi", "H.Zərdabinin etnoqrafik görüşləri", "Azərbaycan diasporu və milli mətbuat" kimi 20-dən çox kitabın biblioqrafik təsviri verilir.

Biblioqrafik siyahıda Azərbaycan mətbuatının tarixindən, inkişaf mərhələlərindən bəhs edən 60-dan çox kitabın, 40-dan çox dövri mətbuat materialı əks olunur.

Milli Mətbuat Günü ilə əlaqədar hazırlanan materiallar kitabxananın rəsmi saytında https://ryl.az/virtual/multimediya

https://ryl.az/virtual/virtual-kitab-sergileri yerləşdirilib.




# Jurnalistlərin müəllimi



Jurnalistikamızın xoşbəxt çağları idi. O zamanlar ki, bu ixtisası seçmək arzusunda olanların göz dikdikləri yeganə tədris ocağına - Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə yalnız jurnalist olmaq istəyənlər daxil olurdular. Hansı tələbədən soruşsan, bu peşəyə sonsuz sevgisindən söz açırdı.

Amma yaxşı jurnalist ola bildilərmi, bacardılarmı? Bu, başqa söhbətin mövzusudur. Çünki qələmlə "danışmaq" məharəti yalnız peşəkarlıq yox, həm də istedad tələb edir. Ancaq fikrimcə, o tələbələrin hamısı jurnalistikanı dərin rəğbətlə, tükənməz məhəbbətlə sevdilər. Mətbuatımızın tarixini, jurnalist peşəsinin sirlərini, dəyərlərini öyrədənlərə - müəllimlərimizə, ilk növbədə, buna görə minnətdarıq.

Onu - Azərbaycan jurnalistlərinin böyük ustadlarından olan Şirməmməd Hüseynovu tələbə ikən tanıdıq. Nüfuzedici baxışları, səlis danışığı ilə tələbələrinə ilk anlardan təsir edə bilən müəllimlərdən idi. Dərin biliyi, maraqlı mühazirələri ilə auditoriyaya səssizlik gətirir, gələcəyin jurnalistləri heyranlıqla ona diqqət kəsilir, onu dinləyirdilər. Şirməmməd müəllimin bizə söylədiklərinin çoxunu heç bir qəzetdən, kitabdan oxumaq imkanımız yox idi.

XX əsrdə əlifbamız dəfələrlə dəyişdirilmişdi. Ötən əsrlərdə, eləcə də XX yüzilliyin əvvəllərində nəşr olunan kitabları, mətbu orqanlarda dərc olunmuş yazıları oxumaqda çətinlik yaranmışdı. Yalnız ayrı-ayrı alimlər, mətbuat tədqiqatçıları o yazıların "dilini bilirdilər". Ancaq tariximizin bir sıra səhifələrindən xəbərsiz qalmağımızın yeganə səbəbi bu deyildi. Uzun illər Azərbaycanda hakimiyyətini qoruyub saxlayan sovet hökuməti, demək olar ki, məqsədinə çatmışdı. Xalqının başını ucaltmış, Vətəninə azadlıq, müstəqillik bəxş etmək üçün mübarizələr aparmış, mücadilələr etmiş, bir çoxu bu yolda fəda olmuş böyük şəxsiyyətlərin, ictimai-siyasi xadimlərin, qələm adamlarının fəaliyyətlərini ya az, ya da təhrif olunmuş şəkildə bilirdik, bəzilərinə isə tamamilə nabələd idik.

Şirməmməd Hüseynov tariximizdən bu günümüzə körpü salmağı özünə mənəvi borc bilən tədqiqatçılarımızdan biri idi. Klassik irsə böyük təəssübkeşliklə yanaşan alimi nə ad-san, nə var-dövlət, nə vəzifə, nə titul, nə də mükafat düşündürürdü. Mətbu irsimizə tükənməz məhəbbətini, yorulmaq bilmədən apardığı tədqiqatların nəticələrini isə yalnız elmi və publisistik məqalələrində, kitablarında ifadə etmirdi. Şirməmməd Hüseynovun ən böyük tribunası Bakı Dövlət Universitetinin auditoriyaları idi.

Onun 1954-ci ildən başlayan pedaqoji fəaliyyətinin böyük hissəsi sovet hakimiyyəti dövrünə təsadüf etmişdi. Şirməmməd müəllim üstüörtülü mənbələrdən tariximizin sovet ideologiyasının tələblərinə uyğun olaraq xalqımıza ya yanlış çatdırılmış, təhrif olunmuş, ya da "unudulmuş" faktlarını araşdırırdı. Müəllimimiz bizə unutdurulmağa çalışılmış tariximizi tanıdırdı.

Vaxtının xeyli hissəsini arxivlərdə keçirirdi. Saralmış, toz basmış, ərəb qrafikası ilə yazılmış arxiv materiallarından oxuyub araşdırdıqlarından həvəslə, şövqlə danışırdı. Azərbaycan mətbuatının inkişafında misilsiz rol oynamış publisistlərin, redaktorların, naşirlərin qəhrəmanlığa bərabər olan əməyini, böyük hünərini, cəfakeşliyini ondan öyrənirdik. Tez-tez söylədiyi bir sualı ilə isə Şirməmməd müəllim tələbələrini gah sınağa çəkir, gah fikirlərinə şərik edirdi: "Bildin nə deyirəm?"

Tələbələrinə yalnız tədris etdiyi fənni öyrətmirdi. O, olduqca məlumatlı idi. Sovet hökumətinin tarixin qaranlıqlarında saxladığı, aydınlığa çıxarılmasına imkan vermədiyi çox həqiqəti Şirməmməd Hüseynovdan eşidirdik. Millət sevdalı neçə-neçə ziyalımızın Azərbaycanın azadlığı, müstəqilliyi, soydaşlarının maariflənməsi, öz hüquqlarını anlayıb tələb etmələri naminə gördükləri qəhrəmanlığa bərabər əməllərini o, heyran-heyran danışırdı. Biz tələbələr isə onu sevə-sevə dinləyirdik. Hər sözünə yekun vururmuş kimi, sınayıcı nəzərlərlə gözlərimizə baxır, yenə də o məşhur sualını verirdi: "Bildin nə deyirəm?"

Şirməmməd Hüseynov tələbələrinə böyük azərbaycanlılardan danışırdı. Bildirirdi ki, bizim tariximizi - "Gülüstani-İrəm"i Abbasqulu ağa Bakıxanov yazmışdı. Mirzə Fətəli Axundzadə dramaturgiyamızı yaratmışdı, ədəbi intibahın, tənqidi təfəkkür tərzinin əsasını qoymuşdu. Həsən bəy Zərdabi isə mətbuatımızı yaratmışdı. Sonra yeni ziyalı nəsli yetişmişdi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli gəlmişdi. Eyni zamanda Azərbaycan sahibkarları formalaşırdı. Bu sahibkarlar - Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev, Aşurbəyovlar həmin ziyalılara maddi dəstək verirdilər. Bunların müstəqil dövlət yaratmaq üçün hazırlıqlar olduğunu söyləyirdi Şirməmməd müəllim.

Yaxşı ki, Azərbaycanın yenidən azad olduğu günləri görmək Şirməmməd Hüseynova nəsib oldu. Müstəqillik illərində o, araşdırmalarını davam etdirdi. Arxiv materiallarından neçə-neçə Azərbaycan sevdalısının yaratdığı əsərləri gün işığına çıxardı. Şirməmməd Hüseynov böyük zəhməti sayəsində tariximizlə bu günümüzə körpü saldı.

Tədqiqatçı kimi öz üzərinə həmişə işlərin ağırını, çətinini götürürdü. Şirməmməd müəllim uzun illər yorulmaq bilmədən araşdırmalar apardı və tədqiqatlarının nəticələrini, topladığı məlumatları məqalələrindən, kitablarından qabaq tələbələrinə verdi.

Tələbələrinə münasibətdə obyektiv biliklərinə qiymət verməkdə güzəştsiz idi. Ona tələbə "tapşırmağ"ın mümkünsüz olduğunu hamı bilirdi. Bütün bu tələbkarlıqlarına, güzəştsizliyinə, yeri gələndə, sərtliyinə rəğmən Jurnalistika fakültəsində təhsil alanların əksəriyyəti Şirməmməd Hüseynovun dərs keçmələrini arzulayır, onun tələbəsi olmaqdan qürur duyurdular.

O, Jurnalistika fakültəsinin hər bir tələbəsinə düzgünlüyü, ədaləti, prinsipiallığı, dəyərlərə sadiqliyi, gördüyü işlərə sonsuz inamı, zəhmətsevərliyi, əzmkarlığı, gözütoxluğu, müdrikliyi, ləyaqəti, mülayimliyi, eyni zamanda tələbkarlığı aşılayırdı. Elə buna görə də nümunə idi Şirməmməd müəllim. Elmi və publisistik əsərləri, tələbələrinə örnək həyatı, müdrik söhbətləri və ... şəkililərə məxsus yumoru, hazırcavablığı ilə tayı-bərabəri yoxdu.

Heyrət duyulacaq qədər işinə bağlı, işgüzar idi. "Azərbaycan legionerləri" (2003), "Milli haqq və ədalət axtarışında" (2004), "Mənəvi irsimiz və gerçəklik" (2004,), "Publisistik miras və müasirlik" (2007), "Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr" (2009), "Üzeyir Hacıbəyli. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri" (iki cilddə 2009-2010), "Məhəmməd Əmin Rəsulzadə. Əsərləri" (Beş cilddə. 2014), "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə. 2012, 2015, 2016, 2017)... Şirməmməd Hüseynov bu kitablarının hər birini öz vəsaiti ilə çap etdirdi. O, Prezident təqaüdünü bu nəşrlərə xərcləyirdi.

Ən böyük arzularından biri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini görmək idi. Dövlət başçısı İlham Əliyevin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamına ən çox sevinənlərdən biri oldu. Bu əlamətdar dövrün araşdırılmasında, tarixi hadisələrin olduğu kimi yazılaraq xalqa çatdırılmasında təqdirəlayiq işlər gördü. Şirməmməd Hüseynov həmin dövrün fəal tədqiqatçılarından biri kimi mətbuatda müntəzəm olaraq maraqlı yazılarla çıxış etdi, bir sıra mühüm sənədləri və qəzet məqalələrini arxivlərdən çıxararaq geniş ictimaiyyətə çatdırdı. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı olmuş "Azərbaycan" qəzetinin 100 illik yubileyinə Şirməmməd Hüseynovun töhfələri isə "Azərbaycan" qəzetində parlament hesabatları və şərhləri" adlı üçcildlik kitabı oldu.

Şirməmməd müəllim vaxtının dəyərini çox yaxşı bilirdi. Çalışırdı daha çox işlər görsün ki, Azərbaycan mətbuatı tarixini dərindən öyrənə bilək.

Ömürdən umacağı vardı. Ona yüz yaş arzulayanlarına yarızarafat, yarıərklə inciklİyini bildirirdi. Amma bu istəyinin özündə də təmənnasız idi Şirməmməd Hüseynov. Doxsanını adlayan ömrünün ən gözəl illərini xalqının tarixini, mətbuatını araşdırmağa, ona layiqli ziyalılar yetişdirməyə sərf etmişdi. Amma hələ tamamlamadığı işləri çox idi.

Şirməmməd Hüseynov pedaqoji fəaliyyəti dövründə yetişdirdiyi tələbələrinin, ondan dərs almasalar belə əsərlərindən, araşdırmalarından oxuyub, müsahibələrini dinləyib dəyərli məlumatlar öyrənənlərin istinad yeri idi.

"Şirməmməd müəllim mənə dərs deyib". Bu sözləri Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində oxuyanların əksəriyyəti fəxrlə, qürurla, öyünərək söyləyirlər. Tələbə ikən bilmədiklərimizi öyrənirdik müəllimimizdən. Və universiteti bitirdikdən sonra illərlə jurnalist olaraq çalışsaq da, yaşımızın üstünə yaş gəlsə də, Şirməmməd müəllimə vermək istədiyimiz suallar sona yetmədi...

Böyük həyat yolu keçən Şirməmməd Hüseynovun ömrü 95-ci ilinə yetmədi. O, 2019-cu il iyunun 24-də dünyasını dəyişdi. Şirməmməd müəllimlə vida mərasimi ömrünün 65 ilini həsr etdiyi Bakı Dövlət Universitetində keçirildi. O gün hüzn dolu simalarda əziz müəllimə, dəyərli alimə sevgi, minnətdarlıq əksini tapdı. Bu hisslər Şirməmməd Hüseynovu tanıyanları heç zaman tərk edib getməyəcək. Şirməmməd müəllim tədqiqatları, kitabları, klassiklərin yazılarını ərəb qrafikalı Azərbaycan əlifbasından müasir latın qrafikalı əlifbaya transliterasiyaları, saysız-hesabsız məqalələri, monoqrafiyaları ilə yenə dadımıza çatacaq. Suallarımızın cavablarını özünə ünvanlaya bilməsək də, zəngin irsindən alacağıq. Sanki yazdıqlarından baxacaq bizə. Və yenə Şirməmməd müəllim o məşhur sualı ilə bizi imtahan edəcək: "Bildin nə deyirəm?"...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İmzası ilə yaddaşlarda qalan jurnalist

22 İyul Milli Mətbuat Günü bütün xoş cəhətləri, peşə bayramının sevinci ilə birgə eyni zamanda ömrünü milli mətbuatımıza həsr etmiş həmkarlarımızı xatırlamaq imkanıdır. Bu yazı da onlardan birinə - görkəmli publisist, nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar jurnalist Svetlana Nəcəfovaya həsr edilib.

Böyük maarifçimiz Həsən bəy Zərdabi 1875-ci ildə "Əkinçi" qəzetinin təməlini qoyarkən bu qəzetin müəllifləri sırasında xanımların imzasının görünməsi az qala ağlasığmaz idi. Jurnalistika fəaliyyəti ciddi bilik və hazırlıq tələb edən sahədir. Bütün bunları adama yüksək təhsil qazandırır. Təxminən bir əsr yarım əvvəlsə Azərbaycanda xalqın ilk milli qəzetində yazılarla çıxış edəcək qədər yüksək təhsilə malik xanım, demək olar ki, yox idi.

Tədqiqatçılar bu fikri, bəlkə də, mübahisə ilə qarşılaya, XIX əsrin ikinci yarısında yaşamış kifayət qədər yetkin biliklərə malik qadınlarla bağlı müəyyən faktlar belə ortaya qoyarlar. Amma bu da bir faktdır ki, Həsən bəy Zərdabinin özünün təhsilli bir Azərbaycan xanımı ilə ailə qurmaq istəyi, bu istəklə apardığı axtarışlar heç bir nəticə verməmişdi. Tale onun ömür yolunu Nalçikdə dünyaya gəlmiş Hənifə xanım Abayeva ilə birləşdirmişdi. Milli mətbuatımızın ilk müjdəçisi olan "Əkinçi"nin ərsəyə gəlməsində Hənifə xanımın da böyük zəhməti olmuşdu.

Zaman keçdikcə, milli mətbuatımız inkişaf etdikcə qəzet səhifələrində, radio dalğalarında, televiziyanın mavi ekranında qadın jurnalistlərimizin adı, imzası da görünməyə, eşidilməyə başladı. Hətta xanım oxucular üçün ayrıca mətbuat orqanları ərsəyə gəldi.

Azərbaycan mətbuatının 148 illik inkişaf yolunda qadınlarımızın çox böyük əməyi var və Svetlana Nəcəfova da onlardan biridir.

## Ömür yolu və tale seçimi

Svetlana Hacı qızı Nəcəfova 8 iyul 1938-ci ildə qədim Azərbaycan şəhəri - İrəvanda dünyaya gəlmişdi. Burada orta məktəbi bitirdikdən sonra 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində təhsil almışdı. Əmək fəaliyyətinə 1961-ci ildə uzun illər məktəblilərin sevimli mətbu orqanı olan "Pioner" jurnalında texniki redaktor kimi başlamış, 1964-cü ilə qədər bu vəzifədə çalışmışdı. 1964-1973-cü illərdə Svetlana Nəcəfova jurnalda artıq şöbə müdiri kimi fəaliyyət göstərmişdi. 1973-1977-ci illərdə fəaliyyətini "Azərbaycan qadını" jurnalı redaksiyasında şöbə redaktoru kimi davam etdirmiş, 1977-1992-ci illərdə baş redaktorun müavini vəzifələrində çalışmışdı. 1996-2003-cü illərdə "Respublika" qəzeti redaksiyasında Humanitar problemlər şöbəsinin müdiri işləmişdi. 2003-2008-ci illərdə televiziya fəaliyyəti ilə də məşğul olmuşdu.

Öz dövründə Svetlana Nəcəfovanın yaradıcılığı təkcə respublika mətbuatı ilə məhdudlaşmır, ümumittifaq qəzet və jurnallarında da onun yazıları dərc olunurdu.



Jurnalistika ilə yanaşı, Svetlana Nəcəfova ictimai fəaliyyətdə də kifayət qədər aktiv idi. O, Universal Sülh Federasiyası və Ümumdünya Sülh Naminə Beynəlxalq Federasiyanın sülhməramlı səfiri seçilmişdi. Bu təşkilatların işində fəal iştirak edirdi. Svetlana xanım Azərbaycan Qadınlar Assosiasiyası Rəyasət Heyətinin üzvü idi. Türk Qadınlarının İstanbulda keçirilən I Qurultayında iştirak etmişdi. Eyni zamanda Azərbaycan Jurnalistlər Birliyinin katibi kimi daha bir ictimai vəzifəni yerinə yetirirdi.

Zəmanəsinin tanınmış Azərbaycan qadını kimi Svetlana Nəcəfovanın adı bir çox ensiklopediyalara, bioqrafik məlumat kitablarına daxil edilmişdi.

## Zamanın ruhunu yaşadan kitablar

O, ədəbi yaradıcılığa ötən əsrin 60-cı illərindən başlamışdı. Bir-birindən maraqlı publisistik məqalələri, oçerkləri, hekayələri ilə oxucuların böyük sevgisini qazanmışdı. Svetlana Nəcəfovanın həmin illərdə qələmə aldığı yazıların mühüm bir qismi onun kitablarında da öz əksini tapmışdı. Müəllifin 1966-cı ildə işıq üzü görmüş "Qırmızı qalstuklar klubu", 1984-cü ildə çapdan çıxmış "Ömrə sevinc gətirənlər", 1988-ci ildə nəşr olunmuş "Hər ömür nəğmədir" və "Biz beynəlmiləlçilərik", 1990-cı ildə ərsəyə gəlmiş "Onun taleyi" kitabları bir tərəfdən Svetlana xanımın zəngin yaradıcılığını dəyərləndirmək, digər tərəfdən də o dövrün ruhunu duymaq üçün çox zəngin mənbələrdir. Svetlana xanım 2002-ci ildə işıq üzü görmüş "Azərbaycanın qeyri-hökumət qadın təşkilatları" kitabının da müəllifidir.

Jurnalistika Svetlana Nəcəfova üçün çox böyük bir sevgi idi. Ömrün erkən çağlarından bu sevginin cazibəsinə düşmüş və yaşının ixtiyar vədələrinə qədər sənətə olan eşqini qorumuşdu. O, sənətinin incəliklərini, məsuliyyətini dərindən bilən peşəkar jurnalist idi. Xüsusilə ixtisaslaşmış mətbuatda - uşaq və qadın jurnallarında çalışması peşəkarlığını daha da spesifik edirdi.

O, daim öz üzərində çalışır, peşəkarlığı barədə tərəddüdləri ilə qələmini getdikcə püxtələşdirirdi. Keçmiş ittifaqın ən çoxtirajlı qəzeti olan və Rusiyada indi də bu statusunu qoruyan "Komsomolskaya pravda" qəzetində bir dəfə kiçik hekayəsi çap olundu. Bu nailiyyət onu daha da ruhlandırdı. Svetlana Nəcəfovanın imzası Ümummilli Lider Heydər Əliyevin də diqqətini cəlb etmişdi, bu imzanı şəxsən tanımış və dəyər vermişdi.

Svetlana Nəcəfova ömrünün sonuna az qalmış verdiyi müsahibələrinin birində belə deyirdi: "1960-cı ildə universiteti bitirdim. Birinci iş yerim "Pioner" jurnalı olub. Jurnalın baş redaktoru Zeynal Cabbarzadə çox gözəl insan idi. Sonra "Azərbaycan pioneri" qəzetində çalışmağa başladım. Ömrümün 13 ilini uşaq mətbuatına vermişəm. "Azərbaycan qadını" jurnalının şöbə müdiri vəzifəsində işləmişəm. "Respublika" qəzetində çalışmışam. Ümumiyyətlə, jurnalistikaya gələndə çox narahat idim. Bu elə peşədir ki, gərək özünü hər gün sübut edəsən. Yoxsa 100 diplomun olsun, yaza bilmirsənsə, bir işə yaramayacaq. Məsələn, həkim diplom aldısa, demək fəaliyyətə hazırdır. Amma jurnalistin hadisələrə yanaşma bacarığı yoxdursa, ona heç nə kömək etməyəcək".

Jurnalistika fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün onun öz meyarları vardı. Svetlana xanım hesab edirdi ki, bu sənətdə bilik, istedad, sənətə bağlılıq əsas keyfiyyətlərdir. O, jurnalistin hər janrda yaza bilməsini, aktual məsələləri müzakirəyə çıxarmasını, ən əsası isə yazdığı sözün məsuliyyətini dərk etməsini və sözünün arxasında dura bilməsini zəruri sayırdı. Çünki özü də belə idi, yazdığı mövzu ətrafında ətraflı araşdırmalar aparmadan, faktları tam dəqiqləşdirmədən heç zaman materialı oxucunun öhdəsinə buraxmırdı.

## Unudulmaz müsahibə

Jurnalistika ünsiyyətdir, müxtəlif sahələrdən olan şəxslərlə həmsöhbət olmaq, onların ömrünün hansısa maraqlı epizodlarını yazılarla sənədləşdirməkdir. Svetlana xanım da fəaliyyəti boyu çox insanlarla ünsiyyətdə olmuşdu. O, Azərbaycan elminin parlaq təmsilçilərindən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva ilə görüşünü, haqqında yazı hazırlamasını da jurnalistika fəaliyyətinin yaddaqalan anlarından biri kimi tez-tez xatırlayırdı: "1981-ci il idi. Azərbaycanın bir qrup aliminə "Əməkdar elm xadimi" adı vermişdilər. Baş redaktor müavini kimi çalışdığım "Azərbaycan qadını" jurnalının baş redaktoru Xalidə Hasilova müsahibəyə mənim gedəcəyimə qərar verdi. Zərifə xanımla üç dəfə görüşdük. Sadə davranışlı, mülayim görkəmli bu xanım ətrafında çox səmimi əhval yaratsa da, həyəcanımı gizlədə bilmirdim. Hətta qadın qayğılarından danışdıq, ailə vəziyyətimlə maraqlandı. Söhbətimiz olduqca səmimi şəkildə davam etsə də, qaydalara əsasən müsahibəni rəsmi formatda yazdım. Zərifə xanım çox sadə insan idi. Özü mənə zəng vurub təşəkkür etdi".

Svetlana xanım ömrün mənasını ondan gələcəyə qalan izdə, soraqda görürdü. Mənalı ömür o ömrü hesab edirdi ki, qum dənələri kimi barmaqlar arasından axıb getməsin, izsiz-soraqsız yoxa çıxmasın, əksinə, özü başa çatsa da, izi, sorağı aylarda, illərdə qalsın, xalqın tarixinə düşsün, yetişdirdiyi, tərbiyə etdiyi adamların taleyinə çevrilsin, onların həyatında yenidən yaşansın. "Əsl insan ömrü də, xoşbəxtlik də mənim üçün budur" - deyirdi Svetlana Nəcəfova və 82 yaşında başa çatacaq ömrünün hər gününü belə yaşamağa çalışırdı.

Bu il tanınmış jurnalist Svetlana Nəcəfovanın anadan olmasının 85 illiyidir. Onun ədəbi-publisistik fəaliyyəti daim öz yüksək qiymətini almışdı. Tanınmış jurnalist 1971-ci ildə "Əməkdə fərqlənməyə görə" medalına, 1974-cü ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına, "Qızıl Qələm", "Məhsəti Gəncəvi", "Sara Xatun", "Vətən", "Humay", "Dan ulduzu", "Araz" mükafatlarına layiq görülmüşdü. Ən böyük mükafatı isə qazandığı oxucu sevgisi, mətbuat səhifələrində həmişə maraqla axtarılan imzası idi. 2021-ci ilin 16 mayında dünyasını dəyişsə də, bu sevgi, bu imza onun adını əbədi yaşadır və yaşadacaq.



***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Milli Mətbuatı-148

# Həsən bəy Zərdabi və milli mətbuatımız

**H.B.Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında sıx birləşdirərək öz vəzifəsini şərəf və ləyaqətlə həyata keçirmişdir.**



Görkəmli hüquqşünas və ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov haqlı olaraq Həsən bəyi Azərbaycanın "mayak"ı, "məşəl"i adlandırırdı.

H.B.Zərdabi müəyyən haqsızlıqlarla da üzləşmişdi. O deyirdi ki, öləndə vəsiyyət edəcəyəm ki, haqqımda yazılan təhqiramiz ifadələrin bəzilərini başdaşıma yazsınlar. Gələcək nəsillər görsün ki, mən onlar üçün bir abidə yaratdım, qəzet çıxartdım, əvəzində isə millətimin nümayəndələri məni təhqir edibdilər.

Azərbaycan mətbuatının banisi H.B.Zərdabinin yaratdığı qəzet yalnız Azərbaycanda deyil, bütün Şərqdə şərəfli və uğurlu başlanğıcdır. Bu qəzet yalnız əkin-biçin mədəniyyətini deyil, çağdaş düşüncə, müasir təbligat və təşviqat mədəniyyətinin başlanğıcıdır. Cəmi 2 il dərc olunan bu qəzet fikirlərdə, düşüncələrdə inqilab etdi. XX yüzilliyin əvvələrində onun övladları "Füyuzat", "Molla Nəsrəddin", "Zənbur", "Şəlalə", "Açıq söz", "Azərbaycan" oldu.

Azərbaycan mətbuatının özünəməxsus inkişaf yolu vardır. Keçən əsrin əvvəllərindən başlayaraq Azərbaycan ziyalıları, xalqımızın qabaqcıl oğulları milli mətbuat yaratmaq uğrunda uzun illər boyu gərgin mübarizə aparmalı oldular. XIX əsrin ikinci yarısında belə bir qəzet yaranmış və xalqımızın mədəni həyatında mühüm bir hadisəyə çevrilmişdir. O, Azərbaycan əməkçilərinin mənafeyini fədakarlıqla müdafiə edərək azadlıq ideyalarını yaymışdır. "Əkinçi" qəzetinə qədər Azərbaycanda müxtəlif məsləkli, müxtəlif istiqamətli qəzet və jurnallar, kitab və kitabçalar, vərəqələr çap olunmuşdur. "Əkinçi" qəzetinin nəşri Azərbaycan xalqının mədəniyyəti tarixində əlamətdar hadisələrdəndir. Bu qəzet ictimai fikir tarixində olduğu kimi, realist ədəbiyyatın, xüsusilə poeziyanın təbliğ olunmasında və aydınlaşdırılmasında dövrü üçün böyük rol oynamışdır.

Öz vətəninə, öz xalqına təmənnasız xidməti ilə Azərbaycan xalqının yaddaşında ədəbi iz qoymuş Həsən bəy Zərdabinin həyatı, əməlləri gələcək nəsillər üçün əsl tərbiyə və həyat məktəbi olmuşdur.

O, xalqın zülmət içərisində olduğu bu dövrlərdə onlara doğru yol göstərən, həqiqi inkişaf yoluna çağıran müdrik şəxsiyyət idi. O, alim, filosof, xeyriyyəçiliyin bünövrəsini qoyan, ən əsası isə milli mətbuatımızın banisi idi.

H.B.Zərdabi qədim Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhərində) maarifpərvər bir ailədə dünyaya göz açmışdı. Körpə yaşlarından atası Səlim bəy tərəfindən ona təlim-tərbiyə, elə, obaya, vətənə sevgi duyğuları aşılanmışdı. Həsən bəy öz bacarığı və fitri istedadı ilə yaşıdlarından xeyli fərqlənirdi. Atası Səlim bəy bu istedadı görüb onu Şamaxıda yenicə açılmış məktəbə gətirmişdir. O, bu məktəbdə təhsil aldığı zaman rus dilinə xüsusi maraq göstərir və rus dilinin qrammatikasını öyrənməklə dərin elmi biliklərə yiyələnir. 1858-ci ildə bu məktəbi əla qiymətlərlə başa vurduğu üçün onu dövlət hesabına I Tiflis gimnaziyasına göndərməli olurlar. Orada müvəffəqiyyətlə imtahan verərək 5-ci sinfə daxil olur. 1860-cı ildə oranı əla qiymətlərlə bitirərək imtahansız Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsinin Təbiətşünaslıq şöbəsinə qəbul olunur. 1865-ci ildə Moskva Universitetini əla qiymətlərlə bitirdiyinə və nümunəvi tələbə olduğuna görə elmi şuranın qərarı ilə ona təbiət elmləri namizədi - alimlik dərəcəsi verilir. Burada belə bir mühitdə onun gözləri açılır, qabaqcıl fikirli adamlarla dostluq edir. Hətta universiteti əla qiymətlərlə bitirdiyi üçün onu kafedrada saxlamaq təklif olunur. Lakin Həsən bəy Zərdabi doğma yurduna, elinə, obasına - Azərbaycana gəlir. "Mənim xalqım bu saat qəflət yuxusundadır, cəhalət girdabında boğulur, mənim kimi adam bunu görüb onlardan ayrı qala bilməz".

Bir müddət Qubada barışıq məhkəməsinin katibi vəzifəsində çalışır, burada da o, haqsızlıqlarla üzləşir. Sonra Şamaxıda şəxsi vəkilliklə məşğul olur. 1869-cu ildə Bakı real gimnaziyasında təbiət tarixi fənnini tədris etməyə başlayır. 1872-ci ildən Azərbaycanda ilk "Xeyriyyə cəmiyyəti"nin əsasını qoyur. 1873-cü ildə gimnaziyada M.F.Axundovun "Hacı Qara" komediyasının tamaşasını təşkil edir. Həsən bəy Zərdabi məhz bu tamaşa ilə Azərbaycan Milli Teatrının əsasını qoyur.

Bu dövrdə Həsən bəy ana dilində qəzet nəşr etməyin vacibliyini dərk edir və bu ideyanı həyata keçirməyə çalışır. Xeyli əzab-əziyyətdən sonra arzusuna çatır. 1875-ci il iyun ayının 22-də Bakıda ilk anadilli "Əkinçi" qəzeti işıq üzü görür. İlk demokratik mətbuatımızın yaranma tarixi bununla başlayır. Qəzetin bütün işlərini təkbaşına özü aparırdı. Ancaq H.B.Zərdabi bu qəzeti nəşr etməklə xalq arasında elmi, mədəniyyəti inkişaf etdirib yaymaq, xalqı maarifləndirmək, millətin hərtərəfli inkişafına nail olmaq istəyirdi.

Bu zamanlar Zərdabinin ictimai-siyasi fəaliyyətindən razı qalmayan Bakı qubernatoru onu hər zaman izləyirdi. 1877-ci ilin sentyabr ayında "Əkinçi" qezetinin 56 nömrəsi işıq üzü gördükdən sonra bağlandı. Müxtəlif bəhanələrlə H.B.Zərdabi gimnaziyada müəllimlikdən də azad edildi və hətta Bakıda qalmasını məsləhət bilmədilər. O da öz doğma yurdu Zərdaba köçməyə məcbur oldu. Bir müddət Zərdabda yaşasa da, Rusiyada nəşr olunan mətbuat orqanları ilə əlaqə saxlayır, həm də qəzetlərdə öz yazıları ilə çıxışlar edirdi. 1896-cı ildə H.Z.Tağıyev ən populyar qəzeti olan "Kaspi"ni mətbəəsi ilə birlikdə alır, sonra qələm adamlarının hamısını Bakıya dəvət edir. Həsən bəy Zərdabi də bu çağırışa qoşulur. Hətta bir müddətdən sonra qəzetdə redaktor müavini işləyir.

Azərbaycan mədəniyyəti tarixində ədəbi-bədii əsərlərin milli mətbuat səhifələrində ilk dəfə nəşri "Əkinçi" qəzeti ilə başlanır. Qəzetin ədəbi əhəmiyyəti ondan ibarətdir ki, keçən əsrin ikinci yarısında dramaturgiya və nəsrə nisbətən geridə qalan şeiri həyatla əlaqələndirmək işinə, satirik və realist üslubda bir sıra poeziya nümunələrinin yaranmasına kömək edir.

Rus inqilabçı demokrat və qabaqcıl alimlərinin, habelə Azərbaycan maarifçilərinin fikirlərini dərindən öyrənən H.B.Zərdabi "Əkinçi"ni nəşrə başlayarkən məhz bu mənəvi sərvətə istinad edir, ondan ilham alırdı.

Qəzetin ədəbi xəttini müəyyənləşdirən M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, N.B.Vəzirov, Ə.Gorani kimi realist sənətkarların ədəbi, publisist və tənqidi əsərləri idi. Bu illərdə "Əkinçi" Azərbaycan realist ədəbiyyatının ənənələrini davam və inkişaf etdirən yeganə milli mətbuat orqanı idi.

"Əkinçi" Azərbaycan ədəbiyyatı və incəsənətinin saflığı uğrunda mübarizəni üç xətt üzərində aparırdı: Ədəbiyyat və incəsənətdəki formalizm təmayüllərinə qarşı çıxır; Dini-mərsiyə ədəbiyyatı əleyhinə mübarizə edir; İctimai satiranı genişləndirmək uğrunda fəal mübarizə aparırdı.

"Əkinçi" sağlam satira uğrunda yorulmadan mübarizə aparırdı. Bu qəzet məhz mütərəqqi mahiyyətdə olan həcvləri inkişaf etdirib siyasi satiraya çatdırır, vulqar həcv güruhu isə mürtəce metod kimi ədəbiyyat cəbhəsindən uzaqlaşdırmağa çalışırdı.

H.B.Zərdabi el mahnıları üstündə oxunan şeirləri toplayıb 1902-ci ildə "Türk nəğmələri məcmuəsi" adı ilə çap etdirir. Bu ilk nəğmə kitabçasına 18 nəğmə daxil edilmişdi. Bu nəğmələrin bəzisi müəllifsiz idi. Həmin imzasız şeirlərdən bir qisminin H.B.Zərdabi tərəfindən qələmə alındığı güman edilir.

H.B.Zərdabinin "Köçəri zindəganlığı" hekayəsi öz dövrü üçün çox mühüm və aktual mövzuya həsr edilmişdi. Bu mövzu ilə yazıçının maarifpərvərlik və tərəqqipərvərlik ideyaları arasında yaxın bir bağlılıq və daxili səsləşmə vardı.

O zaman Moskvada təhsil alan Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani fərəhlənərək qəzetə bir-birinin ardınca maraqlı məqalələr göndərirdilər. Tiflisdən M.F.Axundov "Vəkili - milləti-naməlum" imzası ilə məqalələr göndərirdi. Şamaxıdan S.Ə.Şirvani camaatı qəflət yuxusundan oyatmağa çağıran şeirləri ilə qəzetin oxucularını sevindirirdi. Əhsənül - Qəvaidin Rəşt şəhərindən səsi eşidilirdi. Dərbənddən isə Heydəri yazmağa başladı. Onlar qəzetə yeni üslub, yeni forma gətirdilər. Bütün bu müəlliflərin fəaliyyətinə istiqamət verən, onların məktublarını redaktə edib qəzet üçün hazırlayan, şübhəsiz ki, H.B.Zərdabi özü idi.

H.B.Zərdabi qəzetə ana dilini öyrədən bir məktəb kimi baxırdı, eyni zamanda yazırdı ki, "qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir". O, təcrübədə sübut edirdi ki, Azərbaycan mətbuatı öz milli zəmini üzərində inkişaf etməyə qadirdir. Qəzet xalqın həyatında inkişafa doğru təkanverici amil ola bilər.

H.B.Zərdabinin həyat yoldaşı Hənifə xanımın xatirələrində bu cəhət belə səciyyələndirilir: "Bir dəfə fransız qəzetinin baş müxbiri Bakıya gəlib çıxmışdı. O, Rusiyada Azərbaycan dilində çıxan yeganə qəzetlə maraqlanıb yanıma gəlmişdi. Qəzetin 3 il müddətində ancaq 300 abunəçisi olduğunu bilincə müxbir təəccüblə H.B.Zərdabiyə baxıb səmimi sürətdə dedi: "Siz qəhrəmansız, bizim Fransada bu cür yoxsul qəzetlər üçün işləyən adam tapılmaz, sizin enerjinizə heyran qalmışam. Görünür, siz öz xalqınızı çox sevirsiniz".

"Əkinçi" zamanın tələbləri səviyyəsində dayanaraq öz səhifələrində azadlıq, maarifçilik ideyaları təbliğ edir, həyatı daim dəyişməkdə, irəli getməkdə görür, xalqı yeniliyə səsləyib "Zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olginən. Pis olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olunsun" deyirdi.

H.B.Zərdabi cəmiyyətdə bir inkişaf, bir tərəqqi olduğunu dərk edərək bu fikirləri zəruri məqsəd kimi nəzərə çatdırırdı. Onun ədəbiyyat və sənət məsələlərində milli mədəniyyətimizin xəzinəsinə dəyərli hədiyyə olan ideya irsi bu gün belə öz təravətini itirməmişdir.

Böyük iftixar hissi ilə qeyd edə bilərik ki, bu böyük maarif carçısının arzu və ideyaları Ulu Öndərimiz Heydər Əliyevin "Azərbaycanda demokratik mətbuatın yaradılmasının 125 illiyi münasibətilə" adlı 27 mart 2000-ci il tarixli fərmanı ilə təntənəli surətdə qeyd olundu. Milli mədəniyyətimizin xəzinəsinə dəyərli hədiyyə olan H.Zərdabinin ideya irsi bu gün də öz təravətini itirməmişdir. Yarandığı 148 il ərzində Azərbaycan mətbuatı keşməkeşli, zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Nizami adına Ədəbiyyat İnstitutunun Mətnşünaslıq şöbəsi tərəfindən dövri mətbuatımızın ilk qaranquşu, XIX əsr Azərbaycan ictimai-siyasi həyatının aynası olan və cəmi 56 sayı çıxmış "Əkinçi" qəzetinin tam mətni Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi" haqqında 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunub kütləvi tirajla ölkə kitabxanalarına hədiyyə edilmişdir.

***Adil ABDULLAYEV,***
***"Gənclik" nəşriyyatının direktoru,***
***Əməkdar mədəniyyət işçisi***

# Zəfər mətbuatı

Artıq üçüncü ildir ki, ölkəmizin həyatında əhəmiyyətli rol oynayan hər bir tarixi günü, bayramları tamamilə başqa ovqatda - tarixi zəfərimizin yaratdığı reallıqların uğurla həyata keçirilməsi və beynəlxalq aləmə qəbul etdirilməsi fonunda yüksək əhvali-ruhiyyə ilə qeyd edirik.

Bu reallıqların istər ölkə, istərsə də beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırılmasında əsas missiyanı Azərbaycan mətbuatının yerinə yetirdiyini nəzərə alsaq, 22 İyul - Milli Mətbuat Gününün özəlliyini daha dərindən dərk edərik. Keçilən yolun ölkəmizin bu sahədə hansı yeniliklərə imza atdığını təhlil etməklə belə bir fikri böyük inamla qeyd edə bilərik ki, ölkəmiz demokratik dəyərlərə sadiqdir və bunu sözdə deyil, əməldə təsdiqləyir. Digər tərəfdən, xalqımız üçün 2023-cü ilin özəlliyi ondan ibarətdir ki, bu il dövlət başçısı İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilib. "Heydər Əliyev İli"ndə Azərbaycan mətbuatının keçdiyi 148 illik yolu təhlil etmək bir media nümayəndəsi kimi mənim üçün böyük şərəf və məsuliyyətdir. Əsası 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyulan milli mətbuatımız bu gün dövrün, zamanın tələblərinə, tarixi zəfərimizin yaratdığı reallıqlara uyğun olaraq daha da təkmilləşir, yeniləşir, həqiqət çarçısı kimi müstəqil mətbuat üzərinə düşən missiyanı uğurla yerinə yetirir.

Müstəqil mətbuatımızın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı digər sahələr kimi, müstəqil mətbuatımızın inkişaf tarixində də yeni mərhələnin əsası oldu. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illəri bütün sahələrdə uğursuzluqlarla xarakterizə edilir. Bu uğursuzluqlar cəmiyyətin güzgüsü olan mətbuatdan da yan keçmədi. Belə ki, mətbuat azadlığı hər addımda boğulur, jurnalistlər təzyiqlərə məruz qalırdılar.

Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin həyatında yeni bir mərhələnin əsasını qoydu. Azərbaycan yenidən quruldu. Sabitliyi hər bir inkişafın əsası kimi dəyərləndirən Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi, maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, Azərbaycanın həyatının güzgüsü olan mətbuatın inkişafında da öz müsbət təsirini aydın şəkildə nümayiş etdirdi. Bunun üçün Ümummilli Liderin azad mətbuatın inkişafı yönümündə atdığı addımların xronologiyasına nəzər salmaq kifayətdir. Digər mühüm məqam müstəqillik yolunda ilk addımlarını atan ölkənin varlığının beynəlxalq aləmdə özünü təsdiqləməsidir ki, dövlətin bu yönümdə atdığı addımların təbliğində mətbuatın üzərinə böyük məsuliyyət düşdü. Azərbaycançılıq ideologiyasının təbliği, milli-mənəvi dəyərlərimizin, milli irsimizin qorunması və inkişaf etdirilməsi əsas çağırışlar sırasında idi. Azərbaycan mətbuatı üzərinə düşdüyü vəzifəni dövlətin göstərdiyi diqqət və qayğının davamlılığı fonunda daha yüksək səviyyədə yerinə yetirməyə başladı. Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatımız təzyiqlərdən, buxovlardan xilas oldu.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə qəbul edilən Konstitusiyamızda söz, fikir, mətbuat azadlığı öz əksini tapdı. Ulu Öndər ilk gündən belə bir çağırış etdi ki, ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributlar - insan hüquqlarının qorunması, azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, demokratik, beynəlxalq standartlara uyğun seçkilərin keçirilməsi təmin edilməlidir.

Demokratik, hüquqi dövlət quruculuğunda azad mətbuatın rolunu yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyevin 6 avqust 1998-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman ilə ölkəmizdə mətbuat üzərində senzura ləğv edildi. Bu KİV-in sərbəst fəaliyyəti, inkişafı və azad sözün təmin edilməsi istiqamətində mühüm addım oldu. Məhz bu fərmanla mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən Baş İdarə ləğv edildi. 1999-cu ildə qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması proseduru asanlaşdırıldı. 2000-ci ildə Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu. Güzəştlər tətbiq edildi. Bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının dondurulması və sonradan bu borcların ləğv edilməsi mətbuatın iqtisadi müstəqilliyinin təmin edilməsinə, maliyyə bazasının möhkəmləndirilməsinə öz müsbət təsirini göstərdi.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci ildə Azərbaycan jurnalistləri arasında keçirilmiş sorğu nəticəsində "Jurnalistlərin dostu" seçilməsi demokratiyanın mühüm prinsiplərindən olan söz və məlumat azadlığının, medianın inkişafına diqqət və qayğısının məntiqi nəticəsi oldu.

2003-cü ildən başlanan böyük yolun davamı fonunda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilir. Yeniləşmə, təkmilləşmə dövlətimizin başçısının siyasətinin əsasını təşkil edir. Azərbaycan milli mətbuatının yaranmasının 130, 135, 140, 145 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması, bu münasibətlə media nümayəndələrinin təltif edilməsi, fəxri adların verilməsi, kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə dövlətin yüksək qiymətinin əyani təzahürüdür. Dövlət başçısı İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi mətbuatın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezident sərəncamları, media nümayəndələrinin mənzillə təmin edilməsi önəmli hadisələr sırasındadır. Cənab İlham Əliyevin 20 ilə yaxın Prezidentliyi dövründə 3 dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi bu sahədə gördüyü işlərin, bir-birindən önəmli addımların, qəbul etdiyi qərarların və irəli sürdüyü təşəbbüslərin ümumiləşdirilmiş ifadəsidir. "Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini "Jurnalistlərin dostu" adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur" söyləyən dövlət başçısı İlham Əliyev onu da əlavə etmişdir ki, bundan sonra da Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verməyə çalışacağam.

Təkcə tarixi zəfərimizdən ötən dövr ərzində azad mətbuatın inkişafı istiqamətində atılan addımların xronologiyasına diqqət yetirmək kifayətdir. Zəfərimizin yaratdığı yeni reallıqlar bütün sahələrdə, o cümlədən mətbuatda təkmilləşməyə, yeniləşməyə geniş imkanlar yaratdı. Qalib Azərbaycanın mətbuatının qarşısında da yeni vəzifələr dayanır. Dövlət başçısı İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı müəyyənləşdirilən yeni vəzifələri və onların icra mexanizmlərini açıqladı. Sənəddə də qeyd olunduğu kimi, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır. Ölkəmizdə medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə imzalanan bu fərman əsasında yaradılan Medianın İnkişafı Agentliyi (MEDİA) hədəflərin gerçəkləşməsində vacib icra mexanizmini ortaya qoymaqla, azad medianın inkişafını daha da sürətləndirir. Fəaliyyətə başladığı qısa dövrdə həyata keçirdiyi hər bir layihə media ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Bu mühüm məqamı xüsusi qeyd etməliyik ki, yeni dövrün tələbinə uyğun olaraq "Media haqqında" qanunun hazırlanması ilə bağlı MEDİA Agentliyinin beynəlxalq səviyyədə apardığı müzakirələr və yeni qanunun Milli Məclisdə qəbul olunması, ötən ilin fevralında Prezident İlham Əliyevin müvafiq fərmanı əsasında təsdiqlənərək qüvvəyə minməsi mətbuatın inkişafında təkmil hüquqi bazanın yaradılmasını təmin etdi. Bundan əlavə, jurnalistlərə sosial ipotekadan yararlanmaq imkanının yaradılması, qəzet kağızının ƏDV-dən azad edilməsi, media reyestrinin qaydalarının təsdiqi və sair kimi bir-birindən əhəmiyyətli addımlar dünya informasiya məkanına inteqrasiya siyasətini uğurla həyata keçirən Azərbaycanın media mühitinə gətirdiyi yeni yanaşmaların təqdimatıdır.

148 illik yola, daha dəqiq desək, milli mətbuatımızın 1993-cü ildən başlanan inkişaf yoluna qısa baxış belə bir ümumiləşdirməyə əsas verir ki, Azərbaycan söz və mətbuat azadlığının inkişaf səviyyəsinə görə MDB məkanında ən qabaqcıl yerlərdədir. Eyni zamanda bu gün Azərbaycanın adı internetin azad olduğu ölkələr sırasındadır.

"Heydər Əliyev İli" çərçivəsində milli mətbuatımızın keçdiyi inkişaf yolunu vərəqləyərkən bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dahi şəxsiyyətin ən böyük arzusu olan və hazırda tarixə qovuşan Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında da mətbuat missiyasını uğurla yerinə yetirdi və bu gün dost, qardaş Türkiyə ilə birgə yaradılan ortaq media platformasından bəhrələnərək postmünaqişə dövrünün reallıqlarının təbliği istiqamətində səylərini daha da artırır.

Göründüyü kimi, bütün hallarda Azərbaycanın inkişaf səviyyəsini göstərən azad mətbuatın inkişafı prioritetdir. Tarixi zəfərimizin reallıqları fonunda mətbuatın qarşısında dayanan vəzifələr yeniləşməklə yanaşı, hədəflər, arzular da dəyişib. Üç il bundan öncə Milli Mətbuat Günündə həmkarlarımıza əsas arzularımız sırasında qələbə müjdəçiləri olmaları xüsusi yer tuturdu. Media nümayəndələri 2020-ci ildə 44 günlük Vətən müharibəsində şanlı qələbəmizlə bu arzularını reallığa çevirdilər. Artıq üç ilə yaxındır yazılı və elektron KİV-də işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri və eyni zamanda Prezident İlham Əliyevin ötən il doğum günündə Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə tarixi ədalətə söykənərək səsləndirdiyi "Biz Qərbi Azərbaycana qayıdacağıq" çağırışına uyğun olaraq görülən işlər geniş işıqlandırılır.

Hər bir hədəf, arzu inkişafın davamlılığının təmin edilməsində əsas faktordur. Azərbaycanın hər bir uğuru reallıqlarının güzgüsü olan mətbuatı daha da təkmilləşməyə, yeniləşməyə çağırır.

***Elməddin QULİYEV,***
***"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin əməkdaşı***



Heydər Əliyev İli 2023

# Naxçıvandan başlayan dövlətçilik missiyası

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevlə bağlı olan tarixlərin hər biri bizim üçün həm mənəvi, həm dövlətçilik təfəkkürü, həm də milli ruh baxımından doğma və əzizdir.



Çünki Heydər Əliyev 54 il əvvəl başladığı missiyanın nəticəsi kimi öncə Azərbaycanın intibahının müəllifi, daha sonra isə müstəqil dövlətimizin qurucusu olub. Ulu Öndərlə bağlı olan tarix müasir dövlətçiliyimizin ayrı-ayrı mərhələlərini özündə ehtiva edib. Hansı ki, məhz həmin mərhələlərdə tariximizin qürur doğuran səhifələri yazılıb.

Bu mənada SSRİ rəhbərliyinin təzyiqlərinə mətinliklə sinə gərən, hətta vəzifədə olmadığı vaxtlarda belə öz millətinin haqq səsini dünyaya çatdıran Heydər Əliyevin 1990-cı il iyulun 22-də doğulub boya-başa çatdığı Naxçıvana qayıdışı da respublikamızda tamamilə yeni siyasi proseslərin başlanması ilə əlamətdar olmuşdur. Naxçıvana qayıdışı ilə həm də yenidən siyasət meydanına daxil olan Heydər Əliyev öz yeni missiyası ilə tariximizin hər zaman fəxarət hissi ilə bəhs etdiyimiz hadisələrinin müəllifinə çevrilmişdir.

Heydər Əliyevin Naxçıvana gəlişi muxtar respublikanın ictimai həyatında böyük hadisəyə çevrilmişdir. Muxtar respublika sakinləri Ulu Öndəri böyük sevgi və ehtiramla qarşılamışdılar. Təsadüfi deyil ki, həmin il parlament seçkilərində Heydər Əliyevin namizədliyi irəli sürülmüş və insanların inam və ehtiramlarının nəticəsi kimi Ulu Öndər Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilmişdi.

Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı o dövrdə respublikamızda cərəyan edən milli-azadlıq mücadiləsini tamamilə yeni mərhələyə yüksəltdi, ona yeni nəfəs verdi. Heydər Əliyevin cəsarətinin, ümumi işə verdiyi mühüm və tarixi töhfələrin nəticəsi kimi müstəqillik uğrunda mübarizədə daha qətiyyətli addımların atılması müşahidə olunmağa başladı.

Təsadüfi deyil ki, sovet dövləti ilə bağlı ifadələrdən, atributlardan ilk olaraq məhz Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvanda imtina edilmişdi. 1990-cı ilin noyabrında Ümummilli Liderin qətiyyəti ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması hələ mövcud olan SSRİ-yə açıq şəkildə meydan oxumaq idi. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa olunması və onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi də sıradan bir məsələ deyildi. Bununla bağlı Naxçıvan Ali Məclisinin qərarı Azərbaycanın müstəqil dövlətçiliyini bərpa etməsi istiqamətdə yerli səviyyədə də olsa, ilk rəsmi addım idi. Və bütün bu qərarların əsasında məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi və uzaqgörənliyi dayanırdı.

20 Yanvar faciəsinə ilk siyasi qiymətin Naxçıvan Ali Məclisi tərəfindən verilməsi də Heydər Əliyev qətiyyətinin təcəssümü idi. 1991-ci ilin fevralında SSRİ-nin gələcəyi ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi isə Heydər Əliyev cəsarətinin təntənəsi idi.

Bütün bunların nəticəsi kimi Naxçıvan həmin dövrdə müstəqillik uğrunda mübarizənin əsas siyasi mərkəzinə çevrilmişdi. Belə ki, Naxçıvanda qəbul edilən qərarlar yalnız bu bölgə ilə məhdudlaşmayaraq, müstəqillik mücadiləsinin bütün respublika miqyasında daha mütəşəkkil ümummilli prosesə çevrilməsinə səbəb olmuşdu. Heydər Əliyevin qətiyyəti ilə atılan addımlar milli-azadlıq mücadiləsinin iştirakçılarını daha da ruhlandırmış, onların sıralarını genişləndirmiş, günlərin birində müstəqilliyimizin bərpa ediləcəyinə olan inamı gücləndirmişdi.

Heydər Əliyevin Naxçıvana qayıdışının nəticəsi olaraq tariximizə həkk olan əsas hadisələrdən biri də Azərbaycanın bu qədim diyarının işğaldan qorunması, xilas edilməsidir. Təsadüfi deyil ki, Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilməsindən sonra verdiyi ilk qərarlardan biri Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsinin yaradılması idi. Ulu Öndər müdrik rəhbərliyi ilə blokada vəziyyətinə düşmüş Naxçıvanı erməni işğalından qorudu, düşmənin bütün işğal planlarının qarşısını sərkərdə qətiyyəti ilə aldı. Onu da qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandakı ordu quruculuğu vahid komandanlığa əsaslanmaqla, düzgün təməllər üzərində həyata keçirilmişdi. Ona görə də Naxçıvanın müdafiəsi etibarlı və möhkəm idi.

Naxçıvan düşmənlə həm də blokada şəraitində mübarizə aparırdı. Mərkəzi hakimiyyətin ögey münasibətinə baxmayaraq, Ulu Öndər özünün siyasi və diplomatik müdrikliyi ilə muxtar respublikanın sosial-iqtisadi çətinliyinin daha da kəskinləşməsinə imkan vermirdi. Belə ki, o illərdə Ulu Öndərin qonşu Türkiyə və İranla yaratdığı əlaqələr, Araz çayı üzərində "Ümid körpüsü"nün salınması blokada vəziyyətində olan muxtar respublikanın iqtisadi həyatında, xüsusən sosial çətinliklərin qarşısının alınmasında mühüm rol oynadı.

Rusiya qoşunlarının Naxçıvandan tam şəkildə çıxarılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin görkəmli dövlət xadimi kimi atdığı addımların nəticəsi olaraq Rusiyanın Naxçıvanda XIX əsrin əvvəllərindən başlamış hərbi iştirakına birdəfəlik son qoyuldu. Naxçıvanı tərk edən 75-ci motoatıcı diviziyanın silahlarının və hərbi texnikalarının Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsinə təhvil verilməsi Ulu Öndərin siyasi müdrikliyinin göstəricisi idi.

Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda dövlətçilik tariximizə həkk olunan ən mühüm siyasi hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. YAP-ın yaranması müstəqilliyimizin ilk illərində ölkədə yaranmış dərin böhran şəraitində, dövlətçiliyimizin taleyinin təhlükə altında qaldığı bir vaxtda xalqımızın Heydər Əliyevə olan böyük inamının təcəssümü idi.

Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə 1990-cı ilin ortalarından etibarən Naxçıvanda müasir dövlətçilik və müstəqillik tariximizin mühüm hadisələri yaşanıb. Ən əsası odur ki, Naxçıvanda baş verənlər yalnız bu bölgə ilə yekunlaşmayaraq ümumilikdə respublikamızda gedən proseslərə əsaslı təsir göstərib və onları düzgün istiqamətə yönləndirib. Bütün bunların məntiqi nəticəsi kimi 1993-cü ildən Azərbaycanda başlanan Heydər Əliyev siyasəti dövlətçiliyimizi bütün təhlükələrdən xilas edib. Beləliklə, 30 il əvvəl başlanan Heydər Əliyev siyasəti müstəqilliyimizin əbədi olmasını təmin edib.

Ötən 20 ilə yaxın müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir nailiyyət Heydər Əliyev yolunun davamının təntənəsinə çevrilib. Bu illər ərzində Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilib, döyüş yolu ilə, güclü ordusu ilə torpaqlarını işğaldan azad edib. Hər bir uğur isə getdiyimiz yolun düzgünlüyünün təcəssümü olmaqla yanaşı, belə bir həqiqəti ortaya qoyur ki, Heydər Əliyev siyasi kursu bu günümüzün və gələcəyimizin yeganə və alternativsiz təminatıdır.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# "Heydər Əliyev İli" çərçivəsində YAP Zəngilan rayon təşkilatında tədbir keçirilib

"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatında mili mətbuatın yaranmasının 148-ci ildönümü münasibətilə "Heydər Əliyev və müstəqil Azərbaycan mətbuatı" mövzusunda "dəyirmi masa" keçirilib.



Tədbirdə YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə, Zəngilan Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti icra edən Nizami Mönsümov, "Zəngilanın səsi" qəzetinin baş redaktoru Salam Cavadlı, "Azərbaycan" qəzetinin baş redaktorunun müavini - məsul katib Elçin Vəliyev, "Yeni Azərbaycan" qəzetinin müxbiri Arif Əsədov, "Respublika" qəzetinin müxbiri Mikayıl Quliyev, "ABC.az" saytının redaktoru Elmir Muradov və rayon fəalları iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə milli mətbuatın 148 illik yubileyi münasibətilə jurnalistləri təbrik edib. Bildirib ki, 148 il öncə 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyulub. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, mətbuat sahəsinin inkişafında, Azərbaycanda söz, fikir azadlığının təmin edilməsində jurnalistlərin yaxın dostu Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərinin olduğunu diqqətə çatdırıb. Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, müstəqil mətbuatın fəaliyyəti, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Müstəqillik dövründə Azərbaycan mətbuatı ilə bağlı ilk fərmanı da Ümummilli Lider Heydər Əliyev imzalayıb.

Hazırda ölkədə azad medianın fəaliyyətinə və inkişafına yönələn bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Kütləvi informasiya vasitələrinə birdəfəlik yardımların edilməsi, mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlar üçün yaşayış evlərinin tikilib istifadəyə verilməsi bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Tədbirdə vurğulanıb ki, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə böyük töhfəsini vermişdir. Xüsusilə Ermənistanın işğalçılıq siyasəti və onun acı nəticələrinin həm xalqımıza, həm də dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mətbuatın böyük rolu olub. 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti danılmazdır.

Tədbirdə çıxış edən jurnalistlər Azərbaycan mətbuatının keçdiyi tarixi inkişaf yolundan, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin mətbuata göstərdiyi diqqət və qayğıdan bəhs edərək öz minnətdarlıqlarını bildiriblər. Sonra mətbuat günü ilə bağlı videoçarx izlənilib.

Tədbirin sonunda mətbuat nümayəndələrinə YAP Zəngilan rayon təşkilatı ilə sıx əməkdaşlığa görə və peşə bayramları münasibətilə fəxri fərmanlar təqdim olunmuşdur.

# Naxçıvanın sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı ilə bağlı Nazirlər Kabinetində iclas keçirilib



İyulun 21-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi və İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə icraçı orqanların (qurumların) nümayəndələrinin iştirakı ilə geniş tərkibli iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli sərəncamının və verilmiş digər tapşırıqların icra vəziyyəti ilə bağlı məsələlər müzakirə olunub, tapşırıqların vaxtında və keyfiyyətli icrası üçün müvafiq göstərişlər verilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Sərəncamla Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət proqramının tədbirlər planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, 2023-2024-cü və 2025-2027-ci illər üzrə Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı layihələr hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin, habelə dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi və icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilsin.

Dövlət başçısının tapşırığının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli sərəncamı imzalanıb.

# İnflyasiya və qiymət monitorinqi üzrə İşçi qrupun ilk iclası olub



İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş, 6 ayın sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə verilmiş tapşırığa əsasən, Nazirlər Kabinetinin iyulun 15-də imzalanmış sərəncamı ilə İşçi qrupu yaradılıb. İşçi qrupunun üzərinə qoyulmuş vəzifələr ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsidir.

AZƏRTAC xəbər verir ki, iyulun 21-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə İşçi qrupun ilk iclası keçirilib.

İclasda istehlak səbətinə daxil olan məhsul və xidmət növü üzrə qiymətlərin, o cümlədən kənd təsərrüfatı və sənaye məhsullarının istehsalçı qiymət indekslərində dəyişmələrin daha dərindən araşdırılması, ticarət tərəfdaşlarında inflyasiya, eləcə də idxal inflyasiyası ilə bağlı olaraq idxal olunan məhsulların qiymət indeksləri və daxili bazarda qiymətlərə təsiri, inflyasiyanın artırıcı və azaldıcı faktorları və həyata keçirilən antiinflyasiya tədbirləri, habelə sağlam rəqabətin qorunması, daxili bazarda qiymətlərlə manipulyasiyaya yol verilməməsi və antiinhisar tədbirlərinin gücləndirilməsi məsələləri geniş müzakirə olunub.

İclasın yekununda müzakirə olunan məsələlər barədə aidiyyəti qurumlara konkret tapşırıqlar verilib.

# Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində seminar

Bu ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində Azərbaycan Ordusunun birlik və birləşmələrinin əməliyyat və döyüş hazırlığı şöbə (bölmə) rəislərinin baş köməkçiləri ilə Qoşun xidmətinin təşkili üzrə seminar keçirilib.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Seminarda müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin göstərişinə əsasən, aparılan yoxlamalar zamanı 2022-2023-cü illərin yay və qış tədris dövrlərində Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə qoşun xidmətinin vəziyyəti təhlil olunub. Həmçinin müdafiə nazirinin, Baş Qərargah rəisinin əmr və direktivlərinə əməl olunması və qoşun xidmətinin təşkili üzrə sənədlərin işlənib hazırlanması, daxili xidmət, qarnizon və qarovul xidmətinin, eləcə də hərbiləşdirilmiş mühafizə işinin təşkili və digər mövzular üzrə məruzələr dinlənilib, tövsiyələr verilib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyinin xidməti-döyüş fəaliyyətinin, qoşun xidməti və döyüş növbətçiliyinin təşkili ilə bağlı tapşırıqları seminar iştirakçılarının diqqətinə çatdırılıb.

# "Xəzri dalğası" taktiki təlimi davam edir

Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi zamanı döyüş əməliyyatlarının aparılması üzrə keçirilən "Xəzri dalğası" taktiki təlimi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin növbəti mərhələsində dəniz adalarının birində bazalanmış terror qruplaşmasının zərərsizləşdirilməsi və terror-diversiya hücumlarının qarşısının alınması üzrə döyüş fəaliyyətlərinin yerinə yetirilməsi tapşırıqları icra edilib.

Hərbi Dəniz Qüvvələri (HDQ), Quru Qoşunları (QQ), Hərbi Hava Qüvvələri (HHQ) və Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi ilə qarşılıqlı əlaqədə keçirilən təlimdə qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilir.

# Fransanın qərəzli müdaxilələri sülhə əngəl yaradır




Fransa Senatının sədri Jerar Larşe erməni həmkarı ilə görüşdən sonra Laçın yolunun təcili açılması ilə bağlı haqsız tələb irəli sürüb. Həmçinin "Ermənistanın təhlükəsizliyinin təminatı" məqsədilə Fransa tərəfindən müdafiə xarakterli silahların verilməsinin sürətləndirilməsi yönündə çağırış edib. Bu bir daha sübut edir ki, Fransa bölgədə süni gərginlik yaratmağa cəhd edir.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Qarabağda yaşayan ermənilərin məsələsi yalan üzərində siyasiləşdirilir

Milli Məclisin deputatı Azər Badamov deyib ki, Fransa Senatının sədri Jerar Larşe Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşdən sonra özünün tviter hesabındakı qərəzli paylaşımında Laçın dəhlizinin dərhal açılmasını, eləcə də Ermənistanın təhlükəsizliyinin təminatı üçün Fransa tərəfindən müdafiə silahlarının göndərilməsinin sürətləndirilməsini tələb edib: "Jerar Larşenin paylaşımı ermənilərin könlünü almaq xarakteri daşıyır. Bütün dünya yaxşı bilir ki, Laçın-Xankəndi yolunun bağlanması iddiaları yalandır. Beynəlxalq Ədalət Məhkəməsi də Ermənistanın bu əsassız iddiasını rədd edib. Təbii ki, iddia rədd edilərkən yolun cari vəziyyəti araşdırılıb və orda hər hansı bloklanmanın olmadığı, o cümlədən Laçın sərhəd nəzarət-keçid məntəqəsinin yaradılmasının beynəlxalq normalara görə Azərbaycanın suveren hüququ olduğu bildirilib".

Deputat qeyd edib ki, Laçın nəzarət-keçid məntəqəsinin yaradılması Qarabağa qanunsuz daşımaların qarşısının alınmasına və gələcəkdə təhlükəsizliyin təmin olunmasına xidmət edir: "Fransanın bu məsələlərə münasibəti əvvəldən bəllidir. Fransa Qarabağda yaşayan ermənilərin məsələsini əvvəllər də yalan üzərində siyasiləşdirərək beynəlxalq platformalara daşımağa və Azərbaycana qarşı qətnamələr qəbul etdirilməsinə çalışıb. Lakin bütün cəhdləri həmişə boşa çıxıb. Jeraрın paylaşımında qeyd olunan məqamlar da Fransanın ədalətsiz mövqeyindən irəli gəlir. Əgər Fransa ədalətli mövqedən çıxış etsəydi, Azərbaycanla Ermənistan arasında münasibətlər danışıqlar yolu ilə həll olunar və İkinci Qarabağ müharibəsi baş verməzdi".

Azər Badamov deyib ki, məhz Fransanın və digər ölkələrin işğalçı Ermənistanı dəstəkləməsi sayəsində Azərbaycan torpaqları 30 il işğal altında qalıb: "Sonda isə Azərbaycan BMT-nin qətnamələrini öz gücü ilə icra etməyə məcbur oldu. Fransa Senatının sədri yalnız riyakar erməniləri sevindirən mənasız bir paylaşım edib. Ermənistana müdafiə silahlarının göndərilməsi məsələsi hələ ki, sadəcə sözdə olan dəstəkdir. Ermənistana hətta silahlar da göndərilsə belə, onların müharibə edib uğur qazanmaları mümkün deyil".

Deputatın sözlərinə görə, bu gün Azərbaycan Ordusu dünyanın ən müasir silahları ilə silahlandırılır və peşəkarlığı durmadan artırılır: "Silahlı Qüvvələrimizə dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. Azərbaycan Ordusu Ermənistandan fərqli olaraq, ianələr və yardımlar hesabına formalaşmır. Ordumuz döyüş meydanında öz sözünü deyib və yenə də deməyə hazırdır. Ermənistan sadəcə olaraq bu proseslərə açıq gözlə baxıb reallığı dəyərləndirərək sülh müqaviləsinin imzalanmasına tələssə, əməkdaşlıq üçün onların üzünə yeni imkanlar açılar. Bu, xaricdən ianə toplamaqdan daha faydalı olar".

### Ermənistanın "böyük bacı"sı revanşistlərin maraqlarına xidmət edir

Milli Məclisin deputatı Arzu Nağıyev qeyd edib ki, Fransa rəhbərliyinin Ermənistan rəhbərliyi ilə hər görüşündən sonra qeyri-adekvat bəyanatlar gündəmə gəlir. Senatın rəhbərliyi Ermənistana mütləq şəkildə humanitar yardım və digər paketlərin təcili surətdə verilməsi ilə bağlı tələblər irəli sürür. Məlumdur ki, Ermənistan həm də Fransanın vassalıdır. Fransa müstəmləkəçilik siyasətini uğurla davam etdirməkdən ötrü Ermənistandan sui-istifadə edir. Bu, bütün dünyaya məlumdur".

Deputat bildirib ki, Fransanın bu cür riyakar davranışları Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinə mənfi təsir göstərir: "Ermənistanın sülh müqaviləsinin imzalanmasının ləngitməsinin əsas səbəbi Fransanın atdığı qərəzli addımlardır. Fransa Ermənistandakı revanşist qüvvələrin maraqlarını təmin edir ki, bu da təbii olaraq sülh müqaviləsinin imzalanmasını yubadır. Bu cür riyakar siyasət həm də Rusiyanın regiondan uzaqlaşdırılmasına xidmət edir".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Ermənistan sülhə mane olur

## Paşinyan səkkiz aydır əsassız iddialar səsləndirməklə əsl erməni xislətini nümayiş etdirir

**Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün əməli addımlar atsa da, 2020-ci il 10 noyabr Bəyanatından bəri Ermənistan bu istiqamətdə, həmçinin üzərinə götürdüyü öhdəliklərin icrası baxımından hər hansı bir iş görməyib.**

Əksinə, bu ölkənin rəsmi şəxslərinin daha çox sülhpozucu, yalan iddiaları aparılan danışıqlar prosesinə mane olur. Son zamanlar isə əsas hədəf obyektlərinə çevirdikləri Laçın yolunun guya blokadada olmasıdır. İyulun 20-də hökumətin iclasında çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyanın da Laçın yolu ilə bağlı səsləndirdiyi iddialar bunu bir daha təsdiqlədi.

Paşinyanın sərsəm açıqlamalarına Azərbaycan Xarici İşlər Nazirliyi dərhal reaksiya verərək həqiqəti bəyan etdi. Bildirildi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın 20 iyul tarixində hökumətin iclası zamanı çıxışında, Brüsseldə liderlər səviyyəsində keçirilmiş görüşə istinadən Laçın yolu ilə bağlı son 8 ay ərzində təkrarladıqları iddianı bir daha xüsusi vurğulaması Ermənistan tərəfinin bu məsələdən siyasi məqsədləri üçün istifadə etməklə yanaşı, son zamanlar irəliləməkdə olan sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini nümayiş etdirir.

XİN-nin məlumatında qeyd edilir ki, Vətən müharibəsindən sonra Laçın yolunda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyətin dayandırılmasına Azərbaycan tərəfindən çağırışlar edilməsinə baxmayaraq, bu fəaliyyətə məhəl qoyulmaması nəticəsində, Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycan qanunvericiliyi çərçivəsində Laçın sərhəd-buraxılış məntəqəsini yaradaraq son bir neçə ay ərzində həm yüklərin, həm də erməni sakinlərin şəffaf və tənzimlənən qayda əsasında keçidini təmin edib. Azərbaycan sülh prosesinin təşəbbüskarı kimi, bölgədə sülh, sabitlik və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır və danışıqlar prosesində fəal tərəfdir. Əgər Ermənistan tərəfi sülhdə maraqlıdırsa, sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir.

### Paşinyanın Laçın yolu ilə bağlı səsləndirdiyi fikirlər absurddur

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Paşinyan mahiyyət etibarilə sələflərindən heç nə ilə fərqlənmir. Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən sonra Köçəryan və Sarkisyandan daha sərt şəkildə Azərbaycanın ərazi bütövlüyünə qəsd etməyə başladı: "O, Şuşaya gedib orada rəqs edərək "Qarabağ Ermənistandır" dedi. Digər çoxsaylı qəbulolunmaz fikirlər Paşinyanın hər çıxışında var. Unutmamalıyıq ki, Paşinyan 2019-cu ildə hakimiyyətin eyforiyası altında Azərbaycanın yeni ərazilərini işğal etmək istəyirdi. Onun təyin etdiyi müdafiə naziri Tatoyan o vaxt ABŞ-yə səfərə gedib yeni ərazilər naminə müharibəyə başlayacaqlarını deyirdi. Bu gün Paşinyan sülhdən danışır, amma bu, o demək deyil ki, onun beynində sərt transformasiya baş verib. Paşinyan elə həmişəki Paşinyandır".

E.Mirbəşiroğlu qeyd edib ki, ölkəmiz torpaqlarını işğaldan azad etdikdən, Ermənistanın təxribatlarının qarşısını qətiyyətlə aldıqdan sonra gördülər ki, Azərbaycana qarşı artıq heç nə edə bilməzlər. Buna görə də özümüzün təmin etdiyimiz ərazi bütövlüyünü Paşinyan dildə də olsa tanıdı. Cənab Prezident də vurğuladı ki, Ermənistan şifahi səsləndirdiyi mövqeyi təsdiq etməlidir. O, bir tərəfdən Azərbaycanın 86,6 min kvadrat kilometrlik ərazi bütövlüyündən danışır, digər tərəfdən Laçın yolu ilə bağlı hansısa iddialar səsləndirir. Burada bir paradoks yaranır. Azərbaycanın ərazisində hansısa qərar verməsi öz hüququdur. Kiminsə bizim ərazi bütövlüyümüz çərçivəsində, sərhədlərimiz daxilində hansısa məqamlarla bağlı qərar verməyimizə qarışmağa haqqı yoxdur.




Deputat bildirib ki, Paşinyanın Laçın yolu ilə bağlı səsləndirdiyi fikirlər absurddur: "Paşinyan həmin yol vasitəsilə Azərbaycan ərazisindəki separatçıları dəstəkləyir. Bu, birbaşa onun təxribatıdır. Arayik Arutyunyanı hakimiyyətə məhz Paşinyan gətirib. O da, Paşinyan kimi, Qərbin dəstəklədiyi separatçıdır. Bəzən Brüssel platformasına ümidlə baxsaq da, bütün platformalardan haqlı maraqlarımızı müdafiə etmək üçün səmərəli istifadə etsək də, bu görüşlər bizim üçün önəmli olsa da, yenə də Avropanın ikili oyununu görürük. Belə görünür ki, Azərbaycan ərazisində separatizmi ayaqda saxlayan Qərbdir".

Fransa Prezidenti Makronun, həmçinin bu ölkənin parlament üzvlərinin separatizmə dəstək ifadələrini xatırladan E.Mirbəşiroğlu vurğulayıb ki, Paşinyanın Laçın yolu ilə bağlı iddialarının arxasında hansı məqamın dayandığı bəllidir: "Paşinyan Qarabağdakı ermənilərin vəziyyətini bəhanə gətirərək Azərbaycanla sülh müqaviləsini imzalamaqdan yayınacaq. Bu məsələni görüşlərin əsas predmetinə çevirməyə çalışacaq. Bununla bağlı Avropadan da dəstək alacaq. Brüsseli Fransadan və ya Fransanı Brüsseldən təcrid olunmuş formada nəzərdən keçirmək doğru olmaz. Mahiyyət etibarilə Almaniya və Fransa Avropa İttifaqını təmsil edirlər".

Deputat Ermənistan Təhlükəsizlik Şurası katibinin ABŞ-yə səfərini xatırladaraq orada Azərbaycan əleyhinə əsassız ittihamlar səsləndirdiyini xatırladıb. Təəssüf ki, ABŞ-də ona zaman ayıraraq dinləyiblər. Digər tərəfdən bu, Azərbaycan-Ermənistan münasibətlərinin gələcək vəziyyətinin müzakirə olunduğu platformadır. Burada aşkar görünür ki, ikili oyun mövcuddur. "Reallıq odur ki, bütün səylər zaman udulmasına hesablanıb. Zaman qazanılması da, Ermənistan üçündür. Ona görə də Paşinyanın Laçın yolu ilə bağlı, eyni zamanda onun kabinet üzvlərinin Azərbaycan əleyhinə səsləndirdiyi əsassız fikirlər ölkəmizə qarşı qərəzli siyasi mövqenin formalaşdırılmasına və nəticədə Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının əngəllənməsinə hesablanıb", - deyə E.Mirbəşiroğlu əlavə edib.

### Ermənistan səviyyəsiz ritorikadan əl çəkməlidir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, bir neçə gün əvvəl Brüsseldə sülh "niyyət"ləri nümayiş etdirən Ermənistanın baş nazirinin hökumətin iclasında yenidən "daxili auditoriya" rejiminə keçid edərək qeyri-adekvat ritorika və davranışlar nümayiş etdirməsi Ermənistan adına təəssüf doğurur.

O qeyd edib ki, 44 günlük savaşdan sonrakı dövr ərzində sülhə ən çox yaxınlaşdığımız bir zamanda Ermənistan baş nazirinin ikili şəxsiyyət sindromu sülh müqaviləsi danışıqları üçün əngələ çevrilə bilər: "Paşinyanla bir zamanda xarici işlər nazirinin də oxşar ritorikaya müraciət etməsi İrəvanın sülh prosesinə maneçilik törətmək niyyətini nümayiş etdirir. Lakin məsələ burasındadır ki, istər Paşinyanın, istərsə də Mirzoyanın bəyanatlarındakı arqumentlərin hamısının həm faktiki, həm də hüquqi cəhətdən etibarsız olduğu sübut edilib. Ermənistanın baş naziri yenidən Laçın sərhəd-buraxılış məntəqəsi mövzusuna müraciət edir, baxmayaraq ki, Beynəlxalq Ədalət Məhkəməsi 6 iyul tarixli qərarı ilə Ermənistan tərəfinin məntəqənin aradan qaldırılması ilə bağlı müraciətini yekdilliklə rədd edərək İrəvanın hüquqa və beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə əsaslanmadığını göstərmişdi".

B.Məhərrəmov bildirib ki, Azərbaycan tərəfinin nümayiş etdirdiyi çoxsaylı videosübutlar, o cümlədən Beynəlxalq Qızıl Xaç Komitəsinin qaçaqmalçılığa cəlb olunması nəzarətsizlik dönəmində bu yolun separatizmə və təcavüzkarlığa xidmət etdiyini göstərir. Azərbaycan Laçında sərhəd-nəzarət buraxılış məntəqəsi qurmaqla regionda sülh və sabitlik üçün əlavə təhdidləri aradan qaldırmış oldu. Paşinyanın nə qədər gülünc olsa da, bölgədə "gərgin humanitar vəziyyət" iddiası səsləndirməsinə gəlincə, Azərbaycanın aidiyyəti strukturları, demək olar ki, hər gün humanitar yüklərin daşınması, nəzarət-buraxılış məntəqəsindən dinc məqsədlə sərnişinlərin razılıqla, təşəkkür edərək keçdiyini əks etdirən videolar yayımlayır.

Deputat deyib ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq daha etibarlı humanitar variant təqdim edib. Brüssel görüşündə, Aİ Şurasının Prezidenti Şarl Mişel də Azərbaycan tərəfindən təklif olunan "Ağdam-Xankəndi" yolunun yüklərin daşınması üçün vacibliyini bəyan edib. "Bütün bunların fonunda Ermənistan baş nazirinin Laçın sərhəd-buraxılış məntəqəsini hədəfə alması, Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da ifadə olunduğu kimi, Ermənistanın ərazimizdə qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübut edir. Paşinyanın Azərbaycanın guya bölgədə "etnik təmizləmə" həyata keçirmək istiqamətində addımlar atdığı barədə iddialarına gəlincə, ötən 30 il ərzində 1 milyondan artıq insanı məhz azərbaycanlı olduğuna görə doğma torpağından didərgin salan, 30 mindən artıq insanı məhz azərbaycanlı olduğuna görə soyqırıma məruz qoyan, monoetnik terror dövlətin bu barədə danışmağa, ümumiyyətlə, haqqı yoxdur", - deyə B.Məhərrəmov əlavə edib.

O, hazırda Azərbaycanda yaşayan ermənilərin sayının 30 min olduğunu da qeyd edib: "Ermənistanda neçə azərbaycanlı yaşayır? Bu gün 300 mindən artıq qərbi azərbaycanlı öz ata-baba torpağına, qəbirlərinə baş çəkə bilirmi? Ermənistanın baş naziri unutmamalıdır ki, bu tip iddialarla İrəvan və havadarları nəyisə dəyişə bilməyəcək, çünki zaman qalib, qüdrətli Azərbaycanın xeyrinə işləyir".

Deputat bildirib ki, İrəvan dalandan çıxıb normal inkişaf yoluna qədəm qoymaq istəyirsə, Azərbaycan qədər bölgədə sülhün, sabitlik və təhlükəsizliyin bərqərarında maraqlı olmalı, daxili auditoriyaya və havadarlarında məzlum obrazı yaratmağa hesablanmış səviyyəsiz ritorikadan və sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Baş Prokurorluq Ermənistanın ekoloji cinayətləri barədə beynəlxalq və xarici tərəfdaşlarına əməkdaşlıq barədə müraciət edib

Azərbaycan Respublikasının Baş Prokurorluğunda Araz çayı və onun sol qolu olan Oxçuçayın Ermənistan Respublikası ilə həmsərhəd bölgədə çirkləndirilməsinə dair müxtəlif mənbələrdən daxil olmuş, o cümlədən yerli və xarici mediada dərc olunan məlumatlar üzrə araşdırma davam etdirilir.Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib.

Müəyyən edilib ki, Ermənistanın iri mədən müəssisələri - Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları uzun müddətdir transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Çirklənmə nəticəsində Oxçuçaya tərkibində xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium və digər ağır metallar olan zəhərli tullantılar axıdılır. Mövcud istehsalatda problemlərin həll olunmamasına baxmayaraq, Yerasx (Arazdəyən) kəndində iri metallurgiya zavodunun inşası aparılır. Bu işdə, həmçinin aparıcı dünya dövlətlərindən olan xarici investorlar beynəlxalq və öz ölkələrinin daxili qanunvericiliyinin tələblərinə zidd olaraq heç bir ətraf mühitin mühafizəsi normalarına riayət olunmasını təmin etmirlər. Dağ-mədən obyektlərinin fəaliyyət göstərməsi və yenilərinin tikilməsi minlərlə insanın həyat və sağlamlığı üçün təhlükə törədir.

Odur ki, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən BMT-nin Transsərhəd Su Məcraları və Beynəlxalq Göllərin mühafizəsi və Espoo (Ətraf Mühitə təsirin ölçülməsi) konvensiyalarının tələbləri rəhbər tutularaq obyektiv araşdırma aparılması, eləcə də qanun pozuntuları, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə müvafiq xarici və beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin İqtisadi Komissiyasına, həmçinin Böyük Britaniyanın və Almaniyanın Ekologiya nazirliklərinə müraciət edilib.

Müvafiq araşdırmalar zamanı dağ-mədən obyektlərinin işinin düzgün təşkil olunması, bu zaman ətraf mühitin mühafizəsi tələblərinə dönmədən riayət olunması şərt kimi göstərilərək müəssisələrin fəaliyyəti nəticəsində ətraf mühitə dəymiş ziyanın müəyyən edilməsində əməkdaşlıq təklif edilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bəyan edilir ki, yol verilən qanun pozuntuları ilə bağlı bütün hallar obyektiv araşdırılmaqla milli və beynəlxalq qanunvericiliyə uyğun lazımi hüquqi tədbirlər görüləcək.

# Haylar Ermənistandan qaçmağın yeni yolunu tapıblar

## İndi onlar "Qarabağ erməniləri" adı ilə Avropaya köç edirlər

**Hayastanda sadə ermənilər arasında belə bir fikir yaranıb ki, ölkədə qalıb yaşamağın mənası yoxdur. Elə bu səbəbdən miqrasiya Hayastanda yenidən geniş vüsət alıb. Hətta bunun dayandırılması üçün Ermənistana edilən yardımlar da nəticə vermir. Avropa İttifaqının Hayastandakı nümayəndə heyətindən bildirilib ki, bura miqrantlar ölkəsidir.**

Qeyd edilir ki, Hayastanın ən iri donoru olan Avropa İttifaqı ermənilərin öz ölkəsində qalmaları üçün hakimiyyətə kömək etmək istəyir. Onlar gənc ermənilərə ixtisas almaqda kömək etməyə, iri proqramlar sayəsində iş yerləri açmağa çalışırlar. Lakin xarici təşkilatların gördüyü işlər və etdiyi yardımlar da nəticəsiz qalıb.

Ən maraqlısı da odur ki, artıq bu ölkənin vətəndaşları "Qarabağ ermənisi" adı ilə saxta pasport əldə edərək Avropa ölkələrinə qaçırlar. Sakinlər özlərini Qarabağ ermənisi kimi təqdim edərək, saxta pasport düzəltdirirlər. Həmin ölkələrdə yaşayan azərbaycanlıların bir qismi onlarla qarşılaşdıqlarını, bunu ermənilərin özlərinin etiraf etdiklərini söyləyirlər.

"Qaçqın" ermənilər Qarabağdakı sakinlərin, ümumiyyətlə, ərazidən çıxa bilmədiyini, separatçı oyuncaq rejimin üzvləri tərəfindən girov saxlanıldıqlarını deyirlər. Bölgədən Hayastana qaçanlar isə, ümumiyyətlə, geri dönməyi düşünmədiklərini, hətta regionu tərk edəcəklərini söyləyirlər.

Bir müddət öncə baş nazir Nikol Paşinyan da çıxışında son 30 ildə ölkə əhalisinin sayının xeyli şəkildə azaldığını, ermənilərin Avropa və Amerikaya birdəfəlik köç etdiklərini bildirmişdi. Erməni ekspertlər sakinlərin bu axınının 44 günlük müharibədən sonra daha da sürətləndiyini, məsələnin yaxın gələcəkdə Hayastanda ciddi demoqrafik problemə səbəb olacağını bildirirlər.

"4rd.am" saytı yazır ki, 2011-ci ilin əhalinin siyahıyaalınmasına əsasən, ölkə əhalisinin sayı 3 milyon 18 min 900 nəfər, 2022-ci ilin əvvəlində isə 2 milyon 964 min 600 nəfər olub. 2021-ci ildə 2 440 cütlük boşanıb, 2022-ci ildə isə ayrılan ailələrin sayı 137 nəfər çoxalaraq 2 577 nəfər təşkil edib. Vurğulanıb ki, ölkədəki sosial-iqtisadi vəziyyətin getdikcə kəskin şəkildə pisləşməsi nəticəsində əhalinin sayı sürətlə azalmağa başlayıb.

Aparılan araşdırmalardan sonra bəlli olub ki, sosial-iqtisadi duruma görə ailələrdə yeni uşağın doğulmasını istəmirlər. Demoqrafiya üzrə mütəxəssis Ruben Akopyan əhalinin sayının azalmasını 1990-cı ildə ölkədə az uşaq doğulması ilə əlaqələndirib. Əslində isə ölkə iqtisadiyyatının tənəzzülü, işsizlik problemi, məmurların korrupsiyaya qurşanması və əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşaması demoqrafik vəziyyətin pisləşməsinin əsas göstəriciləridir.

Hayastan hökuməti 44 günlük müharibədə 3 822, müxalifət isə 5 mindən çox hərbçinin öldüyünü bildirib. Boşananların başqası ilə evlənib yenidən ailə qurması mümkün olsa da, müharibədə ölənlərin yeri dolmayacaq. Bu, soyun, nəslin davam etməməsi deməkdir. Çoxları heç ailə qurmamışdı.

Digər tərəfdən o da faktdır ki, mühacirət indiki templərlə davam etsə, ölkənin gələcəyi sual altına düşə bilər. Ölkə rəhbərliyi isə mühacirət dalğasının qarşısını almaq və gedənlərin axınını səngitmək üçün faktiki olaraq heç bir tədbir görmür. Bu səbəbdən də əhali sürətlə azalmağa doğru gedir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Ağdamda vətəndaşları qəbul edib





**Cənab Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov iyulun 21-də Ağdam və Ağcabədi rayonlarından olan vətəndaşları qəbul edib.**

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Ağdam rayonundakı abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

Qəbuldan sonra "Azərişıq" ASC-nin rəhbərliyi Ağdam Konqres Mərkəzində regional idarə rəhbərləri ilə toplantı keçirib. Cənab Prezident İlham Əliyevin iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə təməli qoyulan obyektlərdə elektrik təsərrüfatının və şəbəkənin yenidən qurulması istiqamətində işlərə nəzarət daha da gücləndirilib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər. Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri Məcnun Məmmədov iyulun 21-də Quba Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Quba, Qusar və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Kənd Təsərrüfatı Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, nazir Quba Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, bölgədə fəaliyyət göstərən mərkəzlərin rəhbərləri ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciəti əsasən fermerlərə subsidiya, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təminedilmə, sığorta hadisəsi zamanı dəymiş ziyanın ödənilməsi və digər məsələlərlə bağlı olub.

Nazir hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Energetika naziri Pərviz Şahbazov iyulun 21-də Naxçıvan şəhərində vətəndaşları qəbul edib.

Nazirlikdən bildiriblər ki, nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətində keçirilmiş qəbulda vətəndaşların işlə təminat, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, elektrik sayğacının quraşdırılması və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib.

Qəbulda Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan 15 vətəndaş iştirak edib.

❖ ❖ ❖

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Masallı şəhərində Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Nazirlikdən bildiriblər ki, qəbula gələn vətəndaşların müraciəti sahibkarlığın inkişafı, o cümlədən güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, infrastruktur və s. məsələlərlə bağlı olub.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciəti diqqətlə dinlənilib, onlara müraciət etdikləri məsələlərlə bağlı izahat verilib, araşdırma tələb edən müraciətlər isə qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə baxılması üçün qeydiyyata alınıb.

Nazir müavini Sahib Ələkbərov Masallı Sənaye Məhəlləsində taxta məmulatları, mətbəx və uşaq mebeli, xovlu xalça, qadın və kişi üst geyimləri, döşək və metal yay hissələri istehsalı müəssisələrinin fəaliyyəti ilə də tanış olub.

❖ ❖ ❖

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov Şamaxı şəhərində Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, Vətən müharibəsində iştiraka görə təltifolunma, şəhid və şəhid ailəsi statusunun verilməsi, müharibə veteranı adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətə cəlbolunma və s. məsələlərlə bağlı müraciət ediblər.

SHXÇDX rəisi Mürsəl İbrahimov qəbul zamanı hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov İsmayıllı rayonunda vətəndaşlarla görüşüb.

AAYDA-dan bildirilib ki, İsmayıllı rayonu "9 №-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək agentliyin balansında olan avtomobil yolları ilə bağlı şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Agentliyin balansında olmayan şəhər, qəsəbə və kənddaxili küçə və yollara aid şikayətlərlə bağlı isə vətəndaşlara aidiyyəti üzrə yerli strukturlara (yerli icra hakimiyyəti və yerli bələdiyyələr) müraciət etmələri tövsiyə olunub.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildiriblər.

*AZƏRTAC*

# Üçüncü "YAŞAT" düşərgəsinin ilk həftəsi başa çatıb

"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı, "PMD Hospitality"nin tərəfdaşlığı ilə keçirilən 3-cü "YAŞAT" düşərgəsi maraqlı və əyləncəli anlarla yadda qalıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ilk həftənin 4-cü və 5-ci günlərində uşaqların idman və hovuz saatları, eləcə də psixoloqlarla görüşləri davam etdirilib.

Həmçinin onlar gips ustad dərsində və "Bilim Bakı" Mərkəzi tərəfindən təşkil olunan texnologiya laboratoriyasında yeni biliklərə, bacarıqlara yiyələniblər.

Ölkəmizin tanınmış idmançıları, boks üzrə beynəlxalq yarışların mükafatçıları Elvin İsayev və Tamerlan Abdullayev iştirakçılarla döyüş sənətinin incəlikləri barədə təcrübələrini bölüşüblər.

"ASAN Radio"nun təşkilati dəstəyi ilə baş tutan konsert proqramında Hiss və PRoMete ən maraqlı ifalarını səsləndirib, uşaqlarla əyləncəli vaxt keçiriblər.

Bağlanış mərasimində "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov uşaqlarla görüşüb, onlara sertifikatlar və müxtəlif hədiyyələr təqdim edib.

Bununla da düşərgənin ilk həftəsinə yekun vurulub.

Tərəfdaşlar: "PMD Hospitality" şirkəti, "Shamakhi Palace Sharadil" hoteli; baş sponsor - Bakcell; sponsorlar: "Nar", "PAŞA Bank" ASC, "BRAVO" supermarketlər şəbəkəsi; media dəstəkçiləri: Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV), "ASAN Radio".

# Milli Mətbuat Günü münasibəti ilə jurnalistlərə sovqat verildi

**Azərbaycan jurnalistləri, media nümayəndələri bu gün özlərinin peşə bayramını qeyd edirlər. Xalqımızın milli məfkurəsini, adət-ənənəsini yaşadan jurnalistləri bu əlamətdar gündə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi özünəməxsus formada təbrik edib.**



Mətbuat nümayəndələrinin peşə bayramını təbrik edən Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi təşkilata üzv olan media və KİV orqanlarına bayram sovqatı göndərib.

"Azərbaycan" qəzetinin kollektivi bu nəcib təşəbbüsə görə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə minnətdarlığını bildirir, əməkdaşlarına çox sağ ol deyir.

*"Azərbaycan"*

# ABŞ-nin Minnesota Universitetinə qəbul olunmuş Vətən müharibəsi qazisinə "YAŞAT" təqaüdü veriləcək

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Vətən müharibəsi əlili Cavid Əliyevlə görüşüb.

Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Ülvi Mehdiyev qazimizi ABŞ-nin Minnesota Universitetində magistraturaya qəbul olunması münasibətilə təbrik edib, ona təhsil həyatında və gələcək fəaliyyətində uğurlar arzulayıb. Diqqətə çatdırılıb ki, ona həmin universitet üzrə təhsil aldığı müddətə "YAŞAT" Fondu tərəfindən aylıq təqaüd təsis edilib. "YAŞAT" təqaüdünün məbləği 1000 ABŞ dollarıdır. Cavid Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2023-2024-cü tədris ili üzrə ABŞ-nin Minnesota Universitetinin Təchizat zəncirinin idarəolunması ixtisası üzrə magistraturaya qəbul olunub. O, Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində döyüşüb.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Yaşlı nəslin nümayəndələri ilə bağlı testlərin Azərbaycan dilinə adaptasiyası" adlı *təkrar müsabiqə keçirir*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Yaşlı nəslin nümayəndələri ilə bağlı testlərin Azərbaycan dilinə adaptasiyası" adlı təkrar müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 04 avqust 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 07 avqust 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5039)**

***Müsabiqə komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Yeni Klinika" tibb müəssisəsində istifadə üçün nəzərdə tutulmuş tibbi avadanlıqların ehtiyat hissələrininin satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma müsabiqəsinin qalibləri tender predmetinin bölüşdürülməsi nəticəsində "Azəri Med" Qapalı Səhmdar Cəmiyyəti və "Medsol" Məhdud Məsuliyyətli Cəmiyyəti olmaqla müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə sözügedən malgöndərənlər arasında müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Yeni Klinika" tibb müəssisəsində istifadə üçün nəzərdə tutulmuş tibbi avadanlıqların satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma müsabiqəsinin qalibləri tender predmetinin bölüşdürülməsi nəticəsində "Arash Medical Company" Qapalı Səhmdar Cəmiyyəti, "Azəri Med" Qapalı Səhmdar Cəmiyyəti, "Medsol" Məhdud Məsuliyyətli Cəmiyyəti, "JBA Group" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Azfar Med" Qapalı Səhmdar Cəmiyyəti, "Supplimed" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti olmaqla müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə sözügedən malgöndərənlər arasında müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən "Yeni Klinika" tibb müəssisəsində istifadə üçün nəzərdə tutulmuş tibbi alətlərin satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma müsabiqəsinin qalibləri tender predmetinin bölüşdürülməsi nəticəsində "Arash Medical Company" Qapalı Səhmdar Cəmiyyəti, "Azəri Med" Qapalı Səhmdar Cəmiyyəti və "Medsol" Məhdud Məsuliyyətli Cəmiyyəti olmaqla müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə sözügedən malgöndərənlər arasında müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin PROTEZ-ORTOPEDİK İSTEHSALAT VƏ REABİLİTASİYA MƏRKƏZİ tərəfindən Qapalı (otaqda) və açıq (çöldə) məkanlarda istifadə üçün mexaniki və sanitar-təchizatlı təkərli oturacaqların satın alınması üçün keçirilmiş açıq tenderdə "ZN Trade" MMC ən aşağı tender təklifi vermişdir.

***Tender komissiyası***

# Penitensiar Xidmət yarımillik fəaliyyətini müzakirə etdi




**Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Baş İdarəsində xidmətin 2023-cü ilin birinci yarım ili ərzindəki fəaliyyətinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.**

Ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi ədliyyə polkovniki Mirsaleh Seyidov müşavirəni açaraq ilk növbədə Prezident İlham Əliyev tərəfindən ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi vəzifəsinə təyinatını təkcə ona deyil, Penitensiar Xidmətin kollektivinə göstərilən böyük inam və etimad olduğunu vurğulayaraq sağlam meyarlar üzərində dövlətə sədaqətlə xidmət edərək bundan sonra da müsbət nailiyyətlər əldə olunacağını qeyd etdi. Nazir müavini bildirdi ki, Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla addımlayan Azərbaycan bu gün ən güclü dövrünü yaşayır: "İşğaldan azad edilmiş və üçrəngli bayrağımızın qürurla və əzəmətlə dalğalandığı ərazilərə Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər bir səfəri təntənəli zəfər yürüşünün davam etdiyini göstərir, qalib Azərbaycanın Böyük qayıdışı yüksək səviyyədə təmin etmək iqtidarında olduğunu nümayiş etdirir".

Nazir müavini hesabat dövrü ərzində penitensiar sahədə görülmüş işlər, yol verilmiş nöqsanlar və qarşıda duran hədəflər barədə məlumat verərək bildirdi ki, Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi xidmətin bütün qurumlarında geniş qeyd olunur: "Yubiley münasibətilə dövlət başçısının 801 məhkuma şamil olunan əfv sərəncamı vaxtında və qüsursuz icra edilmişdir. Penitensiar müəssisələrdə əməliyyat şəraiti sabit saxlanılmış, həbs edilmiş şəxslərin və məhkumların hüquqlarının daha etibarlı qorunmasına yönəlmiş tədbirlər davam etdirilmişdir".

Penitensiar Xidmətin fəaliyyətində müsbət nailiyyətləri qeyd etməklə yanaşı, yol verilmiş nöqsanların qısa zamanda aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildirən M.Seyidov xidmətin hər bir əməkdaşının qanunçuluq, dövlətə sədaqətli xidmət prinsipini rəhbər tutmağa borclu olduğunu diqqətə çatdırdı və qeyd etdi ki, korrupsiyaya şərait yaradan hallarla bağlı sərt mübarizə aparılacaq, ən ciddi tədbirlər görüləcəkdir. Daha sonra nazir müavini Penitensiar Xidmətin fəaliyyətində innovativ texnologiyaların tətbiq ediləcəyini, bütün fəaliyyət istiqamətlərinin daha səmərəli təşkil olunacağını diqqətə çatdırdı.

Penitensiar Xidmətin rəis müavini ədliyyə general-mayoru Oqtay Məmmədov xidmətin 2023-cü ilin birinci yarım ili ərzindəki fəaliyyətin yekunlarına dair hesabat məruzəsi ilə çıxış etdi. Qeyd etdi ki, ötən dövr ərzində Penitensiar Xidmət bütün fəaliyyət istiqamətləri üzrə məqsədyönlü tədbirlər həyata keçirmiş, penitensiar müəssisələrdə fövqəladə hallara, o cümlədən kütləvi iğtişaşlara yol verilməmiş, cinayətlərin profilaktikası, narkotiklərin və qadağan olunmuş əşyaların qanunsuz dövriyyəsi ilə mübarizədə müsbət nəticələr əldə edilmişdir.

Penitensiar müəssisə rəhbərlərinin çıxışları dinlənildikdən sonra ədliyyə nazirinin əmrləri ilə növbəti yüksək rütbə almış əməkdaşlar təbrik edildi, rəhbər vəzifələrə yeni təyinatlarla bağlı əmrlər şəxsi heyətin diqqətinə çatdırıldı.

*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# DOST xidmətlərinin sayı 159-a çatdırılıb

Ölkəmizdə uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və onların hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində aparılan çoxşaxəli sosial islahatlar fonunda qüvvədə olan qanunvericiliyə yeni sosial institut olan "Himayədar ailə" konsepsiyasının daxil edilməsi ilə bu sahədə yeni mərhələyə keçidin təməli qoyulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "DOST Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanında dəyişikliyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 iyul tarixli fərmanı ilə "DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na müvafiq xidmətlər əlavə olaraq daxil edilib. "DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na əlavə edilmiş yeni 5 xidmət nəzərə alınmaqla xidmətlərin sayı 159-a çatdırılıb.

# "AzerGold" QSC-nin təşkilatçılığı ilə Daşkəsəndə növbəti tibbi müayinə aksiyasına başlanılıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda, "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən Çovdar kəndi, Şadax yaşayış məntəqəsi, Çaykənd, Quşçu, Bayan və digər kəndlərin sakinlərinin növbəti səyyar tibbi müayinəsinə start verilib.




"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, aksiyanın ilk günündə rayon ərazisində yaşayan şəhid ailələrinin üzvləri, həmçinin müharibə iştirakçıları müayinə prosesinə cəlb ediliblər.

Ulu Öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində "Öncə sağlamlıq!" devizi altında təşkil olunan aksiyada yerli əhali 3 gün müddətinə ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanacaqlar. İyulun 22-dək davam edəcək aksiya çərçivəsində peşəkar həkim briqadası tərəfindən təqribən 500 nəfər sakinin ümumi cərrah, LOR, terapevt, endokrinoloq, kardioloq, nevropatoloq, pediatr, USM, EXO, EKQ, qanın və sidiyin ümumi analizi, ambulator qan təzyiqi monitorizasiyası və şəkərin təyini müayinələrindən keçirilməsi nəzərdə tutulur.

Aksiyanın ilk günündə səyyar müayinə düşərgəsini "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü, sədr müavini Xəyyam Fərzəliyev və digər rəsmi qonaqlar ziyarət edərək müayinə prosesini izləyiblər.

Qeyd edək ki, səyyar tibbi müayinə aksiyası yerli icmaların, xüsusilə ucqar kənd sakinlərinin səhiyyə sahəsində xidmətlərə əlçatanlığının artırılması, profilaktik müayinə mədəniyyətinin təbliği məqsədi daşıyır. 2021-ci ildən etibarən həyata keçirilən müayinə aksiyaları zamanı ümumilikdə 1500 nəfərə yaxın Daşkəsən sakini ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıb. Müayinələr əsnasında müxtəlif diaqnozlar aşkarlanan vətəndaşlara müvafiq müalicə kursları təyin edilib.

Xatırladaq ki, cəmiyyətin fəaliyyət göstərdiyi regionlardakı mədənlərin yaxınlığında yerləşən şəhər, kənd və qəsəbələrdə yaşayan, xüsusilə də sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin qayğı ilə əhatələnməsinə xidmət edən bu tip layihələr bundan sonra da davamlı şəkildə həyata keçiriləcək.

# Dünyanın ən ölümcül infeksiyası

## 2035-ci ilə qədər vərəm xəstəliyi 1 milyon insanın həyatına son qoya bilər

Birləşmiş Millətlər Təşkilatının sağlamlıq innovasiyası təşəbbüsü olan UNITAID-ın mütəxəssisləri təmasların izlənməsi və profilaktik tədbirlər görülməsə, 2035-ci ilə qədər təxminən bir milyon insanın xəstəlikdən öləcəyi barədə xəbərdarlıq ediblər.



BMT mütəxəssisləri israr edirlər ki, təhlükəli xəstəliyə yoluxmuş insanların məişət təmaslarının müəyyən edilməsi və vərəmin profilaktik müalicəsinin aparılması üçün kompleks strategiyanın həyata keçirilməsi iqtisadi cəhətdən səmərəli ola bilər. Əgər belə olarsa, növbəti 12 il ərzində bu tədbirlər xəstələrin təmasda olduğu şəxslər və İİV-ə yoluxmuş insanlar arasında ölümü 35 faiz azaldacaq.

### Uşaqları xilas edin

UNITAID, ABŞ-nin Con Hopkins Universiteti və Aurum İnstitutunun birgə araşdırması bu strategiyanın 2035-ci ilə qədər 850 min adamı xilas edə biləcəyini müəyyənləşdirib.

Nəticələr Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) vərəmin profilaktik müalicəsinin yoluxma riski daha çox olan şəxslərə təqdim edilməsi ilə bağlı tövsiyəsinə uyğundur. Bura İİV-ə yoluxmuş və vərəm xəstələri ilə təmasda olan şəxslər daxildirlər. Bu qrup hər il qeydə alınan 10,6 milyon yeni yoluxma hallarının əhəmiyyətli hissəsini təşkil edir. Bildirilir ki, bütün bu halların qarşısını almaq və müalicə etmək mümkündür.

### Diqqət mərkəzindən kənarda qalanlar vəfat edirlər

Con Hopkins Universitetinin professoru Tess Rikmanın dediyinə görə, hazırda vərəm diaqnozu qoyulmuş insanların bir çox ailə üzvləri diqqətdən kənarda qalır və nəticədə onlardan əksəriyyəti vəfat edir.

Vərəmin qarşısını almaq və müalicə etmək mümkün olsa da, dünyanın ən ölümcül infeksiyası olaraq qalır. ÜST-nin məlumatına görə, dünya əhalisinin təxminən dörddə biri vərəmə yoluxub və ağır fəsadlara səbəb olan aktiv xəstəliyə tutulma riski altındadır.

UNITAID nümayəndəsi Vinsent Bretin bildirir ki, vərəmin profilaktikasının zəruriliyi açıq-aşkardır. Xərclənən vəsaitlərin səmərəliliyinin analizi göstərir ki, köməyə ehtiyacı olan, lakin müraciət etməyən insanları tapmaq üçün daha çox səy tələb olunsa da, risk altında olanların əhatəli profilaktikasını təmin etmək çox faydalıdır. Bu, dünya miqyasında vərəmlə mübarizəyə böyük təsir göstərə biləcək uzaqgörən siyasətdir.

### Müalicə xərcləri azaldılır

UNITAID və təşkilatın tərəfdaşları tərəfindən aparılan bir sıra danışıqlardan sonra müalicə qiymətləri 2017-ci ildən bəri 70 faizdən çox aşağı düşüb. Yeni, daha qısa müalicə sxemləri nəinki əlçatan olur, həm də vərəm infeksiyasını aktiv xəstəliyə çevrilməmişdən əvvəl müalicə etməyə imkan verir.

Birləşmiş Millətlər Təşkilatının vərəmlə bağlı ikinci yüksəksəviyyəli iclası sentyabrda baş tutacaq. Bu forum ərəfəsində UNITAID ölkələri vərəmlə mübarizə sahəsində əlavə öhdəliklər, o cümlədən maliyyə öhdəlikləri götürməyə çağırır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Abşeronda qanvermə aksiyası keçirilib




Abşeronda Mərkəzi Qan Bankının və Abşeron Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib.

Xırdalan şəhərindəki Mərkəzi Xəstəxanada təşkil olunan aksiya hemofiliya və talassemiya kimi irsi qan xəstəliklərindən əziyyət çəkənlərin qan ehtiyatını artırmaq məqsədi daşıyıb.

Aksiyaya qoşulan vətəndaşlar əvvəlcə xəstəxananın və Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin həkim briqadası tərəfindən müayinədən keçirilib. Hər bir donordan yalnız sağlamlığı müəyyənləşdirildikdən sonra qan götürülüb. Qanvermə aksiyasında 100 nəfərdən artıq rayon sakini könüllü iştirak edib. Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra Mərkəzi Qan Bankına təhvil verilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Bu ilin 6 ayında sosial xidmətlər üzrə 8,5 milyon müraciət qeydə alınıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə elektron xidmətlərə 2023-cü ilin 6 ayında 8,5 milyon müraciət qeydə alınıb.

Qurumların informasiya bazaları ilə inteqrasiya prosesi təmin edilir və yanvar-iyun aylarında nazirliyin mərkəzləşmiş informasiya sistemlərinə sorğu sayı 110 milyon olub. Son 6 ayda e-sosial.az portalından isə 4,5 milyon dəfə istifadə olunub.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzliyə əzizi

**SONA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5192**
**Sifariş 1787**

**Qiyməti 40 qəpik**